# 50 Həyat Dərsi

***İsa ona cavab verdi:***
***"Kim Məni sevsə, sözümə riayət edər,***
***Atam da onu sevər və Biz onun yanına gəlib***
***onunla məskən salarıq."  Yəhya 14:23***

Bu kitabı şəxsi istifadə üçün çap etmək istəyirsinizmi?
Yaxud istifadə etmək üçün cihazınıza endirmək istəyirsinizmi?
Bu dərslərin hamısını ingilis dilində və digər dillərdə
**www.learnhisways.com** saytından pulsuz endirə bilərsiniz.

© 2012 Life Resources

Əziz İsaya İman Edən,

Siz İsa Məsihə iman edəndə, günahınızın bağışlanmasına və sizə əbədi həyat verməsinə görə Ona etibar etdiniz. Bu heç kimin sizdən ala bilməyəcəyi qiymətsiz hədiyyədir. Bütün həyatımız boyu biz imanlılar Allahın Öz Oğlunun ölümü və yenidən dirilməsi vasitəsilə bizə verdiyi heyrətamiz lütfə şadlanacağıq.

Amma sizin İsada yeni həyatınız yalnız cənnətə getməkdən ibarət deyildir. Siz köhnə günahlı həyatınızı tərk edib bu gün qaranlıq dünyada Onun üçün yaşayaraq, cəsarətli addım etmişsiniz. Buna görə də, Allah bizə digər iki heyrətamiz hədiyyələri – Öz Müqəddəs Kəlamını və Müqəddəs Ruhunu vermişdir. Allahın Kəlamı Onun bizdən nə istədiyini bilməyə yardım edir və Müqəddəs Ruhu bizə Onun üçün yaşamağa güc verir. Biz başqalarına bunu görməyə kömək edərək, Onun işıqları olduq. Biz sual veririk: Biz İsanın ardınca getmək üçün İNDİ nə etməliyik? O bizim Rəbbimizdir, elədirmi? Biz yeni həyata malikik, elə deyilmi? Onda, biz öz həyatlarımızla bu gün Allahı necə şərəfləndirə bilərik?

Əgər biz ciddi olaraq İsa üçün yaşamaq fikrindəyiksə, özümüzə bəzi çətin suallar verməliyik:

- **Mən İsanın təlimlərini və əmrlərini bilirəmmi?**
- **Mən onları diqqətlə öyrənməyə səy göstərirəmmi?**
- **Mən hər gün onlara riayət edirəmmi?**
- **Mən Onun köməyi ilə bunları başqalarına öyrətmək istəyirəmmi?**

## İSANIN ARDINCA GETMƏK ONUN ƏMRLƏRİNƏ RİAYƏT ETMƏK DEMƏKDİR

İsa Luka 6:46-da demişdi: ***"Nə üçün Məni "ya Rəbb, ya Rəbb" deyə çağırırsınız, amma dediklərimə əməl etmirsiniz?" (Luka 6:46)***

Biz İsanın təlimlərini diqqətlə öyrənməsək, 21-ci əsrdə İsaya necə əməl edə bilərik? Aşağıda nə üçün İsanın əmrlərini öyrənməli və onlara riayət etməli olduğumuz barədə Onun Öz dediklərindən üç səbəb verilmişdir.

1) ***"Göydə və yer üzündə bütün səlahiyyət mənə verilmişdir." (Matta 28:18)*** İsa ölülərdən dirildikdən sonra bunu demişdi. Biz Ona itaət edəndə insan sözlərinə deyil, Allahın sözlərinə riayət etdiyimizi bilə bilərik. İsa çarmıxa çəkilməmişdən əvvəl belə demişdi: ***"...Sizə söylədiyim sözləri Özümdən söyləmirəm, Məndə olan Ata Öz işlərini görür." (Yəhya 14:10)***

2) ***"Kim Məni sevsə, sözümə riayət edər, Atam da onu sevər və Biz onun yanına gəlib onunla məskən salarıq." (Yəhya 14:23)*** Bu dünyada olan bir çoxları sadəcə dodaqları ilə İsanı sevdiklərini deyirlər, lakin onlar Ona itaət etmirlər. Bu bənddə İsa bizə deyir ki, əgər biz Onu həqiqətən sevsək, təbii şəkildə Ona itaət edəcəyik. Sonra O, izah edir ki, bunun nəticəsində Allahla münasibətdən bizə şərəf və sevinc gələcək!

3) ***"Meynə mənəm, sizsə budaqlarsınız. Kim Məndə qalsa, Mən də onda qalsam, çoxlu bəhrə verər, çünki Mənsiz heç nə edə bilməzsiniz." (Yəhya 15:5)*** Əgər biz İsanın təlimlərini xatırlamır və onlara riayət etmiriksə, İsada qaldığımızı necə iddia edə bilərik? ***"İsada qalmaq"*** bizim sərbəst şəkildə fəaliyyət göstərməyimiz deyil, Onun Ruhuna və yoluna tabe olmaq mənasını verir. Belə olduğu halda, biz əminik ki, bizim həyatımız faydalı və çoxlu bəhrə gətirəcək.

## BU KİTAB HAQQINDA

Bu kitabda İsanın həyat və təlimləri barədə 50 dərs vardır. Bu sizə Onun yollarını öyrənməyə və ya əgər Onun yollarından agahsınızsa, başqalarına bu barədə öyrətməyə kömək etmək üçün yazılmışdır. Bu kitabdan istifadə etmək üçün sizə İncil (Əhdi-Cədid) lazımdır. Siz bu kitabdan şəxsi ibadət vaxtı üçün də istifadə etmək istəyə bilərsiniz. Amma, əgər mümkünsə, başqaları ilə birlikdə oxuyun. Bu kitab xüsusilə ev toplantıları üçün hazırlanmışdır. Qrup müzakirələri və dua başqaları ilə birlikdə böyümək üçün yardım etməkdə çox vacibdir.

Bütün dünyada olan imanlı cəmiyyətləri İsanın əmrlərini öyrənirlər. Hər həftə İsanın onların və digərlərinin həyatını dəyişdiyini görürlər.

***Beləliklə, bu sözlərimi eşidib onlara əməl edən hər kəs öz evini qaya üzərində quran ağıllı adama bənzəyir. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Amma ev uçmaz, çünki təməli qaya üzərində qurulub. (Matta 7:24-25)***

Qoy, İsanın ardınca getdikcə və başqalarına Onun yollarının gözəlliyini görməyə yardım etdikcə Allahın Səltənəti sizin vasitənizlə böyüsün.

## Müqəddəs Kitab Dərslərinin Prinsipləri
## və Rəhbərlər üçün Qaydalar

Allahın Kəlamından, Müqəddəs Kitabdan öyrənmək böyük üstünlükdür! Biz Allahın tələb etdiyi öyrənmə tərzini anlamalıyıq. Əgər biz Allahın Kəlamını imtahanı keçmək üçün faktları öyrənən tarix fakültəsinin tələbəsi kimi öyrənsək, biz Allahın nə istədiyini nəzərdən qaçıracağıq. Onun təlimi bizim başlarımız üçün deyil, ürəklərimiz üçündür.

İsa Məsihin həyatı və təlimləri barədə olan bu dərslər sizə Onun sözlərini **diqqətlə dinləməyə** və onlara **riayət etməyə** kömək etmək məqsədilə yaradılmışdır. Bunu etməyin üç vacib yolu aşağıdakılardır:

1) HEKAYƏYƏ YAXINDAN NƏZƏR YETİRİN – Hər bir dərsdə olan bəzi suallar həqiqətən nə baş verdiyini və nə deyildiyini görmək üçün sizdən ***müəyyən ayələrə yaxından nəzər yetirməyi*** xahiş edəcək. Həmin halda öz fikrinizi kənara qoyun və düşünün: “Əslində burada nə deyilir?”
2) MƏNA BARƏDƏ DÜŞÜNÜN – İsanın hər bir sözü vacibdir. Bəzi suallar sizdən ***İsanın Öz sözləri və ya hərəkətləri vasitəsilə bizə nə öyrətməyə çalışdığını düşünməyinizi*** istəyəcək. Biz riayət etməmişdən əvvəl Onun nəyi nəzərdə tutduğunu anlamalıyıq.
3) BUNU ÖZ HƏYATINIZA TƏTBİQ EDİN – Dərsin sonluğuna yaxın sizi saxlayıb İsanı şərəfləndirəcək şəkildə ***Onun sözlərini həyatınızda necə tətbiq etməyiniz*** barədə düşündürən suallar görəcəksiniz. Bu suallara cavab verməyə tələsməyin. Siz Onun yoluna tabe olanda həyatınız dəyişəcək.

Mündəricat

**QRUP RƏHBƏRLƏRI – Hər bir qrup üzvü üçün bu dərsləri maraqlı etmək məqsədilə aşağıda bəzi qaydalar verilmişdir:**

- **Dərsinizə hazırlaşmazdan əvvəl Müqəddəs Ruhun sizin müəlliminiz olması üçün dua edin.** Ondan sizə rəhbərlik etməsini və grupla bölüşmək üçün sizə müdriklik və qavrayış verməsini xahış edin.
- **Qrup rəhbəri kimi, qrupla görüşməzdən əvvəl, bölüşəcəyiniz Kəlam hissəsini və sualları təklikdə oxuyun.** Siz özünüz dərslə əvvəlcədən tanış olsanız, qrup üzvlərinə kömək etmək üçün daha yaxşı hazırlaşmış olacaqsınız.
- **Qrup dərsinizi dua ilə başlayın. Allahın sizinlə olub Kəlamını anlamağa və riayət etməyə kömək edəcəyinə inanın.**
- **Bu dərslərin ən vacib hissəsi Müqəddəs Kitabdan götürülən Kəlamlardır.** Bir qrup olaraq, təyin edilmiş Kəlamların ən azından bir dəfə oxuyun.
- **Cavab verməzdən əvvəl qrup üzvlərinin bəndləri diqqətlə oxuduğundan əmin olun.** Dərslər bizim İsanın nə dediyini fərz etməyimiz üçün deyil, Onun əslində nə öyrətdiyini aydınlaşdırmaq üçün hazırlanmışdır.
- **Qrupun üzvlərinin sualların hamısına bir-bir cavab verməsini təmin edin.** Bəzən hər bir nömrə altında 3-4 sual ola bilər. Bütün sualların hamısını birdən oxumayın. Növbəti nömrəyə keçməmişdən əvvəl hər bir sualı cavablandırın.
- **Bu dərslər bütün dərs boyu bir nəfərin təbliğ etməyi və ya öyrətməyi üçün deyil, qrup şəklində müzakirə etmək üçün nəzərdə tutulmuşdur.** Əgər qrup böyükdürsə, vaxt məhdudiyyəti səbəbindən hamının bir-bir suallara cavab verməyə imkanı olmaya bilər. Buna baxmayaraq, qrupda olan hər bir kəsə bir neçə sual barədə öz fikirlərini bildirməyə imkan yaradın. Müzakirədə hamının iştirak etməsini və heç kimin söz üstünlüyünü əlində saxlamamasına ruhlandırın.
- **Əgər mümkünsə, qrup üzvlərinin bir-birini görə bilməsi üçün dairəvi şəkildə oturun.** Bu sıra ilə düzülmüş stullar və qarşıda yalnız rəhbərin təlim verdiyi "sinif otağı" tərzinə nisbətən daha qeyri-rəsmi bir mühit yaradır. Dairəvi şəkildə oturmaq qrup üzvlərinə müzakirədə daha azad şəkildə iştirak etməyə yardım edəcəkdir.
- **Mümkün olduğu qədər, çalışın ki, hər kəsdə, Müqəddəs Kitab və dərs materialının kopiyası olsun.** Qrup üzvlərini ruhlandırın ki, dərs materialını evə aparıb, yenidən, öz ailə üzvləri və ya dostları ilə keçsinlər.

## İlkin Dərslər

# İSANIN ARDICILININ ÜRƏYİ

***İsa danışmağa başlayıb onları öyrədərək dedi… (Matta 5:2)***

İsa üç illik xidmət dövründə insanlara çox şey öyrətdi. Bəs onlara ilk öyrətdiyi şeylər nə idi? Onun bizim başlanğıcdan bilməli olduğumuzu hesab etdiyi şey nə idi?

Əhdi-Cədiddə İsanın ilk təlim sözlərinə Mattanın müjdəsi 5-ci fəsildə rast gəlirik. O, Öz təlim xidmətini bizə dünyada həqiqətən bəxtiyar insanların kim olduğunu söyləməklə başlayır. O bilirdi ki, bütün insanlar xoşbəxtlik axtarır. Amma onu da bilirdi ki, insanlar adətən yanlış şeylərdə xoşbəxtlik axtarırlar. Biz çox vaxt yanlış şeylərə baxırıq.

**Bu bölmədə olan iki dərs bizə öz həyatımıza həqiqi gözlə baxmağa və sual verməyə kömək edəcək:** ***"Mən həqiqi bəxtiyarlığın tapılması yolunu bilirəmmi? Mən həqiqətənmi bunu istəyirəm?"***

# 1. Həqiqi Xoşbəxtliyin Yolunu Aşkar Edin

## *1-ci Hissə*

**Müzakirə üçün sual:**

Sizcə bu dünyada hansı adamlar xoşbəxt və bəxtəvərdirlər?

Və adamlar kimlərə qibtə edirlər?

**Matta 5:1-12-ni oxuyun.**

1. Matta 5:3-12-ci ayələrə ötəri nəzər salaq. Hər bir ayədə hansı söz daim təkrarlanır?
2. İsa Məsihə görə üçüncü ayədə bəxtiyar və xoşbəxt kimdir?

   Ruhən yoxsul olmaq ruhən yoxsul insanlar olduğumuzu qəbul etməyimiz deməkdir. Başqa sözlə bu o deməkdir ki, gərək məğrur olmayaq, özümüzü tərifləməyək. Yəni qəbul etmək lazımdır ki, bizim həyatımızda Allah lazımdır.
3. Ruhi yoxsulluğu qəbul etmək niyə bizim üçün çox çətindir?

   Nə üçün İsa Məsih deyir ki, ruhən yoxsul olan bəxtəvərdir?
   (3-cü ayəyə bax.)
4. Ağlayan, kədərlənən adamlar nə əldə edəcəklər (ayə 4)? Sizcə ruhən yoxsul olan adamlar kədərlənməyə ehtiyac duyurlarmı? Bəs niyə?

   Çox vaxt biz düşünürük ki, kədər, göz yaşları yalnız matəm vaxtı baş verir, amma Allahın Səltənətini görmək istəyi ilə bu dünyaya gələn Məsihçilər başqa şeylərə görə də kədərlənəcəklər. Məsələn, əgər biz İsanın şağirdləri olsaq, günahlarımıza görə də kədərlənəcəyik, çünki günahlarımız Allaha hörmətsizlik gətirir, başqa adamları incidir. Biz həmçinin dünyadakı eqoizmə görə də kədərlənəcəyik.

   Siz öz günahına görə kədərlənirsiz? Bu ölkədə yaxud dünyada nə sizi kədərləndirməyə məcbur edir?
5. Kim yeri miras alacaq (ayə 5)?

   Həlim olmaq başqalarına münasibətdə sadə, mehriban və mülayim olmaq deməkdir. Əgər biz dərk etsək ki, Allah bizə lazımdır, bu bizim həlim olmağımıza kömək edəcəkmi? Necə?
6. Qəddar, zülmkar, qaniçən adamlar rəhbərliyi, nəzarəti əllərinə alanda, həlim adamlar yeri necə miras alacaqlar?

   Bu ayə həlim adamların səbirli olmaları və Allahın öz vədini yerinə yetirəcəyinə inanmaları üçün kömək edirmi?

7. 6-cı ayəni bir də oxuyun.

   Salehlik üçün acımaq və susamaq nə deməkdir?

   Siz Allahı tanımaq, Onun qarşısında saleh olmaq üçün heç güclü bir susuzluq hiss etmisinizmi? Əgər belədirsə, heç ona öz istəyini söyləmisinizmi?

   İnanırsınızmı ki, Allah sizin bu istəyinizi yerinə yetirəcəkdir?

8. İsa Məsih salehlik üçün aclıq və susuzluq hiss edənlərə nə vəd etdi? (6-cı ayəyə bax.)

9. **Yəhya 7:37-38-i oxuyun.**

   İsa yenidən susayan adamlar haqqında danışır. İsa dedi ki, əgər biz sussuzlamışıqsa, biz Onun yanına gəlib su içə bilərik. Bu nə deməkdir?

   İsa 38, 39-cu ayədə 37-ci ayənin mənasını necə izah edir?

   Siz İsadan gələn həyat suyunu içməyə başlamısınız? Bu haqda qrupda danışa bilərsiniz?

10. Bu gün öyrəndiyimiz ayələrdən xüsusilə hansı sizin ürəyinizə toxundu? Bu haqda qrupda danışın.

    Allahdan bu ruhani münasibəti sizin ürəyinizdə toxum kimi əkməyi xahiş edin. Onda siz daha çox İsa kimi olacaqsız.

# 2. Həqiqi Xoşbəxtliyin Yolunu Aşkar Edin

## *2-ci Hissə*

**Müzakirə üçün sual:**

Keçən dərsdə biz İsa Məsih şagirdlərinin 4 səciyyəvi xüsusiyyətlərinə baxdıq. Siz onları təkrar edə bilərsinizmi?

Matta 5-ci fəsildə bu ilk 12 ayə İsanın bütün şagirdlərinə bəzi səmimi münasibətləri öyrədir. Bu münasibətləri Allaha və başqalarına yönəltməliyik. Sizcə, bütün bəşəriyyətin həmin səmimi münasibətlərə ehtiyacı varmı? Niyə?

**Matta 5:1-12-ni oxuyun.**

1. Siz mərhəmətli sözünün mənasını necə açıqlayardınız (ayə7)? Keçmişdə layiq olmadığınız təqdirdə, sizə qarşı mərhəmətli olan bir adamı xatırlaya birlərsinizmi?
2. Əgər siz mərhəmətlisinizsə, onda nə əldə edəcəksiniz (ayə 7)? Nə üçün siz fikirləşirsiniz ki, bizim başqaları ilə rəftarımız Allahın bizimlə rəftarına təsir edəcək?

**Matta 18:21-35-i oxuyun. Bu hekayədə əsas fikir nədir?**

3. Matta 5:8-i oxuyun. Kim Allahı görəcək?

   Siz heç Allahı görməyi təsəvvür etmisinizmi?

   Sizcə, nə üçün yalnız ürəyi təmiz adamlar Allahı görəcəklər?
4. Sizcə Allahı görməyə hüququnuz çatırmı? Niyə?
5. 9-cu ayəni oxuyun. Əgər sülh yaradanlar “Allahın övladları” adlandırılırsa, bu bizə Allahın özü haqqında nə deyir?
6. Bu dünyada sülh yaradanlara ehtiyac varmı? Biz evimizdə və cəmiyyətimizdə necə sülh yaradan ola bilərik? Həyatınızda sizin sülh yaradan rolunda olmağına ehtiyac duyulan bir vəziyyət varmı?
7. Cəmiyyətdə sülh yaratmaq üçün adamlar bizim səylərimizi həmişə qəbul edəcəklərmi?
8. Bu ayələr saleh adamlar haqqında danışır, o adamlar ki, onların davranışları Allah qarşısında düzgündür. Siz 3-9-cu ayələrdə verilmiş səciyyəvi xüsusiyyətləri əzbərdən sadalaya bilərsinizmi?
9. 10-12-ci ayəyə qədər oxuyun. İsa Allah qarşısında saleh olan adamlarda baş verə biləcək şeylər haqqında nə deyir? Nə üçün bəziləri Allah adamına qarşı düşmən münasibət bəsləyirlər?

10. İsa 11-ci ayədə öz davamçıları ilə birbaşa danışır. O, onlara baş verəcək şeylərlə bağlı nə deyir? Onlar nə üçün sevinməlidirlər (ayə 12)?
11. İsa Məsihin təlimlərinə əməl etmək asandırmı? İsa deyir ki, belələri bəxtiyardırlar, yəni xoşbəxt və bəxtəvərdirlər. Bu xoşbəxtlik maddi sərvətlə yoxsa ruhi sərvətlə bağlıdır?
12. Bu dünyadakı adamlar da İsa Məsihin davamçıları kimi eyni yolla xoşbəxtliyi əldə edirlərmi? Bu dərs sizdə bu dünyadakı adamlardan fərqli olmağa istək yaradıbmı? Necə?

***“Onlar İsadan soruşdular:***
***‘Allahın istədiyi işləri görmək üçün biz nə edək?’***

***İsa onlara cavab verdi:***
***‘Allahın istədiyi iş budur:***
***Onun göndərdiyi Şəxsə iman edin.’”***
***Yəhya 6:28 – 29***

# TÖVBƏ VƏ İMAN EDİN

***Yəhya həbs olunandan sonra İsa Qalileyaya gəlib Allahın Müjdəsini vəz edirdi: "Vaxt yetişib, Allahın Padşahlığı yaxınlaşıb. Tövbə edin və Müjdəyə inanın" (Mark 1:14,15)***

İsanın ardıcılları bilirlər ki, onlara tövbə etmək əmr olunub. Bəs biz necə tövbə edirik? Allah bizdən nə etməyimizi istəyir?

***"Müjdəyə iman etmək"*** nə deməkdir?

***"Tövbə etmək"*** və ***"iman etmək"*** sözləri Əhdi-Cədid boyu işlənilmişdir. Biz İsa ilə gəzməyimizi tövbə və imandan başlayırıq. Biz Allahla gəzməyimizi bütün həyatımız boyu tövbə və imanla davam etdiririk. Bu bölmədəki dərslər bizə bunu necə etməyi öyrədir. Nəticəsi həyat gətirir!

# 3. Öz Salehliyinizə Güvənməyin

*"Allah məğrurlara garşıdır, itaətkarlara isə lütf göstərər."*
*Yaqub 4:6*

**Müzakirə üçün sual:**

Sizcə, bazarda meyvələrin tərəzidə çəkildiyi kimi, Allah da bizim yaxşı və pis əməllərimizi tərəzidə ölçürmü? Öz fikirlərinizi qrupa izah edin.

**Luka 18:9-14-ü oxuyun.**

1. İsa bu məsəli kimə çəkdi (9-cu ayə)?
2. İki nəfər dua etmək üçün məbədə girdilər (10-cu ayə). Aşağıdakılara baxmazdan əvvəl fariseylərin və vergiyığanların kim olduğunu deyə bilərsinizmi?

**İsanın dövründə fariseylər və vergiyığanlar kimlər idilər?**

Fariseylər yəhudi dini xadimləri idi. İnsanlar onlara hörmət edirdilər, lakin İsa isə onların dini maska geyindiyini deyirdi. Həqiqətdə onların ürəkləri Allahdan uzaq idi. İsa onları riyakar olduqlarına görə məzəmmət edib şagirdlərinə əmr etdi ki, onlara bənzəməsinlər. Vergiyığanlar xalqı aldadan rüşvətxorlar idilər. Yəhudilər vergiyığanlara nifrət edirdilər. Bu məsəldə həmin insanların hər ikisi məbəddə dua edirdilər.

3. İsanın məsəlindəki farisey dua edərkən çox arxayın idi. O, Allaha nə deyirdi (11-12-ci ayələr)? Sizcə, farisey bütün yaxşı əməlləri barədə Allaha xatırlatmalı olduğunu nəyə görə düşünürdü?
4. Siz fariseyin duasında onun Allah qarşısında salehliyi ilə qürrələndiyini aşkar edirsinizmi? (Yenidən 11-ci ayəyə baxın.) Farisey hər hansı bir günahına görə bağışlanma dilədimi?
5. Yenidən vergiyığanın duasını oxuyun (13-cü ayə). O da farisey kimi Allaha yaxşı əməlləri barədə xatırlatdımı? O, ümidsiz halda Allahdan nə diləyirdi?

   Vergiyığan Allah qarşısında salehliyindən arxayın idimi?
6. İsaya görə onlardan hansı biri evinə Allah qarşısında saleh sayılaraq getdi? (14-cü ayə)

   İncil öyrədir ki, hamı günah edib, Allahın izzətindən məhrum olub (Rom. 3:23). Əgər biz farisey kimi öz əməllərimizə inanırıqsa, Allahla düzgün münasibətimiz üçün heç bir ümid yoxdur. Hamımız

günahkarıq və Allahın bizi təmizləməsinə ehtiyacımız var. İsa Məsihdə ümid var. O, tövbə edib, Ona iman etməyimizi əmr edir.

7. İsanın Atanın yanına qalxdığından neçə illər sonra Həvari Yəhya günahlarımızı etiraf edib, günahlarımıza görə İsaya qurban kimi inanmağımızın vacibliyini izah etmişdir.

**1 Yəhya 1:8-2:2-ni oxuyun.**

Bu ayələr Allah qarşısında günahlarınızı səmimi olaraq etiraf etməyə sizi ruhlandırırmı? Bu ayələrin bizə nə öyrətdiyini öz sözlərinizlə izah edin.

**ÖZ HƏYATINIZ BARƏDƏ DÜŞÜNÜN.**

8. Siz etdiyiniz günahlara görə tövbə etməlisinizmi?

   Etdiyiniz əməllərə görə sizi utandıran şeylər varmı?

   İsa öyrətmişdir ki, yalnız dəhşətli cinayətlər (məsələn, qətl) yaxud rüsvayçı ictimai günahlar etmək (məsələn, zina) günah hesab olunmur. O, öyrətmişdir ki, günah hər bir insanın ürəyində başlayır. Əgər biz kimisə şəhvətlə istəyiriksə, ürəyimizdə zina etmiş oluruq. Əgər qəzəbli sözlər danışırıqsa, insanları öldürmüş oluruq. Əgər biz başqalarına nifrət edib, onları lənətləyiriksə, bütün insanları sevən göylərdəki Atamıza bənzəmirik. Siz etdiyiniz bütün səhvlərə görə Allah tərəfindən bağışlanmalı olduğunuzu bilirsinizmi?

9. İncil öyrədir ki, Allahın mərhəməti İsa Məsihə iman edənlərin hamısı üçün əvəzsiz hədiyyədir, çünki İsa Məsih qurbanlıq quzu kimi bütün dünyanın günahı üçün öldü. Vergiyığan kimi sizin Allahın mərhəmətinə ehtiyacınız olduğunu görürsünüzmü? Ehtiyatlı olun ki, özünü aldadan farisey kimi öz salehliyinizə etibar etməyəsiniz. Siz bağışlanmaq üçün Allah qarşısında günahınızın səmimi etiraf edilməsinin vacibliyindən xəbərdarsınızmı?

**QRUP RƏHBƏRI ÜÇÜN QEYD**

İndi qrupu yavaş-yavaş Rəbbə günahlarını etiraf etməklə duaya yönəldin. Əmin olun ki, Allahın qrup üzvlərini bağışlaması üçün İsanın onların günahlarına görə öldüyünü bilirlər. Onlara İsaya günahlarını aradan qaldıran bir şəxs kimi etibar etməyi öyrədin.

# 4. Sizin Günahlarınız Üçün İsanın Ölməsinə İnanın

## *İsanın Ölüm Hekayəsi: 1-ci Hissə*

**Giriş:** Bu silsilədə məqsəd İsanın Onun ardınca gedənlərin hamısına verdiyi təlimləri və Onun əmrləri barədə öyrənməkdir. İsa davamçılarına Ona iman etməyi öyrədirdi. Nə üçün? Bu gün və gələn dərsdə biz təqribən 2,000 il bundan öncə baş vermiş İsanın ölümü barədə oxuyacağıq. Milyonlarla insanlar Onun dünyanın xilaskarı olduğuna iman edirlər. Biz Ona iman etmək üçün Onun ölümünün məqsədini anlamalıyıq, çünki Əhdi-Cədiddə Onun Ataya itaət edərək bizim günahlarımıza görə qurban kimi ölmək üçün dünyaya gəldiyi öyrədilir.

**Müzakirə üçün sual:**

Elə olubmu ki, siz Allaha və ya özünüzə nəyisə bir daha etməyəcəyinizə söz verəsiniz, amma həmin şeyi yenə də edəsiniz? Biz özümüzün zəif olduğumuzu görəndə nə etməliyik?

**Mark 14:27-31-i oxuyun.**

1. 27-ci ayədə İsa ölərkən nə olacağını deyir?

   Sonra 28-ci ayədə O ölümündən sonra baş verəcək bir ecazkar şey haqqında əvvəlcədən xəbər verir. Bu nə idi?

2. 29-cu ayədə Peter Onu atıb getməyəcəyini deyir. İsa Peterə necə cavab verir (30-cu ayə)?

   Peter İsa ilə ölümə gedə biləcək qədər güclü olduğunu düşünürdü (31-ci ayə). Əgər siz Peterin yerində olsaydınız, İsa sizə Onu inkar edəcəyinizi deyəndə inciyərdinizmi?

**Mark 14:32-42-ni oxuyun.**

3. İsa Peter, Yaqub və Yəhyanı özü ilə dua etməyə aparanda O daxili hissləri barədə onlara nə dedi (33-34-cü ayələr)?

4. İsa dərin kədər keçirib dua edərkən şagirdlər yatırdılar. Nə üçün onların “oyaq durub dua etmələri” İsa üçün vacib idi (37-38-ci ayələr)?

5. İsa yenidən dua etməyə getdi və qayıdanda şagirdlərini yatmış gördü. Üçüncü dəfə O şagirdlərinə nə dedi (41-42-ci ayələr)?

   Üzərimizə qaranlıq çökəndə biz ruhumuzun dua etmək istədiyini görürük, lakin bədənimiz zəifdir. Biz aldanmamaq üçün Allahdan necə güc ala bilərik?



Mündəricat

**Mark 14:43-65-i oxuyun.**

6. Yəhuda İsaya necə xəyanət etdi (44-46-cı ayələr)? İsa tutulanda nə baş verdi (50-ci ayə)? İsanın şagirdlərindən birinin Ona xəyanət edəcəyini (Mark 14:18-21) və bütün şagirdlərin Onu atıb gedəcəyini söylədiyinə baxmayaraq, bunlar baş verməyə başlayarkən İsanın Özünü necə hiss etdiyini təsvir edin.
7. Yəhudi dini rəhbərləri İsaya paxıllıq edirdilər. Onların ikiüzlülüyünü göstərən təlimlərini xoşlamırdılar. Onlar İsaya qarşı ifadə versinlər deyə nə cür insanları gətirdilər (55-59-cu ayələr)?
8. Baş kahin İsadan nə soruşdu (61-ci ayə)?

   İsa nə cavab verdi (62-ci ayə)?

   İsa cavab verəndən sonra onlar nə dedilər və hansı qərara gəldilər (63-64-cü ayələr)?

**Mark 14:66-72-ni oxuyun.**

9. Peterin İsanı inkar etməsi üçüncü dəfə daha güclü oldu. Necə (71-ci ayə)?

   İsanın Peterə Onu əvvəlcədən inkar edəcəyi haqda dediyi sözləri xatırlayanda Peter nə etdi?

   Əlbəttə, Peter həmçinin İsanın keçmişdə ardınca gedən xalqa: “İnsanlar qarşısında Məni açıq tanıyan hər kəsi Mən də göylərdə olan Atamın qarşısında açıq tanıyacağam. Amma kim insanlar qarşısında Məni inkar etsə, Mən də onu göylərdə olan Atamın qarşısında inkar edəcəyəm” (Matta 10:32-33) – sözlərini xatırladı.” .

   İmanımızda necə inkişaf edə bilərik ki, İsanın ardınca getməkdən utanmayaq?

   Gələn dəfə yığışanda biz İsanın ölümü barədə mövzunu bitirəcəyik.

   Bir-biriniz üçün dua edin ki, imanda böyüyəsiniz və İsa Məsihin ardınca getməkdən utanmayasınız.

# 5. Sizin Günahlarınız Üçün İsanın Ölməsinə İnanın

## *İsanın Ölüm Hekayəsi: 2-ci Hissə*

**Müzakirə üçün sual:**

Rəbbimizin ölümü haqda olan bu dərsin əvvəlində biz İsanın həbs olunduğu gecə baş verən bəzi hadisələrə nəzər yetirdik. İsa Öz şagirdlərindən Onunla "oyaq qalıb dua etmələrini" xahiş edəndə onlar nə etdiyini xatırlayırsınızmı? Yəhuda nə etdi? Bəs Peter nə etdi?

İndi isə gəlin hadisənin qalan hissəsinə baxaq.

**Mark 15:1-15-i oxuyun.**

1. Pilat hər Pasxa bayramında nə edirdi (6-cı ayə)?
2. Barabba kim idi (7-ci ayə)? Bu Pasxada Barabbanın azad edilməsini istəsinlər deyə xalqı kim qızışdırdı (11-ci ayə)?
3. Kahinlər hansı səbəbdən İsanı Pilatın yanına gətirdilər (9-10-cu ayə)?
4. Pilat İsa ilə nə edəcəyini soruşanda xalq nə bağırdı (13-15-cü ayə)?

**Mark 15:16-20-ni oxuyun.**

5. Əsgərlərin İsanı necə təhqir edib döydüyünü təsvir edin (16-20-ci ayələr).

**Mark 15:21-32-ni oxuyun.**

6. Onlar İsanı çarmıxa çəkmək üçün haraya apardılar (22-ci ayə)? Əsgərlər İsaya içmək üçün nə verdilər (23-cü ayə)? Sizcə İsa niyə içməzdi?
7. İsa kiminlə çarmıxa çəkilmişdi (27-28-ci ayələr)?
8. İsanın ətrafındakı xalq onu necə ələ salırdı (29-32-ci ayələr)?

**Gəlin onların İsanın dediklərini necə yanlış anladığına və Onun nə üçün çarmıxa getdiyinə baxaq:**

a) Onlar İsanın məbədi dağıdıb üç gündə tikəcəyi barədə dediyi sözləri sitat gətirdilər. İsanın bunu deməklə nəyi nəzərdə tutduğunu görmək üçün Yəhya 2:18-22-yə baxın.

b) Onlar başqalarını xilas edib Özünü xilas edə bilmədiyini deyərək İsanı ələ salırdılar. İsanın Özünü çarmıxdan nə üçün xilas etmədiyini görmək üçün aşağıdakı ayələri oxuyun.

**Matta 20:17-19** – İsa başına nə gələcəyinə peyğəmbərlik edirdi?

**Mark 10:44-45** – İsa şagirdlərinə nə etmək üçün gəldiyini dedi?

**Yəhya 10:14-18** – İsa nə etməyə səlahiyyəti olduğunu dedi (17-18-ci ayələr)?

**Yəhya 12:23-33** – İsa 23 və 24-cü ayələrdə öz ölümü haqqında peyğəmbərlik edir, ürəyinin təşviş içində olduğunu izah edir. Lakin O, 27 və 28-ci ayələrdə qeyri-adi dua edir. O, Atadan nə istəyir?

**Mark 15:33-41-i oxuyun.**

9. İsa öləndə Yerusəlim yaxınlığındakı yəhudi məbədində nə baş verdi (37-38-ci ayələr)?

**Orada baş verənləri anlamaq üçün yəhudi mədəniyyətini və tarixini bilmək vacibdir.** Yəhudi məbədi kahinlərin insanların günahına görə heyvanları qurban gətirdikləri yerdə idi. İldə bir dəfə baş kahin insanların günahına görə həmin qurbanı təqdim etmək üçün quzunun qanını xüsusi otağa, Ən Müqəddəs Yerə, aparardı. Ondan başqa, heç kim Allahın Müqəddəs Hüzurunun olduğu həmin otağa girə bilməzdi. Kahin böyük, qalın pərdədən keçərək həmin otağa girirdi. Pərdə Allahla aramızda olan ayrılığı əks etdirirdi. İndi isə, Allahın quzusu, İsa Öz həyatını bizim günahlarımız naminə qurban verib. İsa ölən zaman pərdə sanki görünməz əllər ilə başdan aşağıya qədər iki hissəyə bölünmüşdü. Sanki Allah insana indi artıq İsa Məsihin qurbanı vasitəsilə Allahla barışdığını göstərmək üçün pərdəni cırdı. Tövbə və İsa Məsihə iman vasitəsilə biz günahlarımızın bağışlandığına və təmizləndiyimizə əmin ola bilərik.

**Mark 15:42-47-ni oxuyun.**

10. İsanın cəsədi ilə nə edilmişdi?

Lakin bu hekayənin sonu deyildir. Növbəti dərsdə İsanın ölümündən və dəfnindən sonra baş verən heyrətamiz hadisələrə baxacağıq.

İsa Məsihin çarmıxa çəkilmə hekayəsi sizə necə təsir etmişdir? Qrup ilə fikir və hisslərinizi bölüşün. Bu hekayə Allahın sizə olan məhəbbətində imanınıza necə təsir edir?

Allaha böyük sevgisinə və bizim günahlarımız üçün İsa Məsihin qurbanına görə birlikdə şükür edin.

# 6. İsanın Dirilməsinə İnanın və Əbədi Həyatı Əldə Edin

**Müzakirə üçün sual:**

Biz keçən iki dərsimizdə günahlarımız üçün İsanın çarmıxda ölümünə nəzər salmışdıq. İsanın ölümü barədə nə yadınızda qalıb? Mümkün qədər çoxlu xırdalıqları yadınıza salın.

İndi İsanın ölümünün üçüncü günü idi – Bazar günü səhər tezdən idi. Gəlin, baş vermiş heyrətamiz hadisələri oxuyaq.

**Yəhya 20:1-18-i oxuyun.**

1. Məcdəli Məryəm qəbrin yanına gəlib çıxanda onu nə təəccübləndirdi və məyus etdi? (1-2-ci ayələrə baxın.) O, dərhal kimə gedib söylədi?
2. 3-9-cu ayələri yenidən oxuyun. Peter və Yəhya (*"İsanın sevdiyi həvari"*) nə etdi? Onların hərəkətlərini təsvir edin.

   8-ci ayəyə əsasən Yəhya boş qəbri görəndə onun cavabı nə oldu? Həmin vaxt Peter və ya Yəhya baş verənləri tamlığı ilə başa düşmüşdülər?
3. 10-13-cü ayələri oxuyun. Məryəm bu dəfə qəbrin içinə baxanda nə gördü?

> Məryəmin hiss etdiyi kədəri təsəvvür etməyə çalışın. O inanırdı ki, İsa Məsih idi. O, Məsihi sevirdi və Ona xidmət edirdi. O, Məsihin dəhşətli ölüm ilə ölməsinə də baxmışdı. İndi o, Məsihin qəbrinə baş çəkməyə gəlmişdi və Onun bədəni orada yox idi!

4. 14-18-ci ayələri oxuyun. Kim Məryəmin yanına gəldi? O, nə vaxt bu insanın kim olduğunu bildi? Sizcə o, indi özünü necə hiss edirdi?

   Məryəmin kədərinin necə sevincə və heyranlığa çevrildiyini təsəvvür edin. Qeyri-mümkün bir şey baş vermişdi!
5. Öz xidməti dövründə İsa başqalarını ölülərdən diriltmişdi. Onun yaxın dostu Lazar öləndə İsa Lazarın ağlayan bacılarına bu sözləri demişdi: ***"Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar, yaşayıb Mənə iman edən də heç vaxt ölməz. Buna inanırsanmı?"* (Yəhya 11:25-26)** Bu ayələrə əsasən İsanın dirilməsinin sənin və mənim üçün nə mənası var?
6. **Yəhya 20:19-20-ni oxuyun.** Dirilmə günü İsa daha kimlərə göründü? O onlara necə sübut etdi ki, çarmıxa çəkilmiş İsadır? Həvarilər necə cavab verdilər? Onların necə də böyük sevincdə olduqlarını təsəvvür edə bilirsinizmi?

7. **İndi 24-29-cu ayələri oxuyun.** Həvarilər Rəbbi gördüklərini danışanda Tomas nə dedi?

   İsa Özünü Tomasa göstərəndə o nə cavab verdi? (28-ci ayə) 29-cu ayədə İsa kimin xeyir-dualı olduğunu söyləyir?

8. Biz necə bilərik ki, İsa ölülərdən dirilib? O, başqalarına göründümü? **1 Korinflilərə 15:3-7-ni oxuyun.** Dirilmədən sonra İsa kimlərə görünübsə, yazıçı (Paul) onların adlarını çəkir, siz onların adlarını sadalayın.

   **Eləcə də Həvarilərin Işləri 1:1-3-ü oxuyun**. Dirilmədən sonra İsa göylərə qalxmazdan əvvəl yer üzündə neçə gün olub? Həmin vaxt ərzində O öz həvarilərinə nə göstərmişdi (3-cü ayə)?

9. Sizcə həvarilər inandılar ki, İsa həqiqətən sağdır? Tarixçilər düşünürlər ki, İsanın on iki həvarisindən on nəfəri İsaya imanlarına görə öldürülmüşdülər. (Yəhuda özünü öldürmüşdü və Yəhya isə sürgün olunaraq yaşamışdı.) Onlar yalan ola bilən bir şey üçün ölümə gedərdilərmi?

10. **İndi Yəhya 20-ci fəsilə baxın və 30-31-ci ayələri oxuyun.** Yəhya İsanın yer üzündə həyatı barədə nəyə görə yazmışdı? O bizim nəyi əldə etməyimizi istəyir (31-ci ayə)?

    Siz nəyə inanırsınız? Siz inanırsınızmı ki, İsa Allahın qurbanı kimi günahlarınız üçün dünyaya gəlib və ölüb? Siz inanırsınızmı ki, O, ölülərdən dirilib və ölümün gücünə qalib gəlib? Əgər inanırsınızsa, indi bunu Ona deyin. Bir daha ölümdən qorxmalı olmadığınızın necə də gözəl olduğunu düşünün!

    **Yəhya 11:25-26-nı yenidən oxuyun.** Sizə təsvir olunmaz əbədi həyatı hədiyyə verdiyinə görə İsaya minnətdarlığınızı bildirin və Onu izzətləndirin.

# 7. Məsihin Nəyə Görə Ölməli Olduğunu Anlayın və Ona İman Edin

**Müzakirə üçün sual:**

Həyatınızda ümid tapa bilmədiyiniz qaranlıq vaxtlar haqqında danışa bilərsinizmi? Tamamilə ümidsizliyə düşməkdən sizi nə saxladı?

Bu hekayə İsanın ölülərdən dirildiyi gün baş verir.

**Luka 24:13-53-ü oxuyun.**

1. 13-16-cı ayələri yenidən oxuyun. Həvarilər gəzə-gəzə yolda söhbət edərkən onlara kim yaxınlaşdı və birlikdə getməyə başladı? Onlar onun kim olduğunu tanıdılarmı?

2. 17-24-cü ayələri oxuyun. İki həvari bir-biri ilə nəyi müzakirə edirdi?

   25-26-cı ayələrdə İsanın onlara verdiyi cavabı oxuyun. İsa təəccübləndi ki, onlar Onun nəyə görə ölməli olduğunu anlamırlar. Onda 27-ci ayədə İsa onlara bunu necə izah etdi?

3. 26-cı ayədə İsa Özü üçün hansı tituldan istifadə etdi?

**"MƏSIH" SÖZÜ YƏHUDI XALQI ÜÇÜN NƏ MƏNA DAŞIYIRDI?**

Yəhudi peyğəmbərlər İsa gəlməzdən yüz illər öncə "Məsih"in gəlişi barədə peyğəmbərliklər etmişdilər. Peyğəmbərliklərdə deyilirdi ki, Allah onlar üçün Xilaskar olacaq bir Şəxs göndərəcək. Onlar belə düşünürdülər ki, hansısa bir döyüşçü gələcək. O şəxs yəhudi xalqını zülmkarların əlindən xilas edəcək. İndi İsa onlara başa salmağa çalışırdı ki, O Məsihdir. Amma onların ən böyük düşməni onlara hökmranlıq edən romalılar deyildi. Onları əsarətdə saxlayan günah idi. Onlara Məsih lazım idi ki, günahlarını yusun.

İsa onlara izah edəndə ki, Məsih ölməlidir, onda bu sözlər həvarilərə kömək etdi ki, İsanın ölümünün ümidsiz bir faciə olmadığını anlasınlar. Allah hər şeyə nəzarət edirdi və şər insanların planlarından Öz məqsədlərini həyata keçirmək üçün istifadə etdi. Allah peyğəmbərlərə neçə yüz illər əvvəl demişdi ki, Məsih xilaskar kimi öləcək. İsa Özü həvarilərinə bir neçə dəfə demişdi ki, O, çarmıxa çəkiləcək və yenidən diriləcək, amma onların ağılları hələ də qaranlıqda idi və deyilənləri başa düşməmişdilər.

4. Yeşaya İsa doğulmazdan 600 il əvvəl yaşamış güclü peyğəmbər idi. **Yeşaya 52:13-15 və 53:1-12-ni oxuyun.** Diqqət yetirin ki, Yeşayanın nə qədər peyğəmbərlik sözləri İsanın ölümü, dirilməsi və izzətlənməsində həyata keçmişdir.

5. Luka 24-ə baxın və 28-35-ci ayələri yenidən oxuyun. Onlar İsanın kim olduğunu nə vaxt bildilər (31-ci ayə)? İsanın yolda həvarilərlə söhbəti onlara necə təsir göstərdi (32-ci ayə)?

6. Onlar dərhal nə etdilər? Onlar Yerusəlimə qayıdanda həvarilər artıq hansı xəbəri eşitmişdilər (34-cü ayə)? Təsəvvür edin ki, onların ən qaranlıq günü indi necə də ən izzətli günə çevrilir!

7. 36-cı ayədə nə baş verdi? Həvarilər nəyə görə qorxdular (37-ci ayə)?

   Həvarilər İsanın ölümü üçün yas tuturdular və indi O onların qarşısında dayanmışdı. Əgər siz həvarilərdən biri olsaydınız, sizcə cavabınız necə olardı?

8. İsa onları inandırmalı idi ki, O, ruh deyil. O bunu necə etdi (38-42-ci ayələr)?

> Həvarilər təkcə qorxmamışdılar, onlar həm də çaşqınlığa düşmüşdülər. İsa ölmüşdü, amma indi O, sağ idi. Yəqin ki, onlar bu dəhşətli hadisənin nəyə görə baş verdiyinə təəccüblənirdilər.

9. O, həvarilərinə ruh olmadığını sübut edəndən sonra ölümü barədə səbəbi necə izah etdi (44-47-ci ayələr)?

> Diqqət yetirin ki, O, yolla gedən iki həvarisinə izah etdiyi kimi yenə də həvarilərinə ölümü və dirilməsinin Əhdi-Ətiq peyğəmbərliklərini necə həyata keçirdiyini izah edir. Bizim günahlarımız üçün onun əzab çəkməsi başlanğıcdan bəri Allahın planı idi.

10. İsa bütün millətlərlə nəyin vəz edilməli olduğunu söyləyir (47-ci ayə)? Kimin adı (səlahiyyəti) ilə bu vəz edilməli idi?

11. Diqqət yetirin ki, İsa ölümünün təkcə yəhudilər üçün deyil, bütün millətlərin bağışlanması üçün olduğunu söyləyir. (47-ci ayəyə yenidən baxın.)

    Siz inanırsınız ki, İsa **sizin** üçün ölüb və yenidən dirilib? Siz inanırsınız ki, köhnə həyat tərzindən dönəndə günahlarınız bağışlanıb? İsaya etibar edəndə ki, keçmişinizi yusun, sizə Onda yeni həyat verdiyinə inanırsınızmı?

12. Fəslin sonunda İsanın başına nə gəlir (51-ci ayə)? Həvarilər Onun göylərə qalxdığını görəndə nə etdilər (52-ci ayə)?

Mündəricat

13. **Filipililərə 2-ci fəsli açın 9-11-ci ayələri oxuyun.** İsa indi haradadır? Bu ayələr bizə deyir ki, hər bir kəs sonda Onun qarşısında diz çökəcək və Ona ibadət edəcək. İndi Xilaskarınız və Rəbbiniz kimi İsaya səcdə və ibadət edərsinizmi?

    Əgər siz əvvəllər bunu etməmisinizsə, indi İsaya deyin ki, günahlarınızın bağışlanmasında və sizə yeni həyat verməsində Ona etibar edirsiniz. Sizə gözəl hədiyyə verdiyinə görə Ona minnətdarlığınızı bildirin!


Mündəricat

# 8. Allahın Ruhundan Doğulun

**Müzakirə üçün sual**

Həyatımız boyu etdiyimiz şeylərdən, sizin fikrinizcə, ən vacib olanı nədir?

**Yəhya 3:1-21-i oxuyun.**

1. Nikodim kim idi? (1-ci ayə) O İsa ilə danışmaq üçün gecə gəldi (2-ci ayə) və elə görünür ki, o tək gəlmişdir. Bunun üçün hansısa səbəb vardı?

2. Nikodim İsaya nə dedi (2-ci ayə)?

   İsanın cavabı nə idi (3-cü ayə)?

3. Nikodim İsanın dediyi insan ikinci dəfə doğulmalıdır ifadəsindən çaşdı. Yenidən 4-8-ci ayələri diqqətlə oxuyun.

   Öz sözləriniz ilə İsanın bu fikri Nikodimə necə başa saldığını deyin.

4. Nikodim bu yeni fikir barədə hələ də heyrətlənmişdi (9-cu ayə).

   İsa bu çaşqınlığa necə cavab verir (10-cu ayə)?
   Sonra İsa yenidən doğulmanı “yerdəki işlər” adlandırır (12-ci ayə).

   Nə üçün ruhani doğuluş yerdəki iş kimi adlandırılmalıdır?

5. 13-15-ci ayələri yenidən oxuyun. Siz Musanın səhrada ilanı qaldırması hekayəsini eşitmisinizmi? (Bu hekayəni Saylar 21:4-9 da oxuya bilərsiniz.)

   İsa bir şeyi Musanın ilanı qaldırması ilə müqayisə edir.
   İsa hansı müqayisəni edir?

6. 16 və 17-ci ayələr Müqəddəs Kitabın müjdəsini bir neçə sözlə aydın başa salır. Öz sözləriniz ilə bu ayələrin nə dediyini söyləyin.

   İndi isə gəlin bu ayələrə hissələrlə baxaq:

   - Oğlunu dünyaya göndərmək üçün Allahı hərəkətə gətirən səbəb nə oldu?
   - Allah Oğulu məqsədlə göndərdi. Məqsəd nə idi?
   - Oğuldan əbədi həyatı kim əldə edə bilər?
   - Allahın Öz Oğlunu dünyaya göndərməsinə nə səbəb olmamışdır?

**Yəhya 3:18-21-i oxuyun.**

7. Sizcə, 19-21-ci ayələrdəki "Nur" sözü nə deməkdir?

   Öz həyatınız barədə düşünün. Siz Allahın nurundan necə gizlənmisiniz?

> 19-cu ayə deyir ki, **"dünyaya nur gəldi"**. Çox adamlar Məsihin nurundan qaçırlar. Onlar Onun Ruhunun onları təmizləməsini və yeni həyat verməsini rədd edirlər. Amma bilmirlər ki, onlar əslində Allahın sevgisindən qaçırlar. Əgər onlar Ondan qaçmağı dayandırsalar və dönüb Məsihə gəlsələr, onda onlar İsanın Nikodimə başa saldığı kimi yenidən doğulacaqlar. Bu tövbə və iman adlanır. Başqa sözlə desək, onlar Müqəddəs Ruhdan gələn yeni həyatı kəşf edəcəklər. Onlar bağışlanma və mərhəmət əldə edəcəklər.

**Yəhya 12:44-50-ni oxuyun**

8. İsa nə üçün dünyaya gəldi (46-cı ayə)?

   Bizim İsa Məsihə inanmağımız nə deməkdir (44-45-ci ayələr)?

   Bu şeyləri danışmağı İsaya kim əmr etmişdir (49-50-ci ayələr)?

9. İsa bu dərsdə başa salır ki, əgər biz Allahın padşahlığını görmək istəyiriksə, onda yenidən doğulmalıyıq. Allah Öz böyük sevgisi ilə bütün insanlara öz günahlarından dönməyi və öz günahlarının bağışlanması üçün İsa Məsih qurbanına etibar etməyi əmr edir. Bundan sonra onlar Müqəddəs Ruhun onların həyatlarına gəlməsini və onlara yeni doğuluş verməsini yaşayacaqlar.

   Allahın Müqəddəs Ruhun gəlib daxilində yaşayanda baş verən yeni doğuluşu yaşamısınızmı? İndi buna hazırsınız?

Mündəricat

# 9. Yaxşı Və Nəcib Ürəklə Kəlamı Qəbul Edin

## *Səpilən Toxum Məsəli*

**Müzakirə üçün sual:**

Sizcə, Allah niyə gözə görünməzdir? Nəyə görə O Özünü və Öz həqiqətini dünyaya açıb göstərmir?

**Matta 13:1-17-ni oxuyun.**

1. İsa öyrətmək üçün qayığa mindi. Niyə (2-ci ayə)?
2. 4-9-cu ayələrə yenidən baxın. Əkinçi toxum səpir. Toxumun düşdüyü 4 yerin adını çəkin. Hər növ torpaqda olan toxumlarla nə baş verir?
3. Sizcə, bu hekayədə İsa nə öyrətmək istəyirdi?
4. 13-15-ci ayələr üzərində düşünün. Niyə İsa insanlara məsəllər ilə danışır?
5. Əgər insanlar həqiqətən öz gözlərini və qulaqlarını istifadə etsələr və Allahın işini başa düşməyə çalışsalar, nə baş verər (15-ci ayə)?

**İsanın məsəllə bağlı açıqlamasını oxuyun. (Matta 13:18-23)**

6. Bu hekayədə toxum nəyi ifadə edir? (19-cu ayəyə baxın.)

   İsa yol kənarında toxumları yeyən quşları təsvir etməklə, iblisin ürəyimizdən həqiqət kəlamını çıxardıb aparmasını göstərir. Allah kəlamını eşidəndə, iblisin bunu bizdən oğurlamasının qarşısını almaq üçün bizə nə lazımdır? Niyə bu belə vacibdir?

7. 6-cı ayədə isti günəş kiçik bitkiləri yandırdı. Günəş nəyi ifadə edir (21-ci ayə)? Bitki niyə soldu?

   Məsihdə olan kökünüz nə qədər dərindir?

   Kökünüzü daha da dərinə salmaq üçün siz nə edə bilərsiniz?

8. Bu hekayədə tikanlar nə edir (7-ci ayə)? Tikanlar nəyi ifadə edir (22-ci ayə)?
9. İsa dedi ki, nəyinsə qeydinə qalmaq xoş xəbəri insanın əlindən alır. Necə (22-ci ayə)?

   Allaha etibar etməkdən sizi saxlayan bir qayğılarınız var? Onların sizin imanınızı əlinizdən almaması üçün siz onlara necə qalib gələ bilərsiniz? **(Filipililərə 4:6-7-yə baxın.)**

10. 22-ci ayədə İsa deyir ki, zənginlik aldadıcıdır. Zənginlik bizə necə **“yalan danışır”**? Yalnız varlılar bu yalana qulaq asır? Siz bu yalanlara qulaq asırsınız?


Mündəricat

11. Bərəkətli  (münbit) torpaq nədir (23-cü ayə)? Bu məsələ, həmçinin Mark 4 və Luka 8-də rast gəlinir. Görünür, İsa öz səyahətində bu məsəli çox işlətmişdir. Mark və Luka bərəkətli(münbit)  torpağın başqa vacib tərkib hissələri haqda yazıblar. Onlar hansılardır? (Mark 4:20 və Luka 8:15-i oxuyun.) Siz bu keyfiyyətlərdə böyüməyi arzulayırsınız?
12. İsa üçün **"səmərə vermək"** nə deməkdir? Bir çoxları özlərini İsanın ardıcılları olduğunu bəyan edir, amma onların həyatı bunu göstərmir. Əgər biz heç vaxt İsa üçün yaxşı bəhrə vermiriksə, bizim imanımız həqiqidir?
13. Əgər siz, sizi təmsil edən torpağı seçsəydiniz, hansını seçərdiniz? Niyə? Sizin imanınızın böyüməsinə nə maneə yaradır? Siz bununla bağlı nə edə bilərsiniz? Buna görə dua etmək üçün indi vaxt ayırın.

# 10. Tövbə Edin Və Götürdüyünüzü Geri Qaytarın

**Müzakirə üçün sual:**

İsa Məsih barədə ilk dəfə eşitdiyiniz vaxtı düşünün. Onun barədə nə cəlbedici gəldi sizə?

**Luka 19:1-10-u oxuyun.**

1. 2-4 cü ayələrdə İsa ilə tanış olmasından əvvəl Zakkay barədə nə öyrənirik?
2. 3-cü ayə bizə deyir ki, Zakkay İsanı görməyə həvəsli idi. Yəqin ki, o möcüzələr edən və gözəl həqiqətlər öyrədən böyük adam haqqında eşitmişdi. Siz heç elə bir adam ilə rastlaşmısınızmı ki, o İsa barədə nə isə öyrənib və daha çox öyrənməyə həvəslidir? Onlara Onun haqqında daha çox öyrənməyə necə kömək edə bilərsiniz?
3. Sizcə, Zakkay İsanın onun evinə gələcəyini gözləyirdi?

   Cavabınızı izah edin.

   > **Qeyd:** Vergi yığanlar Yəhudiləri idarə edən Romalılara işləyən Yəhudilər idilər. Yəhudilər onları "günahkarlar" adlandırırdılar, çünki onlar Romanın tələb etdiyindən daha çox vergi götürməklə zəngin olmuşdular. Onlar əlavəni özlərinə saxlayırdılar. Ümumiyyətlə, onlar başqa Yəhudilər tərəfindən nifrət edilirdilər.

4. İsa Zakkayın evinə daxil olanda Öz adına görə necə risk etdi?

   İsa evə daxil olanda insanlar nə dedilər (7-ci ayəyə)?
5. Qeybət ürəklərimizə qorxu qoymaq üçün Şeytanın bizim cəmiyyətimizdə istifadə etdiyi güclü qüvvədir. İnsanların qeybəti İsanı Zakkayın evinə getməkdən saxladımı?

   İsa insanların nə dedikləri barədə, yaxud nə fikirləşdiklərindən qorxdumu? Qeybətin ehtiyac içində olan adama kömək etməkdən sizi saxlamasına izn verirsinizmi?
6. Yəhudilər İsanı müqəddəs bir adam kimi gorürdülər. Onlar fikirləşirdilər ki, O heç vaxt "günahkar" adamın evinə daxil olmaz. Onlar Allah və Onun günahkarlar barədə qayğısı haqqında hansı səhv fikirlərə malik idilər? **(Həvari Paulun Timoteyə 1-ci məktubu 1:15-ə baxın.)**
7. Zakkay İsanı axtarırdı, amma o dərk etdi ki, İsa da onu axtarırdı. Siz İsa Məsih barədə digərləri ilə bölüşəndə, İsanın hələ də insanları axtarmasını bilməyinə kömək edir?

Bütün itmiş insanları – hətta cəmiyyətin xor baxdığı insanları belə, axtarmaqda siz necə İsa kimi ola bilərsiniz?

8. İndi Luka 19:8-ci ayədə Zakkayın dediyini oxuyun. O günahdan həqiqətən döndüyünü və yeni həyat yaşamaq istədiyini necə göstərdi?

   Onun üçün daha çox nə vacibdir – onun pulu, yoxsa Allah ilə münasibəti?

   **Qeyd:** Əhdi-Ətiqdə belə bir qanun var idi ki, əgər bir adam başqa bir adamdan nə isə oğurlayıbsa, yaxud qeyri-saleh yolla ondan pul götürübsə, (zorla, yalanla və.s) o götürdüyünü tamlıqla geri ödəməlidir və əlavə iyirmi faizdə üstündə ödəməlidir. Bu geri qaytarmaq deməkdir.

9. Sizcə, Allah nə üçün bu qanunu vermişdir? İnsanlar etdikləri günahların əvəzini geri ödəsəydilər, cəmiyyətdə nə baş verərdi?

   Geri ödəmə günahlı adamı necə bərpa edə bilər? Sizcə, bu ona qarşı günah işlətmiş adam ilə dağılmış münasibətləri də bərpa edə bilərmi? Necə?

   Sizcə, insanlar Zakkaydan öz pullarını geri alanda necə hiss edirdilər?

10. 9 və 10-cu ayələri oxuyun. İsa nə dedi? Xilas Zakkayın evinə necə gəldi?

11. Bəzən biz fikirləşirik ki, tövbə yalnız günahlı insan və Allah arasındadır. Amma bu hekayə göstərir ki, tövbə həmçinin günahlı insan və onun günahına görə yaralanan adam arasındadır. Əgər öz günahımıza görə həqiqi kədərimiz varsa, onda bunu düzgün etmək üçün biz əlimizdən gələn hər şeyi edəcəyik.

    Keçmiş günahlarınızla kimisə heç incitmisinizmi? Kimdənsə səhv olaraq pul, yaxud kimdənsə başqa nəsə götürmüsünüzmü? Heç nəsə dağıtmısınızmı ki, ona görə əvəzini ödəməli idiniz? Əgər belədirsə, onda siz günahınızdan həqiqətən tövbə etdiyinizi onlara necə göstərə bilərsiniz? Geri ödəmək üçün Allahdan sizin nə etməli olduğunuzu göstərməsini diləyin.

# 11. Ataya Hörmət Etdiyiniz Kimi Oğula Da Hörmət Edin

## *İsa Özü Haqda Nə Deyirdi?*
## *Başqaları Onun Haqqında Nə Deyirdi? 1-ci Hissə*

**Müzakirə üçün sual:**

Siz əminsiniz ki, İsaya imanınız doğru yoldur? Əgər kimsə sizdən soruşsa ki, Məsihə, İsaya nəyə görə inanırsınız, onda onlara nə cavab verərdiniz?

**Yəhya 5:1-15-i oxuyun.**

1. 1-9-cu ayələrdə İsanın göstərdiyi gözəl möcüzəni təsvir edin.

   Yəhudi rəhbərləri kişinin şəfa almasına görə şad idilərmi? Onlar nəyə görə incimişdilər? (16-cı ayəni də oxuyun.)

**İndi 16-30-cu ayələri oxuyun.**

2. 17 və 18-ci ayələrə yenidən baxın. Yəhudi rəhbərlər İsanı nəyə görə öldürmək istəyirdilər?
3. 19-23-cü ayələri yenidən oxuyun. İsanın fikrincə O, möcüzələri törətmək üçün qabiliyyəti (səlahiyyəti) haradan əldə edib?
4. İsa Atanın ona verdiyi hansı iki şeyi edir (21- 22-ci ayələr)? Bu şeyləri etməyi Ata İsaya nəyə görə verib (23-cü ayə)?
5. Allaha, göylərdəki Atanıza hörmət edirsinizmi? Siz inanırsınız ki, O həm də Oğula, İsaya hörmət etməyinizi istəyir? Biz İsaya hörmət etməsək, Allaha həqiqətən hörmət edə bilərikmi (23-cü ayə)?

> Allah bizi İsanın kimliyi barədə səmimi suallarımıza və şübhələrimizi görə ittiham etmir. Ona görə də İsa bu şeylər haqqında həvarilərinə danışmışdı. O, hətta imansız, ikiüzlü fariseylərin Ona iman etmələri üçün onlara kömək etməyə çalışmışdı. Bu dərsin qalan hissəsi bizə yardım edəcək ki, nəyə görə Ata Allaha etibar etdiyimiz kimi İsaya da etibar edə biləcəyimizi başa düşək.

6. 24-30-cu ayələri oxuyun. İsanın sözlərini eşidən və Allahın göndərdiyi Şəxsə iman edənlərə nə olacaq (24-26-cı ayələr)?

   26-27-ci ayələrdə İsa Atanın Ona verdiyi iki şeyi təkrarlayır. Onlar nələrdi?

Buraya qədər biz İsanın imansız yəhudilərə Özü barədə dediyi üç şeyi görürük: 1) Allah Onun Atasıdır, deməli, O, Allah ilə bərabərdir; 2) Onun Özündə həyat var və Ona iman edənlərə həmin həyatı verir; 3) Ona bütün insanları mühakimə etmək üçün səlahiyyət verilib.

İsa indi kim olduğu barədə başqa şəhadətliklərdən danışmağa başlayır.

**İndi 31-35-ci ayələri oxuyun.**

7. Bir çox yəhudilər inanırdılar ki, vəftizçi Yəhya güclü peyğəmbərdir. O, güclü vəzi ilə çoxlu sayda yəhudini Allaha gətirmişdi. İsa Yəhyanın şəhadətliyi barədə nə demişdi (33-cü ayə)?

8. Gəlin, Yəhyanın İsa haqqında şəhadətliyinə baxaq. **Yəhya 1-ci fəsli açın və 29-34-cü ayələri oxuyun.** 29-cu ayədə Yəhya İsanı kim adlandırır?

   İsa Yəhyadan sonra doğulmuşdu. 30-cu ayədə Yəhya nə deyir?

9. 32-34-cü ayələri oxuyun. Allah Yəhyaya İsa barədə nə demişdi (33-cü ayə)? Yəhyanın İsa barədə sonuncu şəhadətliyi nə idi (34-cü ayə)?

10. İsanın kimliyi haqda bu iki parçadan öyrəndikdən sonra indi siz Onun haqda nə düşünürsünüz? Əgər İsanın kim olması haqda səmimi suallarınız varsa, onları Allaha deyin. Ondan həqiqəti öyrənməkdə sizə yardım etməsini xahiş edin.

    Növbəti dəfə biz Yəhyanın müjdəsi 5-ci fəslin ikinci hissəsini öyrənəcəyik. Orada biz İsa haqda daha çox şəhadətlər görəcəyik.

# 12. Ataya Hörmət Etdiyiniz Kimi Oğula da Hörmət Edin

## *İsa Özü Haqda Nə Deyirdi?*
## *Başqaları Onun Haqqında Nə Deyirdi? 2-ci hissə*

**Müzakirə üçün sual:**

Bu dərsin 1-ci hissəsində biz Yəhya 5:1-35 və Yəhya 1:29-34 oxuduq. Bu iki parçanı yenidən oxuyun. Yəhya 5-ci fəsildə Özünün kim olması haqda İsa insanlara nə dedi? Yəhya 1-ci fəsildə Vəftizçi Yəhya İsa haqda nə deyir?

**Yəhya 5:36-47-ni oxuyun.**

1. 36-40-cı ayələr İsanın kim olduğu barədə başqa 3 şəhadətlikdən danışır. Bu ayələri yenidən oxuyun. 36-cı ayəyə əsasən Yəhyanın şəhadətliyindən üstün olan şəhadətlik nədir?

2. Əhdi-Cədiddə oxuduğunuz İsanın törətdiyi möcüzələrdən bəzilərini sadalayın. Bu möcüzələr Onun Allah Oğlu olduğunu necə göstərir?

   Bunun haqqında düşünün: İnsanlar deyə bilərlər ki, Yəhya İsanın Allah Oğlu olduğunu deməklə cahil və ya dəlidir. Amma onlar bu heyrətamiz möcüzələrin açıq-aşkar Allahdan bir əlamət olduğunu necə rədd edə bilərlər?

3. İsanın kimliyi barədə başqa iki şəhadətlik hansıdır? (37 və 39-cu ayələri oxuyun. Matta 3:16-17-ci ayələrə də baxın.)

> **Qeyd:** Bir çox Əhdi-Ətiq hekayələri və peyğəmbərlikləri İsa haqqında danışır. Ona görə də Əhdi-Cədidi yazanlar çox vaxt belə sözlərdən istifadə edirlər: "Peyğəmbərin dediyi kimi…" İsa deyir ki, O, həmin peyğəmbərlikləri həyata keçirir. Yəhudilər deyir ki, onlar Kəlama inanırlar, amma onlar nəyi etmirlər (40-cı ayə)?

4. 41-47-ci ayələri oxuyun. Yəhudiləri İsaya iman etməkdən saxlayan hansı şeylər idi (42 və 44-cü ayələr)?

   Sizin üçün daha vacib nədir — başqa insanların tərifi, yoxsa Allahın tərifi?

5. İsa haqqında olan müxtəlif şəhadətliklər üzərində düşünmək üçün bir neçə dəqiqə vaxt ayırın.

   - İsanın Özü haqqında öz sözləri (Yəhya 5:17, 19-23)
   - Vəftizçi Yəhyanın sözləri (Yəhya 1:29 və 34)

- İsanın möcüzəli işləri (Yəhya 5:36)
- Ata Allah (Yəhya 5:37 və Matta 3:16-17)
- Kəlam, Əhdi-Ətiq peyğəmbərlikləri (Yəhya 5:39)

Bu dərs sizə İsanın həqiqətən kim olduğunu görmək üçün necə kömək edib?

6. İsa haqqında nəyə inanırsınız? Siz inanırsınız ki, O, günahlarımızın qurbanı kimi Öz həyatını vermək üçün dünyaya gəlmiş Allah Oğludur? Bu gün dua edin və Allahdan xahiş edin ki, şübhələrinizə qalib gəlməkdə sizə yardım etsin. Ona deyin ki, siz həyatınız ilə həm Atanı, həm də Oğulu şərəfləndirmək istəyirsiniz.

   Aşağıda İsanın Özü haqqında danışdığı Kəlamdan bəzi ayələr var. Təklikdə və ya bir qrup halında onları oxumaq və onlar üzərində düşünmək üçün vaxt ayırın. İsa Məsih haqqında ayələrin nə söylədiyini düşünün. Yadda saxlayın, O bizi Ona İNANMAĞA çağırır. Bu intellektual iman deyil, bu o deməkdir ki, biz Ona Xilaskarımız və Rəbbimiz kimi bütün həyatımızı təslim edirik. Bu ayələrin bəzilərini əzbərləmək yaxşı olardı.

   Yəhya 6:48-51

   Yəhya 7:37-39

   Yəhya 8:12

   Yəhya 8:48-59

   Yəhya 10:37-38

   Yəhya 11:25-26

   Yəhya 14:6-11

***“Mən sizi tövbəniz üçün su ilə vəftiz edirəm,
amma məndən sonra Gələn məndən daha qüdrətlidir.
Mən Onun çarıqlarını daşımağa belə, layiq deyiləm.
O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək.”
Vəftizçi Yəhya, Matta 3:11***

# VƏFTİZ OLUN

***Peter onlara cavab verdi: "Tövbə edin, hamınız İsa Məsihin adı ilə vəftiz olun. Onda günahlarınız bağışlanacaq və bəxşiş olaraq Müqəddəs Ruhu alacaqsınız." (Həvarilərin İşləri 2:38)***

Hər il bütün dünyada İsa Məsihin milyonlarla ardıcılı vəftiz olunur. İsa bütün iman edənlərə su vəftizini keçməyi əmr etmişdir.

Bəs niyə? Su ilə vəftiz nə deməkdir?

Bu bölmədə su ilə vəftiz barədə bəzi dərslər və İsanın bizim üçün etdiyi daha möhtəşəm bir vəftiz – Müqəddəs Ruhla vəftiz barədə bəzi dərslər vardır. İsanın Müqəddəs Ruh barədə dediklərini öyrənmək imanlılar üçün çox vacibdir. İsa Müqəddəs Ruhu bizə Onun naminə yaşamağa və Onun şahidləri olmağa qüvvət verməsi üçün göndərdi.

Əhdi-Cədid bunları imanlılara başa salır ki, onlar məlumatsız qalmasınlar. İsa sizin Onun həyatının tamlığında yaşamağınızı istəyir.

Bu bölməni oxuyun və İsaya itaət edin. Siz mütləq dəyişəcəksiniz!

Mündəricat

# 13. Su Ilə Vəftiz Olun Və Yeni Həyatı Yaşayın!

## *1-ci Hissə: Yəhyanın Tövbə Vəftizi*

**Müzakirə üçün sual:**

İsa bütün dünyadakı Öz şagirdlərinə vəftiz olmağı əmr etdi. Siz heç vəftiz görmüsüz? Əgər görmüsünüzsə, onun haqda fikirlərinizi qrupda bölüşün.

**Giriş:** Vəzftiz İsanın Cəmiyyətinin həyatında çox vacib hissədir. Bu, İsaya yenicə iman etmiş şəxsin öz köhnə günahlı həyatından əl çəkib İsada yeni həyata başlamasının şahidlərə göstərməsi üsuludur. Biz Əhdi-Cədiddə ilk dəfə vəftiz haqda oxuyanda görürük ki, Vəftizçi Yəhya öz günahlarından tövbə edən (dönən) insanları vəftiz edir. İsanın ölümü və dirilməsindən sonra Ona iman edən insanlar Ata, Oğul (İsa) və Müqəddəs Ruh adı ilə vəftiz oldular. Bu dərsin 1-ci hissəsi Yəhyanın vəftizi haqda danışır. 2-ci hissə isə İsanın əmr etdiyi və Həvari Paulun təsvir etdiyi vəftiz haqda danışır. Bu dərslər birgə olaraq belə ruhani hərəkətin rəmziliyini və vacibliyini anlamaqda kömək edəcəkdir.

**Luka 3:1-20-ni oxuyun.**

1. 4-cü ayə deyir ki, Vəftizçi Yəhya İsanın gəlişi üçün yolu hazırlayırdı. O bunu necə edirdi (3-cü ayə)? “Günahların bağışlanması üçün tövbə edib vəftiz olunmaq” ifadəsini siz necə başa düşürsünüz?
2. **Mark 1:4-5-ci ayələrdə** Yəhyanın yanına gedən xalq öz günahlarını vəftiz olaraq etiraf edirdilər. Əksər insanlar Adəm və Həvva kimi öz günahlarını etiraf etmək deyil, onları gizlətmək istəyirlər. Sizcə, günahlarımızı etiraf etməyimiz nə üçün vacibdir?
3. Yəhyanın İsrail xalqına vəz etdiyi sözlər sərt idi, yoxsa mülayim? O insanları nə adlandırdı? (Luka 3:7-ci ayəni yenidən oxuyun.) O nəyin gəlməsindən danışırdı (7-ci ayə)?

   Sizcə, dünyadakı əksər xalqlar Allahın qəzəbinin gələcəyindən xəbərdardırlar?

   Sizin fikrinizcə, Allah bu dünyadakı hansı şeylərə qəzəblənməlidir?
4. İsrail xalqı İbrahimin nəsli idi və onlar bununla fəxr edirdilər. Onlar düşünürdülər ki, Yəhudi olmaq onları Allahla barışdırır. Yəhya bu haqda onlara nə dedi (8-ci ayə)? Yəhyanın yazdığına görə onların milliyəti onları Allahın gözündə xüsusi edirdi?

   Bizim milliyətimiz və ya hansı dinə məxsus xalqın içində doğulmağımız bizi Allahla barışdırırmı?

5. Yəhya yaxşı bəhrə verməyən ağaclar haqda danışdı. Həmin ağaclara nə olacaq (9-cu ayə)?

6. 10-14-cü ayələri oxuyun. Yaxşı bəhrə vermələri üçün nə etməli olduqlarını sual verən kəslərə Yəhya nə məsləhəti verdi? Yəhyanın bu ayələrdə söylədiyi yaxşı bəhrələri insanlar versəydilər bu günün cəmiyyətində nələr baş verərdi?

7. 15-ci ayəni yenidən oxuyun. İnsanlar Yəhyanın Məsih ola biləcəyini düşünürdülər. Məsih Yəhudi xalqının gözlədiyi Xilaskar idi. Allah peyğəmbərlər vasitəsilə vəd vermişdi ki, o gələcəkdir.

   16-cı ayəni yenidən oxuyun. Yəhya dedi ki, onun özündən daha qüdrətli birisi gələcəkdir. O başqa növ vəftiz gətirəcəkdi. Bilirsiniz Yəhya kim haqda danışırdı? Bu şəxs hansı növ vəftiz gətirəcəkdi? (Başqa bir dərsimizdə Müqəddəs Ruh ilə vəftiz olunmaq haqda daha dərindən danışacağıq.)

8. 17-18-ci ayələri yenidən oxuyun. Sizcə, Yəhyanın haqqında danışdığı "taxıl" nədir? "Küləş" nədir? 17-ci ayə hökm gününü necə təsvir edir?

   18-ci ayəyə baxın. Yəhyanın sözlərini necə "xoş xəbər" (Müjdə) adlandırmaq olar?

9. İndi isə Mark 1-ci fəsli açın və 4-5-ci ayələri yenidən oxuyun. Böyük insan kütləsi Yəhyanın vəz etdiyi xoş xəbəri eşitmək üçün onun yanına axışırdılar və çoxları vəftiz olurdular. Belə vəftiz camaat arasında göstərilən tövbənin və Allahın bağışlamasına iman etməyin əlamətidir və bu yeni həyat tərzinin başlanğıcını göstərirdi.

   Lakin Yəhyanın vəftizi yalnız başlanğıc idi. Təxminən elə o vaxtlarda İsa Özünün ölüm, dirilmə və Səmavi Səltənətə qayıdıb getməsi ilə sona yetən üç illik xidmətini başladı. Bu hadisələrdən sonra vəftiz yalnız tövbəyə əlamət kimi qalmadı. O həmçinin bizim **günahımız üçün İsanın qurban verməsinə iman etməyimizin** əlamətinə çevrilmişdir. Bu dərsin 2-ci hissəsi bu haqda daha geniş danışır.

   Siz vəftiz olmusunuz? Əgər olmamısınızsa, İsaya itaətkarlıq göstərərək bu addımı atmağa razısınızmı? Bundan sonra 2-ci hissəni öyrənənə qədər vaxt ayırıb bu haqda dua edin.

# 14. Su Ilə Vəftiz Olun Və Yeni Həyatı Yaşayın!

## *2-ci Hissə: İsanın Adı Ilə Vəftiz Olun*

**Müzakirə üçün sual:**

1-ci hissənin dərsindən vəftizçi Yəhya barədə nə yadınızda qalıb? O, Məsihin gəlişi üçün yolu necə hazırladı?

Bu dərsdə biz vəftiz olunmağın nəyə görə vacib olduğuna və onun mənasına diqqət yetirəcəyik.

**MƏN NİYƏ VƏFTİZ OLMALIYAM?**

İsaya iman edən insanlar vəftiz olunmalıdırlar, çünki İsa bunu əmr edib.

**Matta 28:18-20-ni oxuyun.**

1. Bu, İsa göylərə qalxmazdan əvvəl həvarilərinə söylədiyi sonuncu əmr idi.

   19-20-ci ayələri yenidən oxuyun. İsa göylərə gedəndən sonra həvarilər nə etməli idi? Həvarilər şagirdlər edəndə onlar ilə nə etməli idilər? (Əvvəlcə 19-cu ayəyə, sonra isə 20-ci ayəyə baxın.)

   Yeni imanlılar kimin adı ilə vəftiz olunmalı idilər?

**Həvarilərin İşləri 2:37-41-i oxuyun.**

2. Yəhudilərin vacib bayramı olan Əllinci Gün bayramı zamanı Peter İsa barədə böyük izdihama vəz etmişdi. Peter izdihama nə etməli olduqlarını söylədi? (38-ci ayəyə baxın.) Həmin gün nə qədər insan itaət etdi və Məbədə qoşuldu?

   Bəzi insanlar düşünürlər ki, vəftiz olunmağa hazır olmazdan əvvəl onlar uzun müddət imanlı olub imanda güclü olmalıdırlar. Həvarilərin İşlərində bu fəsildə onlar iman edəndən nə qədər sonra vəftiz olundular?

> Vəftiz olunmaq o demək deyil ki, biz yetkinliyə çatmışıq və ya kamil olmuşuq və bundan sonra heç vaxt günah etməyəcəyik. Əslində vəftiz göstərir ki, biz yeni həyatı yaşamağa BAŞLAYIRIQ. Biz şahidlər qarşısında deyirik: "Bu gün mən qərara gəlirəm ki, daha özüm üçün yaşamayacağam. Mən günahlarımın bağışlanması üçün İsaya etibar edirəm. O mənim Rəbbim və Xilaskarımdır. Bu gündən etibarən mən Onu izzətləndirəcəyəm və Ona itaət edəcəyəm." Vəftiz zahiri bir əlamət olaraq, bizim İsa vasitəsilə Allah ilə yeni ünsiyyətə daxil olduğumuzu göstərir.


Mündəricat

## VƏFTİZİN MƏNASI NƏDİR?

**Romalılara 6:1-14-ü oxuyun.**

3. Həvari Paul Romadakı imanlılara yazır. O istəyir ki, onlar vəftiz olunanda nə baş verdiyini başa düşsünlər.

   3-4-cü ayələri oxuyun və onları diqqətlə tədqiq edin. Bizim vəftizimiz İsanın ölümündə və dirilməsində Onun ilə birliyimizi necə təsvir edir?

4. Biz su ilə örtüləndə bu nəyi rəmzi mənada göstərir? Biz sudan çıxanda bu nəyi rəmzi mənada göstərir?

   Vəftiz daxilimizdə, ruhumuzda Allahın Ruhu vasitəsilə nə baş verdiyini göstərən zahiri bir mənzərədir.

5. 5-7-ci ayələri oxuyun. Biz vəftiz olunarkən hansı iki şeydə Məsih ilə birləşirik (5-ci ayə)?

6. 6-cı ayəyə əsasən Məsih ilə çarmıxa çəkilən şey nədir? Bu, yeni həyatı yaşamaq üçün bizi necə azad edir?

7. 8-11-ci ayələri oxuyun**.** Günahdan azad olmaq istəyən insanlara Paul hansı gözəl xəbəri verir? "Məsih İsada olaraq, Allaha münasibətdə diri olmağımızın" mənası nədir?

8. Bu o deməkdirmi ki, bir dəfə vəftiz olunduqdan və Məsih ilə birləşdikdən sonra bir daha günaha sövq olunmayacağıq? (11-14-cü ayələri oxuyun.)

> Fikir verin ki, burada bizim günah ilə bir daha mübarizə aparmayacağımız barədə deyilmir. Biz hər gün imkan verməməliyik ki, özümüzü günaha təslim edək, əksinə özümüzü Allaha təslim etməliyik. Amma günahın gücü itib və Müqəddəs Ruh bizə yardım edəcək. (Bu haqda daha dərin öyrənmək üçün Romalılar 6, eləcə də 7 və 8-ci fəsilləri oxuya bilərsiniz.)

**Efeslilərə 4:4-6-nı oxuyun.**

9. Vəftiz bizi dünyanın hər bir yerində olan İsanın bütün ardıcılları ilə necə birləşdirir?

   Bu gün hələ də dünyanın hər bir yerində yeni məsihçilər Onun vəftiz olunmaq əmrinə riayət etməklə İsa Məsihə olan imanlarını və sevgilərini nümayiş etdirirlər. Onlar göstərirlər ki, günahlarının bağışlanması üçün İsanın qurbanına tamamilə inanırlar və İsa Məsihin bütün ardıcılları ilə ünsiyyətə girirlər.

10. Siz Rəbbin su ilə vəftiz olunmaq əmrinə riayət etmisinizmi? Siz bu dərsdən görürsünüzmü ki, vəftiz sizin Məsihdə yeni həyatınızın başlanğıcını rəmzi formada göstərir? Siz Ona məxsus olduğunuzu insanlar qarşısında bəyan etdiyiniz vaxtı bütün həyatınız boyu xatırlayacaqsınız.

    Əgər siz vəftiz olunmamısınızsa, onda bunu toplantı rəhbərləriniz və ya başqa yetkin imanlılar ilə müzakirə edin. Onlar sizin suallarınıza cavab verə bilərlər və vəftiz olunmanız üçün vaxt təyin edərlər. Dua edin ki, Rəbb bu vacib hadisə üçün sizin ürəyinizi hazır etsin.

**Əlavə Tədqiq üçün:**

Həvarilərin İşləri kitabının hər bir yerində İsanın şagirdlərinin Ona iman edənləri vəftiz etdikləri barədə oxuyuruq. Burada bəzi parçaları sizə təqdim edirik, siz indi və ya sonra onları oxuya bilərsiniz:

| | |
|---|---|
| Həvarilərin İşləri 8:12 | Həvarilərin İşləri 16:14-15 |
| Həvarilərin İşləri 8:26-38 | Həvarilərin İşləri 16:22-34 |
| Həvarilərin İşləri 9:17-19 | Həvarilərin İşləri 18:7-8 |
| Həvarilərin İşləri 10:44-48 | Həvarilərin İşləri 19:4-7 |

# 15. Müqəddəs Ruhla Dolu Olun

## *1-ci Hissə: Allahın Qüdrətində Gəzin*

**Müzakirə üçün sual:**

İnsanların əksəriyyəti Allahın insanlardan çox uzaq olduğunu düşünürlər. Siz İsa Məsihə xilaskarınız kimi inanmazdan əvvəl, Allahın sizə yaxın və ya sizdən uzaq olduğunu hiss edirdinizmi? Allah barədə hansı anlayışa malik olduğunuzu təsvir edin.

Növbəti hekayə İsanın ölülərdən dirilməsindən sonra baş vermişdir. Qrup şəklində Həvarilərin İşləri kitabından hekayəni oxuyun.

**Həvarilərin İşləri 1:1-14 və 2-ci fəsil bütövlükdə oxuyun.**

1. İsa ölülərdən diriləndən sonra neçə gün ərzində onlara göründü (3-cü ayə)?

   İsa onlarla olduğu müddətdə nədən danışırdı (3-cü ayə)?

2. İsa onlara Yerusəlimdə nəyisə gözləməyi söylədi. O nə idi (4, 5-ci ayələr)?

   Sizcə, Ata Ona etibar edənlərə nə üçün dəyərli hədiyyə olan Müqəddəs Ruhu verir?

3. Müqəddəs Ruh enəndə şagirdlər nə qəbul edəcəklər (8-ci ayə)?

   İsa şagirdlərinə Onun şahidləri olacaqlarını deyir. Onlar başqalarına İsa barədə danışmaq üçün haraya gedəcəkdilər (8-ci ayə)?

4. Şagirdlər Müqəddəs Ruhu gözləyərkən nə edirdilər (14-cü ayə)?

**2-ci Fəsil**

5. Müqəddəs Ruh gələndə şagirdlər nə eşitdilər (2-ci ayə)? Onlar nə gördülər (3-cü ayə)? Bu sizə vəftizçi Yəhyanın Müqəddəs Ruhla vəftiz olmaq barədə dediklərini xatırladırmı? (Luka 3:15,16 bax.)

6. Bu hansı gün baş verdi (1-ci ayə)? Həmin vaxt kim Yerusəlimdə idi (5-ci ayə)?

   Əllinci Gün Yəhudi bayramı idi. Müxtəlif yerlərdən Yəhudilər bu bayramı qeyd etmək və Allahın xeyir-dualarına görə qurban təqdim etmək üçün Yerusəlimə gəlmişdilər.

7. Şagirdlər "digər dillərdə" danışanda bu hansı dillər idi (6-11-ci ayələr)? Onlar danışarkən nə deyirdilər (11-ci ayə)?

Siz başqa bir ölkəyə getsəniz afrikalıların məsələn, Azərbaycan dilində Allahın sevgisinə görə şükür edib Onu izzətləndirdiyini eşitsəniz özünüzü necə hiss edərsiniz?!

İzdiham içərisində olanların hamısı baş verənləri ciddi qəbul etdimi (13-cü ayə)?

8. İmansızlıq edənlərə Peter nə söylədi (14-16-cı ayələr)?

9. 17-18-ci ayələri oxuyun. Yoel peyğəmbər İsa Məsihin yer üzünə gəlməsindən yüz illərlə əvvəl yaşamışdır.

   Müqəddəs Ruh gələndə Allahın fövqəladə ənamları verilir və gizlində olanlar aşkar olur. Sizcə niyə görə Allah Ruhla dolu insanlara yuxular, görüntülər və peyğəmbərliklər verir?

10. Peter izdihama İsa barədə izahat verməyə başlayır. O, 22-24-cü ayələrdə İsa barədə onlara nə danışır?

    32-33-cü ayələri yenidən oxuyun. Peter bütün baş verənlərə Müqəddəs Ruhun səbəb olduğunu izdihama izah edir. Peterin dediklərinə əsasən, insanların üzərinə Müqəddəs Ruhu kim tökür (33-cü ayə)?

11. Sonra Peter insanlara Allahın İsanı hansı mövqeyə yüksəltdiyini söyləyir (36-cı ayə)?

    37-ci ayəni oxuyun. Qrup daxilində Məsihi, Allahın göndərdiyi Xilaskarı çarmıxa çəkdiklərini eşidəndə yəhudi xalqının necə heyrətə gəlmiş və qorxmuş olduğunu müzakirə edin. Əgər orada olsaydınız özünüzü necə hiss edərdiniz?

    38-ci ayədə Peter xalqa ümid verir. Xalq nə etməlidir (38-ci ayə)?

    Daha kim Müqəddəs Ruhu qəbul edə bilər (39-cu ayə)?

    Sizcə həmin vəd bu gün İsanın bütün davamçılarına da aiddirmi?

    38-ci ayədə verilən vədə iman etməyin İsanın davamçıları üçün niyə bu qədər vacib olduğunu izah edin.

12. Pentkost günündə Müqəddəs Ruhun gəlişinin nəticəsi nə oldu (40-41-ci ayələr)?

**Təsəvvür edin:** İsa ələ verilərkən, Peter qorxu içində idi və hətta İsanı tanıdığını üç dəfə inkar etdi. Ölülərdən diriləndən sonra İsa Peterə mehribanlıq və mərhəmət göstərdi. Onu yenidən İsanın adı naminə xidmət etmək üçün bərpa etdi. İndi isə, İsa göylərə ucaldıqdan sonra, Peter Müqəddəs Ruhla vəftiz olunub Yerusəlimin küçələrində cəsarətlə İsa barədə təbliğ edir. Siz

=


Mündəricat

razısınızmı ki, Müqəddəs Ruh onun üzərinə enəndə o, İsa barədə şəhadət etmək üçün güc aldı?

13. 3000 insan səmimi olaraq günahlarından tövbə etmiş, xilas üçün Məsihə inanmış və Müqəddəs Ruhla dolanda cəmiyyətdə nə baş verdiyini düşünün. Sizcə, ailələrdə, məktəblərdə və iş yerlərində dəyişikliklər olmayıbmı?

Bu gün insanlar günahlarından tövbə edib Allahın müqəddəsliyi ilə dolanda bu onların başqalarına qarşı münasibətlərində nəyi dəyişir?

Siz özünüzün və İsa Məsihə bütün iman edənlərin hər gün Müqəddəs Ruhla dolu olmasının lazım olduğunu görürsünüzmü? Siz bunun üçün dua edəcəksinizmi?

İndi isə bütün imanlılara verilən Müqəddəs Ruh üçün Rəbbə təşəkkür etməyə vaxt ayırın. Onu həyatınıza dəvət edin. İsa ilə gündəlik həyatınızı təzələməsi üçün Onun gücünü xahiş edin. Əgər siz heç vaxt öz günahlarınızdan üz döndərib tövbə etməmisinizsə və onların bağışlanması üçün İsa Məsihə etibar etməmisinizsə, niyə də bunu indi etməyəsiniz?

# 16. Müqəddəs Ruhla Dolu Olun

## *2-ci Hissə: Davamlı Olaraq Həyat Suyundan İçin*

**Giriş:** İncil öyrədir ki, İsa Məsihə inanan hər kəs Müqəddəs Ruh vasitəsilə yenidən doğulur.  Keçən dərs Allahın bizə Müqəddəs Ruhu vəd etməsi barədə danışdıq. Bu dərsdə Müqəddəs Ruhla **daim dolu olmaqda bizim** məsuliyyət daşımağımıza nəzər salacağıq.

**Müzakirə üçün sual:**

Siz bəzən dostunuzdan böyük bir kömək istəməkdən utanırsınızmı? Nə üçün biz bəzən nəsə istəməkdən qorxuruq?

**Luka 11:5-13-ü oxuyun.**

1. Həmin adam dostundan yardım istəmək üçün günün hansı vaxtı onun yanına gedir (5-ci ayə)? Gedib kimdənsə yardım istəmək üçün bu münasib vaxt idimi?

2. Həmin adam dostundan nə istədi (5-ci ayə)? O, bu hədiyyə ilə nə etmək istəyirdi (6-cı ayə)?

3. İsa dedi ki, dostu çörəyi onların dostluğuna görə vermədi. Nə üçün çörək verdi (8-ci ayə)?

4. Bu məsəli danışmaqda İsanın məqsədi nə idi (9-cu ayə)? İsa istəyin, axtarın, qapını döyün deyəndə nəyi nəzərdə tutur?

   İnsanlar istəyəndə/axtaranda/qapını döyəndə nə baş verir (10-cu ayə)? Nə üçün bizə nəsə lazım olanda Allaha müraciət etməkdən  qorxuruq?

   Rəbdən cəsarətlə probleminizdə kömək etməyini istədiyiniz  hər hansı bir hal barədə danışa bilərsinizmi?

5. Dünyəvi atalar öz övladlarına hansı hədiyyələri verirlər (11-12-ci ayələr)? İsa dünyəvi ataların təbiəti barədə nə deyir (13-cü ayə)?

   13-cü ayəni yavaş-yavaş oxuyun. Sizcə nə üçün İsa Allahın dünyəvi atalarımızdan daha çox qayğımıza qaldığını bilməyimizi istəyirdi?

6. Ata hansı yaxşı hədiyyələri verir (13-cü ayə)?

   O bu hədiyyələri kimə verir?

   Müqəddəs Ruhun hədiyyəsi sizin üçün çox qiymətli hədiyyədirmi? Nə üçün?

**İndi isə Yəhya 4:4-15-i birlikdə oxuyun.**

7. İsa quyunun yanındakı qadından bir qədər su istəyir. Bir daha 10-cu ayəyə baxın. Əgər qadın İsanın kim olduğunu bilsəydi, nə edərdi?


Mündəricat

8. İsanın verdiyi su insanda nəyə çevrilir (14-cü ayə)?

   Nə üçün insanlar bulaqdan su içmək üçün yolda dayanırlar?

   Sərin bulaq suyu Müqəddəs Ruha necə bənzəyir?

**Yəhya 7:37-39 oxuyun.**

9. İsa burada da eyni təsvirdən istifadə edir. 39-cu ayə İsanın nə barədə danışdığını aydın izah edir. O, həyat suyu barədə danışarkən nəyi nəzərdə tutur?

   Susayan adam nə etməlidir (37-ci ayə)?

   Siz hər gün Allahla gəzməyə susamısınızmı? Siz daim axmağa davam edən ümid və sevinc bulağını tapmağı arzu edirsinizmi? Bu qrupun müxtəlif üzvləri Müqəddəs Ruhla dolu olaraq Allahla gəzməyə dair səmimi arzularını bölüşmək istəyə bilərlər.

**Efeslilərə 5:15-20-ni oxuyun.**

10. 18-ci ayəni yenidən oxuyun. İnsanların içki içməsinin səbəbi nədir? Nə üçün Allah bizə sevinc bəxş etmək üçün bizim məsələn, alkoqol və ya narkotik maddə əvəzinə Müqəddəs Ruhla dolmağımızı istəyir?

11. Paul artıq Müqəddəs Ruha malik olan imanlılara danışırdı. Hətta onlara **“Ruhla dolu olun”** deyə əmr etmişdi (18-ci ayə). Məsihçi həyatımızı həyat suyu ilə dolmadan və bizdən həyat suyu axmadan yaşamaq mümkündürmü? Biz daim Müqəddəs Ruhla necə dolu ola bilərik?

12. 19-20-ci ayələrdə daim ürəyimizdə oxumaq, ibadət etmək və Allaha şükür etməkdən danışılır. Daim Allaha ibadət və şükür etmək bizə həmişə Müqəddəs Ruhla dolmağa necə yardım edə bilər?

    Qrup şəklində daim Müqəddəs Ruhla dolu olmaq üçün dua edin.

# 17. Müqəddəs Ruhu Köməkçiniz Kimi Qəbul Edin

**Müzakirə üçün sual:**

Heç arzulamısınız ki, İsanın yer üzündə yaşadığı dövrdə yaşayardınız, Onu görə biləydiniz və üzbəüz danışaydınız? Sizcə bu nəyə bənzəyərdi?

**Yəhya 14:15-18-i oxuyun.**

1. Bu ayələri yenidən oxuyun. Əgər biz İsanı sevsək və Ona itaət etsək, O bizim üçün nə edəcəyini söyləyir (16-cı ayə)?

   Bu ayələrdə Müqəddəs Ruh üçün hansı iki ad istifadə olunur? Həmin o iki ad Müqəddəs Ruhun sizin üçün nə edəcəyini söyləyir?

2. Dünya Müqəddəs Ruhu nəyə görə qəbul edə bilməz? Həvarilər dünyadan necə fərqlənirdilər?

   İsa dedi ki, Müqəddəs Ruh indi (Onun ölümündən və dirilməsindən qabaq) onlar <u>ilə</u> idi. İsa Atanın yanına qayıdandan sonra bu necə fərqli olacaq (17-ci ayə)?

3. 18-ci ayəni yenidən oxuyun. Bu sizə necə təsəlli verir və sizi necə gücləndirir?

**İndi Yəhya 14:25-26-nı oxuyun.**

4. 26-cı ayə bizə yardım edir ki, Atanın, Oğulun və Müqəddəs Ruhun birlikdə necə işlədiyini anlayaq. Müqəddəs Ruhu kim göndərir? O, kimin adı ilə göndərilir? Bu ayəyə əsasən Müqəddəs Ruh nə edir?

   Siz heç düşünmüsünüzmü ki, İsa yer üzündən çıxıb gedəndən sonra öyrətdiyi hər bir şeyi həvarilər yadlarında necə saxlayıblar? Müqəddəs Ruh bu işdə onlara necə kömək etdi (26-cı ayə)?

   Siz inanırsınız ki, Müqəddəs Ruh Allahın həqiqətlərini bilməkdə və anlamaqda sizə də kömək edəcək?

**Yəhya 16:5-15-i oxuyun.**

5. 5-7-ci ayələri oxuyun. Həvarilər nəyə görə kədər ilə doldular?

   İsa nəyə görə dedi ki, Onun getməsi yaxşıdır (7-ci ayə)?

6. 8-11-ci ayələri yenidən oxuyun. İsanın dediyinə əsasən Müqəddəs Ruh gələrkən hansı üç şey barədə ifşa edəcək?

   Bu haqda düşünün: sizcə nəyə görə Müqəddəs Ruhun yer üzünə tökülməsi İsanın bədən ilə burada olmasından daha yaxşı olardı? İsa yer üzündə yaşayanda Onun yeri və vaxtı məhdud idi. Müqəddəs Ruhun işi bunun ilə necə müqayisə olunur?

7. 12-ci ayəyə əsasən İsa istədiyi hər bir şeyi həvarilərinə nəyə görə demədi?

8. 13-cü ayəyə baxın. İsa gedəndən sonra onlar həqiqəti necə başa düşə bildilər? Bu onları aldanmadan necə qoruya bilər?

   Müqəddəs Ruh (Həqiqət Ruhu) başqa nə edəcək (13-14-cü ayələr)?

9. Diqqət yetirin ki, 14 və 15-ci ayələrdə Ata Allah, İsa Oğul və Müqəddəs Ruh hər üçü yenidən xatırlanır. Buna baxmaq və Üçlüyün birlikdə necə işləməsinin gözəl qaydasını müzakirə etmək üçün vaxt ayırın.

   Ruh Ata və Oğuldan necə asılıdır? Müqəddəs Ruh onlara izzəti necə gətirir? Ata Oğulu necə izzətləndirir (15-ci ayə)? Bu gözəl ünsiyyətdə biz necə iştirak edirik (14-15-ci ayələr)?

   Sizcə Allah istəyirmi ki, biz də biri-birimiz ilə belə ünsiyyətə cana ataq? Əgər biz hər gün Müqəddəs Ruhdan asılı tərzdə yaşasaq, ünsiyyətlərimiz daha yaxşı olarmı? Nece?

10. Allahın İsaya iman edən bütün insanlara təmənnasız verdiyi hədiyyəyə, Müqəddəs Ruha görə Ona minnətdarlığınızı bildirin. Daxilimizdə Allahın Ruhunun yaşamasının nə demək olduğu barədə düşünün! Siz gündəlik Onu dəvət edirsinizmi ki, sizin bələdçiniz, köməkçiniz, təsəlli vereniniz və həyatınızın mənbəyi olsun? Əgər dəvət etməmisinizsə, onda bu gündən dəvət etməyə başlayın. O, Allahın bütün resurslarını (vəsaitlərini) sizin üçün əlçatan edə bilər!

***"Biz sevirik, çünki öncə O bizi sevdi.***
***Kim 'mən Allahı sevirəm' deyir,***
***amma öz qardaşına nifrət edirsə, yalançıdır.***
***Axı gördüyü qardaşını sevməyən görmədiyi***
***Allahı sevə bilməz. Bizim Ondan aldığımız əmr budur ki,***
***Allahı sevən gərək öz qardaşını da sevsin."***
***1 Yəhya 4:19 – 21***

# SEVİN

***İsa Ona dedi: "Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev." Bu, böyük və əsas əmrdir. Buna bənzəyən ikincisi budur: "Qonşunu özün kimi sev." Bütün Qanun və Peyğəmbərlərin sözləri bu iki əmrə əsaslanır." (Matta 22:37-40)***

Başlanğıcdan kişilər və qadınlar məhəbbət mahnıları oxumuşlar. Biz adətən məhəbbət dedikdə romantika, və ya bəlkə də, ailə üzvlərimiz və ya dostlarımıza qarşı olan məhəbbət barədə düşünürük.

İsa bizə fərqli bir məhəbbət barədə öyrətmişdi. Birincisi, Allah bizim bağlılığımızın mərkəzi olmalıdır. Bu o deməkdir ki, biz Ona həyatımızda birinci yeri veririk. Başqa cür desək, biz Allahı utanmadan Onun bizə verdiyi hər şeylə: ürəklərimiz, gücümüz, düşüncəmiz ilə sevirik.

İkincisi, İsa bizə insanları özümüzü sevdiyimiz kimi sevməyi öyrətmişdir. Həqiqi məhəbbət səmimi qəlbdən hamının, hətta düşmənin də qayğısına qalır. Bütün insanları Allah yaratmışdır və onların hamısını eyni məhəbbətlə sevir. Məhəbbət bizim körpüləri sındıraraq deyil, tikərək başqalarına həlimliklə xidmət etməyimizi ifadə edir.

İsa deyib ki, bizim başqalarına qarşı belə məhəbbətimiz olarsa, dünya bizim Onun şagirdləri olduğumuzu biləcək.

Məhəbbət barədə bu dərslər sizin həyatınızı və sonra da dünyanızı dəyişəcək. Siz İsanın təlimlərini araşdıranda və onları həyata keçirəndə, ürəyiniz Allahın məhəbəti ilə dolacaqdır. Siz həyatın mənasını anlamağa başlayacaqsınız.

**Qeyd:** Bu bölmədə olan dərslər İsanın qonşunuzu özünüz kimi sevməyiniz barədə əmri üzərində cəmlənmişdir. Onun Allahı bütün varlığımızla sevməyimiz haqqında olan əmri bir neçə dərs şəklində bölüşdürülə bilməz. İsanın bütün əmrləri və Onun həyatda və ölümdə müqəddəs nümunəsi Allahı bütün ürəyimizlə, düşüncəmizlə və gücümüzlə sevməyin nə olduğunu bizə öyrədir. Beləliklə, biz deyə bilərik ki, bu kitabda olan bütün dərslər sizi Allahı bütün qəlbinizlə sevməyə aparan yola gətirəcək.

# 18. Qonşunuzu Özünüz Kimi Sevin

## *Xeyirxah Samariyalı Məsəli*

**Müzakirə üçün sual:**

Heç dünyanın nə üçün bu qədər qəddar olduğunu düşünmüsünüzmü? Nə üçün biz bilə- bilə digər insanların qayğısına qalmırıq?

**Luka 10:25-37-ni oxuyun.**

1. Qanunşünas bütün yəhudi qanunlarını necə xülasə edir (27-ci ayə)?
2. İsa Onun cavabları ilə razılaşırmı? İsaya görə, bu şeyləri etməyin nəticəsi necə olacaq (28-ci ayə)?
3. Mətnə əsasən nə üçün həmin adam **"Bəs mənim qonşum kimdir?"** deyə soruşur (29-cu ayə)?
4. Hekayədə yaralı adama yardım etməyən iki insanın vəzifəsi nə idi (31 və 32-ci ayələr)?

> Yəhudi **kahin** (31-ci ayə) və **Levili** (32-ci ayə – Yəhudi Məbədində kahinlərə kömək edərək işləyən insanlar) yəhudi qanunu bilən insanlar idilər. Onlar yəhudi xalqının qonşularını özləri kimi sevməli olduqlarını deyən Musanın qanununu dəfələrlə oxumuşdular. Lakin onlar qanuna əhəmiyyət vermədilər və yolda can verən həmyerlilərinə yardım etmək istəmədilər. Lakin Yəhudilərin düşməni olan Samariyalı yaralı yəhudiyə can yandırdı.
>
> Bu məsəldə İsa bizə yalnız ailəmizi, dostlarımızı və ya öz xalqımızdan olanları deyil, **bütün** insanları sevməyin vacibliyini öyrətməyə çalışır.

5. Bu hekayədə həqiqi **"qonşu"** kim idi (36-37-ci ayələr)? Samariyalı döyülmüş yəhudiyə yardım etmək üçün nə cür qurban verdi (pulunu, vaxtını, bəlkə də, ad-sanını)? 34-35-ci ayələrdə etdiyi şeylər barədə danışın.
6. Hekayə sona yetəndə İsanın qanunşünasına göstərişləri nə oldu (36-37-ci ayələr)?
7. **Matta 5-ci fəsilə baxın. 43-48-ci ayələri oxuyun.** Bu hekayələr bizə Allah barədə nə öyrədir? **"Atanızın həqiqi övladları"** kimdir (44-45-ci ayələr)?

8. Biz bu gün bunu öz həyatımıza necə tətbiq edə bilərik? Əvvəlcədən düşünün. Gündəlik həyatımızda bu cür sevgi altında gəzmək üçün hansı qurbanların verilməli olduğunu müzakirə edin.

   İsa yalnız yolda yardıma ehtiyacı olan insan barədə danışırmı? Biz daha hansı vəziyyətlərdə ehtiyacı olan insanlara Allahın sevgisini göstərə bilərik?

9. **İndi isə Matta 7:12-ci ayəni oxuyun.** Bu ayə bəzən **"Qızıl Qayda"** adlanır. Bu ayəni əzbər öyrənmək əla olardı.

   Həmin ayəni yenidən oxuyun və onun mənası haqda düşünün. Bizlər hamımız bu qayda ilə yaşamağı öyrənsəydik, dünya indi necə fərqli bir yer olardı? Yaxşı Samariyalı hekayəsində İsanın bizə öyrətdiyi kimi bizlər hamımız hər bir kəsə məhəbbət göstərsəydik bu necə fərqli olardı?

   İnsanları İsa Məsih kimi sevərək  dünyanın həqiqi nuru olmaq üçün, özünüz və İsanın bu ölkədə bütün davamçıları üçün vaxt ayıraraq dua edin.

# 19. Bir-birinizi Sevin Və Bir Olun

**Müzakirə üçün sual:**

İsa dedi: **“Sizə yeni bir əmr verirəm: bir-birinizi sevin, Mən sizi sevdiyim kimi siz də bir-birinizi sevin.” (Yəhya 13:34)**

Bu ayə haqqında fikirləşin. İsa həvarilərinə əvvəllər gördüklərindən yeni və daha böyük bir sevgi nümunəsini necə vermişdi?

İsanın həvarilərə necə sevgi göstərməsi üsullarını müzakirə edin. (Yəhya 10:14, Yəhya 13:12-15-ə baxın). Bizim bir-birimizi necə sevməli olduğumuzu bilmək üçün bu ayələr bizə necə kömək edir?

**Yəhya 17:20-23-ü oxuyun.**

1. Bu fəsildə İsanın çarmıxa çəkilməsindən qabaqkı gecə Onun etdiyi dua verilib. 20-23-cü ayələrdə O, hər bir yerdə olan hər bir kəs üçün və bütün dövrlərdə Ona iman edəcək insanlar üçün dua edir. Buraya biz də aidik! Onun bütün imanlılar üçün arzu etdiyi əsas şey nədir?

2. 21-ci ayəni yenidən oxuyun. İsa imanlılar arasında arzuladığı birliyi təsvir etmək üçün hansı nümunəni göstərir? (22 və 23-cü ayələrdə İsa bunu oxşar sözlər ilə təkrarlayır.)

   Bizim bir-birimizlə ünsiyyətimizdə lazım olan Ata və Oğulun birliyinin bəzi xüsusiyyətlərini sadalayın. (Yəhya 5:20 və Yəhya 8:29, 49-50-yə baxın.)

3. 21 və 23-cü ayələrdə İsa bizim birliyi niyə arzulamalı və onun üçün niyə dua etməli olduğumuz barədə iki vacib səbəbi göstərir. Bu iki səbəb hansılardır?

   Nəyə görə bizim bütün imanlılar ilə birliyimiz İsanın Allah tərəfindən göndərildiyinə güclü bir şəhadətlikdir?

4. İndi isə gəlin, imanlılar arasında birliyi yaratmağa kömək edən təvazökar xasiyyətin gözəl nümunəsinə nəzər salaq.

   **Yəhya 3:22-30-u oxuyun.** Yəhyanın həvariləri narahatçılıqla onun yanına gəldilər. Onlar nəyə görə narahat idilər (26-cı ayə)?

5. 27-ci ayədə Yəhya nəyi demək istəyir? Bu sözlər bir imanlı kimi bizə və qoşulduğumuz istənilən xidmətə necə aid edilir?

   Allahın Padşahlığı üçün hər bir həqiqi xidmət özümüzdən irəli gəlməlidir, yoxsa Allah bunu bizə verməlidir? İzah edin.

6. 28-29-cu ayələrə yaxından diqqət yetirin. Gəlin kimdir? Bəy kimdir? Gəlin kimə məxsusdur?

   Yəhya niyə deyir ki, indi sevinc ilə doludur?

7. 30-cu ayəni oxuyun. Sizcə, Yəhya öz padşahlığını qurmaq ilə daha çox maraqlanırdı, yoxsa insanların İsanı tərifləmələri və Onun ardınca getmələri üçün Allahın Padşahlığını qurmaq istəyirdi? Məsələn, Yəhya insanların onu həmişə tərifləməsini və onun ardınca getməsini istəyirdimi? Bu təvazökar xasiyyətin Allahın Padşahlığının böyüməsinə necə kömək edə bildiyini müzakirə edin.

   Nəyə görə biz öz xidmətimizdə çətinliklər ilə üzləşdiyimiz halda bəzən kiminsə xidmətinin və toplantısının çiçəkləndiyini görəndə paxıllıq edirik? Əgər Yəhya kimi bizdə də təvazökar xasiyyət olsa, bu xasiyyət bizə başqa imanlı qruplar ilə birliyi qurmaq üçün necə kömək edər?

8. **2 Korinflilərə 12:20-ni oxuyun**. Paul Korinfdə olan imanlılara bu ikinci məktubunu yazanda onlara baş çəkəcəyini planlaşdırırdı. O narahat idi ki, onların bəzilərində pis, ayrıseçkilik salan xasiyyətlər görər. Paul orada hansı günahı görməkdən qorxurdu? Bu şeylər birliyə necə mane olur?

9. Öz həyatınız barədə düşünün. Ayrıseçkilik salan bu günahlardan hansısa birində özünüzü təqsirkar hiss edirsinizmi? Əgər təqsirkar hiss edirsinizsə, onu Allaha etiraf edin və Ondan xahiş edin ki, sizi təmizləsin. Ondan xahiş edin ki, başqaları ilə sevgidə və birlikdə yaşamağınız üçün sizə güc versin.

   Qrupunuzun daxilində həqiqi sevgi və birlik ruhu, eləcə də bu ölkədə olan bütün Məsihin bədəni üçün dua edin.

**“Nə yaxşıdır, nə xoşdur**

**Qardaş olub bir yaşamaq!**

**Çünki Rəbb buyurub ki,**

**Bu məkana bərəkət, əbədi həyat verilsin.”**

**(Məzmur 133:1 və 3)**

# 20. Bir-birinizi Ürəkdən Bağışlayın

**Müzakirə üçün sual:**

Kimsə hansısa insanın xətrinə dəyəndə, yaxud onlara pislik edəndə, əksər insanlar buna necə reaksiya edirlər? Siz bu barədə nə fikirləşirsiniz?

**Matta 18:21-35-i oxuyun.**

1. 21-22-ci ayələri yenidən oxuyun.  Sizcə, biz kimisə hər dəfə bağışlayanda İsa onların hesabını tutmağımızı nəzərdə tutur? İsa nə demək istəyir?
2. Biz kimisə bağışladığımızın hesabını tutanda, bu bizim davranışımız barədə nə deyir? Öz ürəklərimizdə, biz onları həqiqətən bağışlamaq istəyirik, yoxsa biz onları “bağışlamalı” olduğumuzu bildiyimizə görə edirik?
3. Qulun padşaha nə qədər borcu var idi (24-cü ayə)?
4. Padşah borcun əvəzinin ödənməsi üçün o adamı və onun ailəsini satmaq istəyirdi. Qul nə etdi  (26-cı ayə)?

   Sizcə o nə vaxtsa borcun hamısını geri ödəyə bilərdi?

   Padşah onun yalvarışına necə cavab verdi (27-ci ayə)?
5. Qul bağışlanandan və azad olunandan sonra nə etdi (28-ci ayə)?

   Onun yoldaşı ona nə qədər borclu idi?
6. Padşah nə baş verdiyini eşidəndə, o nə etdi (32-34-cü ayələr)?

   Sizcə, padşahın hərəkətləri doğru idi? Nə üçün?
7. Bu məsəlin sonunda İsa nə dedi (35-ci ayə)?

   İsa burada ciddi bir fikir söyləyir. İncilin digər yerlərində İsa eyni prinsipi öyrədir. **Matta 5:7-ni oxuyun.** Bu ayə bizə nəyi öyrədir?

   İndi Matta 6:9-15-i oxuyun.

   İsa öz şagirdlərinə necə dua etməyi öyrədir. İsa burada bağışlanma haqqında nə deyir?

   Sizin fikrinizcə, bizim bağışlamağı öyrənməyimiz Allah üçün nəyə görə bu qədər vacibdir?
8. Matta 18:33-cü ayəni yenidən oxuyun. Bu məsəlin özəyi burada verilmişdir. Allahın bizim günahlarımızı bağışladığını başa düşməyənə qədər biz başqalarını həqiqətən bağışlaya bilmərik. Siz inanırsınız ki, Allah sizi o qədər çox sevir ki, O hətta sizin günahlarınızı götürmək üçün Öz Oğlunu belə verdi?

9. Allah Məsih vasitəsi ilə günahlarımızı bağışlayanda, bu həmin o padşahın qula borclarını bağışladığı kimidir. Biz heç vaxt borcumuzu ödəyə bilmərik, lakin bu tamamilə bağışlanmışdır. O qul kimi, biz azadıq. Borcun yükü (bizim günahlarımız) bizim çiyinlərimizdən götürülmüşdür.

   Amma Allah ona görə bağışlayır ki, biz dəyişə bilək və Onun kimi olaq. O bizə qarşı mərhəmətlidirsə, onda O bizim digərlərinə qarşı necə olmamızı gözləyir? (33-cü ayə)

10. Əgər Məsih vasitəsi ilə Allahın əhvinə inanırıqsa, həyat yoldaşımız və ailə üzvlərimiz daxil olmaqla başqalarını da bağışlamağı öyrəniriksə, bizim ailələrimizdə və yaşadığımız cəmiyyətdə hansı dəyişikliklər baş verəcəkdir?

   Bağışlamadığınız bir adamı xatırlayırsınızmı? Əgər onları bağışlamaq çətindirsə, yada salın ki, Allah sizin daha böyük borclarınızı bağışlamışdır. Ondan xahiş edin ki, sizə qarşı səhv olan, yaxud sizi incidən hər bir adamı bağışlamaqda sizə kömək etsin. Sonra duada Ona deyin ki, həmin adamı bağışlamağı seçirsiniz. Əgər bunu etməkdə sizə kömək lazımdırsa, rəhbərinizdən, yaxud yetkin bir imanlıdan sizinlə dua etməyini xahiş edin.

# 21. İtaətkar Xidmət Vasitəsilə Bir-birinizi Sevin

**Müzakirə üçün sual:**

Heç görmüsünüzmü ki, rəhbər şəxs çox aşağı səviyyəli bir iş görür, məsələn, döşəməni silir və ya qabları yuyur? Bunu görəndə siz özünüzü necə hiss etmisiniz?

> **Mədəniyyətlə əlaqədar qeyd:** İsanın yaşadığı dövrlərdə insanlar çarıq geyinirdilər və onların ayaqları çox tozlu olurdu. Qulluqçular olan evdə qonaqların ayaqlarını yumaq ən aşağı işlə məşğul olan qulluqçunun işi idi. Ola bilsin ki, Pasxa gecəsi həvarilərin ayaqlarını yumaq üçün heç bir qulluqçu yox idi. Aydındır ki, heç bir həvari o biri həvarilərin ayaqlarını yumağı təklif etməmişdi. Ona görə də İsa özü ən aşağı səviyyəli işi üzərinə götürür.

**Yəhya 13:1-17-ni oxuyun.**

1. 1-ci ayəyə baxın. Bu hadisə nə vaxt baş verib? Sizcə həmin vaxt İsanın fikrində nə idi?

   Onun edəcəyi işdə məqsəd nə idi?

2. 2-ci ayəni oxuyun. İblisin artıq hansı işi baş vermişdi?

3. 3-5-ci ayələri oxuyun. İsa hansı üç şey barədə arxayın idi (3-cü ayə)?

   Sonra O, 4-5-ci ayələrdə nə etməyə başladı?

   Sizcə İsa özünün kim olduğunu onlara sübut etməyə ehtiyac duyurdumu?

4. İndi 6-8-ci ayələrə baxın. 8-ci ayədə Peter İsaya çox ciddi şəkildə nə deyir?

   Sizcə Peter nəyə görə istəmirdi ki, İsa onun ayaqlarını yusun?

   Bəzən başqalarının itaətkar tərzdə sizə xidmət etməsinə icazə vermək sizin üçün çətin olurmu?

5. 9-cu ayədə Peterin fikrini dəyişməyə nə səbəb oldu (8-ci ayəyə baxın)?

6. 10-11-ci ayələr göstərir ki, İsa hətta Yəhudanın ayaqlarını yudu. **Matta 5:43-48-ə qısaca nəzər salın.** Bu bir nümunə kimi bizə İsanın hətta düşmənlərimizi belə sevməyi söylədiyini necə göstərir?

7. Yəhya 13:12-17-ci ayələri yenidən oxuyun. İsa həvarilərindən Onun etdiklərini anlayıb-anlamadıqlarını soruşur. O, həvarilərinin nəyi başa düşməsini istəyir?

8. 13-cü ayədə İsa həvarilərinin arasında hansı vəzifəsi olduğunu söyləyir?

   İndi 14-15-ci ayələri oxuyun. İsa nəyə görə deyir ki, etdiyi işi həyata keçirdi?

   Siz adətən **"müəllimdən"** və ya **"rəhbərdən"** ən aşağı səviyyəli işlə məşğul olan qulluqçunun işini görməsini gözləyirsinizmi?

9. İsa öz həvarilərinə (və bizə) göstərir ki, biz dünyadakı insanlardan necə fərqli olmalıyıq. Sizcə onun nümunəsi təkcə ayaq yumaq idi, yoxsa siz düşünürsünüz ki, O, ümumiyyətlə, başqalarına xidmət etmək haqqında nəsə deyir? Cavabınızı izah edin.

> **Qeyd:** Bütün tarix boyunca çox vaxt ən az arzu olunan, ən çirkli işləri görmək üçün özlərini təqdim edən insanlar İsanın ardıcılları olub. Avropada taun xəstəliyi olan dövrlərdə çox vaxt xəstələrə məsihçilər qulluq edirdilər, halbuki başqa heç kimi bunu etmirdi. Çox vaxt onlar özləri də ölürdülər, çünki qulluq etdikləri xəstlərin xəstəlikləri onlara da keçirdi. Bir çox insanlar bu sevgi nümunəsinə görə İsaya iman etmişdilər.
>
> 1980-ci ildə çoxlu qaçqın Kamboca və Vyetnamdan qaçaraq Tailandda düşərgələrə toplaşdılar. Düşərgələri insan tullantılarından təmizləyən və onları yaşamaq üçün yararlı hala gətirən insanlar könüllü şəkildə oraya gələn məsihçilər idilər. Bu, bir çox bütpərəst insanlara böyük təsir göstərmişdi və çoxlu İsaya iman etmişdilər.

10. İsanın nümunəsi sizə nə deyir? 16-17-ci ayələri oxuyun. Siz Ağanızdan böyüksünüzmü? O sizdən başqalarına necə xidmət etməyi xahiş edir? Siz başqalarına xidmət etmək üçün özünü alçaldan və ya çirkli işləri görməyə hazırsınızmı?

    Bu həftə işə gedərkən İsanın itaətkar xidmət nümunəsini fikrinizdə saxlayın. Ona oxşamaq üçün yollar axtarın.

# 22. Düşmənlərinizi Sevin

**Müzakirə üçün sual:**

Siz kiminsə qisas aldığını və bunun nəticəsində qəzəbin və nifrətin artdığını görmüsünüzmü? Problem davam etdi və daha da pisləşdi?

**Matta 5:38-48-i oxuyun.**

**Bu ayələr ola bilsin ki, İsanın təlimlərində ən çətin ayələrdir. Bizlərdən heç birimiz bu sözlərə asanlıqla itaət edə bilmirik!**

**Mədəniyyətlə əlaqədar qeyd:** 38-ci ayəyə yenidən baxın. **"Göz əvəzinə göz, diş əvəzinə diş"** ifadəsi Levililər 24:19-20-ci ayələrdən götürülüb. **"Bir adam başqa adamı yaralayarsa, o nə cür edibsə, ona da belə edilsin: sınıq əvəzinə sınıq, göz əvəzinə göz, diş əvəzinə diş; o adama nə cür yara vurubsa, ona da belə yara vurulsun."** Bu İsrailin hakimlərinə kömək edirdi ki, ədalətli qərarlar çıxarsınlar. Cəza cinayətə bərabər olmalı idi. Bu, hakimlərə ədalətli və düzgün qərarlar çıxarmağı öyrədirdi. Allahın müqəddəs Kəlamı öyrədir ki, pislik edənləri cəzalandırmaq hakimiyyətin işidir, amma hakimlər də bütün insanlara qarşı eyni cür rəftar etməlidirlər.

Amma İsanın dövründə bəzi insanlar pislik edərkən qisas almağa haqq qazandırmaq üçün bu qanundan istifadə edirdilər.

1. Matta 5:39-42-ci ayələrdə İsanın dediyi kimi bizə kimsə pislik edəndə bizim cavabımız nə olmalıdır? Siz İsanın sözlərini necə yekunlaşdırardınız?
2. Bəzi insanların fikrincə bu ayələrin mənası budur ki, kimsə bizi vuranda orada dayanmalıyıq və nə qədər vursalar da, heç bir şey etməməliyik. Sizcə bu, İsanın burada dediyi sözlərin həqiqi mənasıdırmı? Sizcə O, nə demək istəyir?

   Bizə pislik edənlərə qarşı ürəyimizin münasibəti necə olmalıdır? (39-cu ayənin birinci hissəsinə baxın.)
3. 43-48-ci ayələri yenidən oxuyun. Adətən deyilən sözlərin əksinə olaraq (43-cü ayə) 44-cü ayədə İsanın bizə öyrətdiyi təlimlər necədir?
4. Allah həm pislərə, həm də yaxşılara qarşı necə davranır (45-ci ayə)?

   Əgər biz düşmənlərimizi sevsək, göylərdəki Atamızın necə həqiqi övladları olarıq?

5. 46-48-ci ayələri oxuyun. İsa bizim vergiyığanlardan və bütpərəstlərdən fərqli olmağımız üçün bizə nə söyləyir? Bizim nümunəmiz kimdir (48-ci ayə)?

6. **Romalılar 12-ci fəsli açın və 17-21-ci ayələri oxuyun.** Əgər kimsə bizə qarşı pislik edirsə, bu bizə ixtiyar verirmi ki, onlara pislik edək?

   17-ci ayəyə əsasən İsanın ardıcılları nə vaxtsa pislik etməlidirlərmi?

7. 18-ci ayəni yenidən oxuyun. Bir sülhpərvər insan kimi bizim cavabdehliyimiz nədir?

8. 19-cu ayəni yenidən oxuyun. Bizə pislik edənə əvəzini ödəmək kimin cavabdehliyidir? Niyə özümüzə görə qisas almamağımız, amma onu Allaha verməyimiz vacibdir?

   **Bunun haqqında fikirləşin:** Bir insan kimi biz hadisəni aydın şəkildə görürükmü? Biz başqa insanın ürəyinin niyyətlərini bilə bilərikmi?

   Siz qisas alanda o biri insan əvəzində nə edir? Bu nə vaxtsa necə qurtara bilər?

   Siz inanırsınızmı ki, Allah ədalətlidir və O, əvvəl-axır hər bir şeyi yoluna qoyacaq?

9. 20-21-ci ayələrə baxın. Qisas almaq əvəzinə biz nə etməliyik?

   Əgər biz qisas alsaq, hansı biri qalib gəlir – pislik, yoxsa yaxşılıq? Biz pisliyə necə qalib gəlirik?

10. Kimsə sizi incidəndə və ya təhqir edəndə ürəyinizdə qisas üçün yaşamaq istəyinə imkan verirsinizmi?

    Matta 5:43-48-də İsanın təlimlərinə yenidən nəzər salın. Əgər insanlar İsanın təlimlərinə riayət etsəydilər, cəmiyyət nə cür dəyişərdi?

    İndi dua etmək üçün vaxt ayırın. Sizin **“düşmənləriniz”** – sizə pislik edən insanlar varmı? İsadan xahiş edin ki, qisas almaq əvəzinə sizə onları sevməkdə və bağışlamaqda yardım etsin.

***“Buna görə sizə deyirəm:***
***dua edib hər nə diləsəniz, inanın ki,***
***artıq almısınız və istədiyiniz sizin üçün ediləcək.”***
***Mark 11:24***

# DUA EDİN

***Buna görə siz belə dua edin… (Matta 6:9)***

Bütün dünyada insanlar dua edirlər. Qəbilə və tayfalarda yaşayan insanlar qorxduqları ruhlara dua edir və nəğmə oxuyurlar. Hər bir dinin öz dua ayinləri vardır. Hətta ateistlər belə fəlakət zamanı: ***"Allah əgər varsansa, mənə kömək et!"*** – deyə ümidsiz şəkildə qışqırırlar. İnsan bilir ki, onun gücü məhduddur və özündən başqa kimdən və ya nədənsə kömək almağa ehtiyacı vardır. Lakin əksəriyyətimiz bilirik ki, biz duanı anlamırıq. Biz həmçinin yaxşı dua etmədiyimizi də bilirik.

Şagirdlər İsanın əminlik və səlahiyyətlə dua etdiyini görmüşdülər. Onlar həmçinin İsanın Ata ilə təklikdə qalmaq üçün onları tərk etdiyini də görmüşdülər. Onlar hər gün İsanın ruhani gücünü görürdülər. İsa Öz Atasını tanıyırdı və dualarının eşidildiyini bilirdi. Ona görə də, şagirdlər İsadan onlara dua etməyi öyrətməyini istədilər. İsa da öyrətdi! O, dua barədə şagirdlərə bir çox vacib şeyləri öyrətdi.

İsaya iman edənlər əminliklə dua etməlidirlər. Lakin biz, ilk şagirdlər kimi, İsadan bizə dua etməyi öyrətməsini istəməliyik. Gəlin, bir duaçı kimi Onun sözlərindən və nümunəsindən öyrənək.

Növbəti dərslər bizə kömək edəcək. Gəlin, Onun kimi dua edən insanlar olaq.

# 23. İkiüzlülər və Bütpərəstlər Kimi Dua Etməyin

**Müzakirə üçün sual:**

Bəzən həyat ağır olanda siz Allahın dualarınızı eşidib-eşitmədiyini düşünmüsünüzmü? Biz Allahın dualarımızı eşitdiyinə, onlara Öz sevgisi, hikməti ilə və vaxtında cavab verəcəyinə iman etməklə daha yaxşı necə dua edə bilərik?

**Matta 6:1-8-i oxuyun.**

1. İsa bizə deyir ki, dua edərkən ikiüzlü olmayaq. Biz onların etdiyi hansı şeylərdən ehtiyatlı olmalıyıq ( 5-ci ayə)?
2. Sizcə, ikiüzlünün insanların onları izzətləndirməsini istəməsi onun dualarına və Allahla ünsiyyətinə necə mane olur?
3. Biz dua edərkən İsa bizim onlardan necə fərqli olmağımızı deyir (6-cı ayə)?
4. İsa davamçılarının yalnız otaqda tək qalıb başqaları ilə birlikdə olmadan dua etmələrini əmr edirmi?

   Unutmayın ki, Məsih Özü şagirdləri qarşısında dua etmişdi. Şagirdlər də imanlılar kimi birlikdə dəfələrlə dua etmişdilər. 5 və 6-cı ayələrdə İsanın şagirdlərinə öyrətdiyi prinsip hansıdır?
5. İkiüzlülər (Allahı tanıdıqlarını düşünən din adamları) 5-ci və 6-cı ayələrdə təsvir edilmişdir. Bildiyimiz kimi, onlar dua edərkən diqqət mərkəzlərini səhvən insanların onları görməsinə yönəldirlər. İndi isə 7-ci ayədə fərqli bir xasiyyətli insana diqqət yetirin. Digər xasiyyətli insanlar hansılardır?
6. Bütpərəstlər dua edərkən nə edirlər (7-ci ayə)?

   Allahın bizi eşitməsi üçün çoxlu sözlərlə dua etməyə inanmağımız nə üçün səhv düşüncə tərzidir?
7. Bütpərəstlər çox vaxt duadan bir növ ovsun kimi istifadə edirlər. Onlar düşünür ki, əgər dəfələrlə müəyyən sözlər deyirlərsə, istədiklərini etmələri üçün allahları idarə edə bilərlər. Bu müjdələrdə yazılmış duanın mənasını ifadə etmir. İsa bizə öyrədir ki, Allah bizim Atamızdır və bizim dualarımızı eşidərək bizim qayğımıza qalır.

   Dua edərkən Allahı idarə etməyə çalışmaq nə üçün yanlışdır?
8. Bəzi insanlar sanki vəziyyət üzərində səlahiyyət qazanmaq üçün müəyyən sözlər deyərək dua edirlər. Bu da əslində Allaha etibar etməkdən daha çox sözlərin səlahiyyətinə etibar edərək bir **“ovsun”** formasıdır. İsanın davamçısı kimi dua etmək tamamilə fərqli bir şeydir. İsanın öyrətdiyi kimi dua etmək vəziyyəti və insanları idarə

etmək deyildir. Amma Allahın iradəsinin yer üzərində hakim olması üçün cəsarətlə və imanla dua edin. Bu duada qadir olan və İsa Məsihin ölümü və yenidən dirilməsi vasitəsilə iblisin qüdrəti üzərində qələbə çalmış sevən Allaha etibar edilir.

Bəzi insanlar evlərini, işlərini və ya maşınlarını pis gözdən saxlamaq üçün göz muncuqları asırlar. Dua bu göz muncuqlarına inanmaqdan necə fərqlənir?

Növbəti dərsdə biz İsanın şagirdlərinə necə dua etməyi öyrətdiyinə baxacağıq.

9. Bu dərsini sona çatdırmaq üçün növbəti aylarda Onu razı salan tərzdə dua etməyi Rəbbin sizi öyrətməsini xahiş edin.

# 24. Siz Belə Dua Edin

**Müzakirə üçün sual:**

Bir dəfə şagirdlər İsadan onlara dua etməyi öyrətməsini xahiş etdilər. Bir çoxlarımız da dua etməyi öyrənməkdə yardıma ehtiyacımız olduğunu hiss edirik. Nə üçün dua etmək sizin üçün çətindir?

**Matta 6:9-15-i oxuyun.**

1. İsa dua edərkən Allahı necə adlandırır (9-cu ayə)?

   İsa Allaha münasibətdə olduğu bir Kəs kimi dua etdi. O, həmişə Allahı "Ata" adlandırırdı.

   Əgər Allahın bizi həqiqətən sevən Səmavi Atamız olduğunu anlayırıqsa, biz dua edərkən bu imanımızı necə gücləndirəcək?

2. İsa Allahı "Ata" adlandırmaqla bu duanı yaxınlıqla başlayır. Növbəti sözlərində O, böyük ehtiram nümayiş etdirir. O, nə deyir (9-cu ayə)?

   > Musa peyğəmbər İsa Məsih doğulmamışdan 1500 il əvvəl Allahdan On Əmr almışdır. Tövrat kitabında tapılmış üçüncü əmr budur: **"Allahın Rəbbin adını boş yerə dilinə gətirmə, çünki Rəbb Öz adını boş yerə dilinə gətirəni cəzasız qoymaz" (Cıxış 20:7).**

   Sizin həyatınızda Allahın adı müqəddəs tutulurmu? Biz öz danışıq və davranışlarımızı necə dəyişə bilərik ki, Allahın adı həmişə hörmətli tutulsun?

3. Yenidən 10-cu ayəni oxuyun. Aşağıdakılarını oxumazdan əvvəl Allahın Padşahlığının yer üzünə gəlməsinin hansı məna verdiyini müzakirə edin.

   > **Biz Allahın Padşahlığının genişləndirilməsində iştirak edə bilərikmi?**
   >
   > Hər dəfə insan Allahı onun ürəyini idarə etməyə dəvət edəndə yer üzərində Allahın Padşahlığı genişlənir. Biz yer üzərində Allahın iradəsinin hakim olması üçün dua edəndə sadəcə dünyada dəyişiklik olması üçün dua etmirik, biz həmçinin Allahın öz həyatlarımızı dəyişməsini istədiyimizi etiraf edirik. Biz anlayırıq ki, əgər Allaha ürəklərimizdə hakim olmağa imkan verməsək, öz kiçik xudbin padşahlığımızın padşahları olacağıq. Amma biz

əslində padşahlar deyil, qullara çevrilirik. Biz heç bilmədən həyatımızın açarlarını Şeytana veririk. İnsan öz həyatını özü idarə etdiyini düşünəndə o, həqiqətən zülmətə və şərə onu idarə etməsi üçün qapı açır. Amma biz Allahın Padşahlığının gəlişi üçün dua edəndə Allahdan ürəklərimizi dəyişməsini və Onun yer üzərindəki məqsədləri üçün bizi itaətkar qullara çevirməsini xahiş edirik.

Yuxarıdakı grafayanı yenidən oxuyun və sonra təsəvvür edin ki, bu qrup tez-tez Allahın sizin, ailələrinizin və qonşularınızın həyatında öz Padşahlığının hakimiyyətini qurması üçün dua etsəydi nə baş verərdi, bu haqda fikirlərinizi müzakirə edin.

4. 11-ci ayəni yenidən oxuyun.Bəzi insanlar sanki Allah yox imiş kimi həyatlarını yaşayırlar. Onlar bütün problemlərini Allahsız həll etməyə çalışırlar. Allah istəyir ki, biz gündəlik ehtiyaclarımızı Ona deyək və Onun bizə yardım edəcəyinə inanaq. Bu həqiqəti bilmək sizi nə dərəcədə ruhlandırır? Bu haqda qrupda danışın.

5. İsa göylərə qalxandan çox illər sonra onun şagirdi Peter belə yazmışdı: **“Bütün qayğı yükünüzü Ona ötürün, çünki O sizin qayğınıza qalır” (1 Peter 5:7)**. Bu ayənin sizin üçün hansı mənanı daşıyır?

6. 12, 14-15-ci ayələri yenidən oxuyun.

   İsa burada bəzi çətin sözlər deyib. İnsanlar bağışlamanı çox çətin bir şey hesab edirlər. Hər bir kəs üçün həyatda bağışlamanın öyrənməli bir şey olduğunu hamımızın bilməsi vacibdir.

   Biz dua edib günahlarımızdan bağışlanmağımızı diləyəndə nə üçün İsa həmin zaman başqalarını da bağışlamağımızı istəyir?

   Qrup şəklində bir anlıq hər biriniz səssizcə düşünün: Mən bu gün kimi bağışlamalıyam?

7. 13-cü ayəni yenidən oxuyun. Nə üçün sınağa düşməmək üçün dua etmək vacibdir?

   İncildə öyrədilir ki, **“Allah məğrurlara qarşı durur, təvazökarlara isə lütf verir” (1 Peter 5:5).**

   Nə üçün sınağa qarşı Allahın köməyinə ehtiyacımız olduğunu səmimi bildirmək vacibdir?

8. Duanın son hissəsi təsdiq edir ki, Allahın Padşahlığı, qüdrəti və izzəti əbədidir (13-cü ayə).

   Həmin sözlər sizin Allaha imanınızı gücləndirirmi? Niyə?

Mündəricat

9. Bəzi insanlar bu duanın sözlərindən sanki **“uğur duası”** kimi istifadə edirlər. Onlar düşünürlər ki, həyatlarını qorumaq və xeyir-dualı olmaq üçün sadəcə bu sözləri deməkdə qüdrət vardır. Buna görə də, onlar sözləri tez deyir və mənası barədə düşünmürlər.

   İsa bizim bu duanı belə etməyimizi istəyirmi? Öz düşüncələrinizi izah edin.

10. Bu dua daha yaxşı dua etməyi öyrənməyimiz üçün bizi necə istiqamətləndirir?

   Dərsi dua ilə bitirəndə qrupunuz üçün bir nümunə olaraq Rəbbin duasından istifadə edin, lakin İsanın öyrətdiyi eyni fikirləri ifadə etmək üçün öz sözlərinizdən istifadə etməkdən çəkinməyin.

# 25. Daim Dua Edin Və Ruhdan Düşməyin

**Müzakirə üçün sual:**

Nə üçün imanımızın Allah üçün vacib olduğunu düşünürsünüz?

**Luka 18:1-8-i oxuyun.**

1. İsa bu məsəli nə üçün danışdı (1-ci ayə)?

   Siz dualarınıza tez cavab gəlmədiyini görəndə ruhdan düşməyə meyl edirsinizmi?

2. Bu hekayə hakim və dul qadın haqqındadır. İsa hakimi necə təsvir edir (2-ci ayə)?

3. Dul qadın hakimdən nə istəyir (3-cü)?

   İsanın dövründə dul qadınların heç bir gücü yox idi. Onlar asanlıqla pis insanlar tərəfindən aldadıla bilərdilər.

   Bu hekayədə gücsüz bir dul qadın nə insanların qayğısına qalan, nə də Allahdan qorxan hakimin yanına gəlir. Əgər siz bu gün belə bir şeyin baş verdiyini görsəniz, hakimin dul qadına yardım edəcəyinə ümidiniz olardımı?

4. İlk əvvəl hakim ona əhəmiyyət vermədi, amma axır ki, onun xahişini yerinə yetirdi. Niyə (4-5-ci ayələr)?

5. 6-8-ci ayələri yenidən oxuyun. İsa ədalətsiz hakimdən Allah barədə danışmağa keçid alır. Allah ədalətsiz hakimə bənzəyir, yoxsa ondan fərqlidir?

   Allah barədə bildiklərinizə əsasən, Onun ədalətsiz hakimdən nə ilə fərqləndiyini təsvir edin.

6. Kim Allahdan yardım istəyir (7-ci ayə)? Onlar tez-tez ondan yardım istəyirlər?

   Allah onlar üçün nə edəcək (8-ci ayə)? Onlara ədaləti nə gədər tez göstərəcək?

7. Bu məsəlin sonunda İsa sual verir. Bu hansı sualdır (8-ci ayə)?

   Sizcə, İsa nə üçün bu sualı verir?

8. 1-ci ayəyə qayıdın. İsanın bu məsəli danışmaqda məqsədi nə idi?

   Bu məsəl sizə daha çox əminliklə dua etməyə yardım edirmi?

9. **Dərsimizi bitirmək üçün İbranilərə 4:14-16-nı oxuyun.** Sonra sakitcə ayələr barədə düşünün və bu ayələrin sizin üçün hansı məna kəsb etdiyini qrupla bölüşün.

**Aşağıdakı sözləri yavaş-yavaş oxuyun və İsa Məsihdə Allahın bizə verdiyi böyük hədiyyə barədə düşünün*:***

İsaya öz xilaskarımız kimi iman edən bizlər bilirik ki, O, bizim rüsvayçılığımızı aradan qaldırıb və günaha görə qurban verdiyi həyatı vasitəsilə bizi Allahla barışdırıb. Dua edərkən bunu unutmayın. Heç kim saleh olduğuna görə Allaha gəlmir. Biz İsa Məsihin qurbanına inam vasitəsilə Allaha gələ bilərik. İndi Allahın bizi həqiqətən sevdiyinə və bizim dualarımızı eşitdiyinə güclü iman edərək dua edə bilirik. O, ədalətsiz hakim kimi **deyil**. O bizim əminlik və cəsarətlə dua etməyimizi istəyir, çünki O, çox yaxşıdır!

İndi siz qrupla birlikdə nə üçün dua etməlisiniz?

# 26. Allahı Tanımaq Üçün Vaxt Ayırın

**Müzakirə üçün sual:**

Haqqında dua etdiyin bəzi şeylər nədir?

**Luka 10:38-42-ni oxuyun.**

1. 38-ci ayəyə yenidən baxın. Marta nə etdi? Sizcə, qonaqpərvərlik kiməsə məhəbbət göstərməyin bir üsuludurmu?

   Onun bacısı Məryəm nə edirdi (39-cu ayə)?

2. 40-cı ayəni yenidən oxuyun. Martanın münasibəti necə idi? Marta nədən narahat idi?

   O İsaya nə dedi? Sizcə, bacısı Məryəmə qarşı necə hiss edirdi?

3. İndi 41-42-ci ayələri oxuyun. İsa Martanın çox şeylər haqda narahat olduğunu göstərir. Onun dediyi şeylərin neçəsi vacibdir?

   Vacib olan şey nədir?

   Sizcə, İsa üçün ən vacib olan hansı idi: Onun yemək üçün yaxşı xörəyi olması, yoxsa ac olan ürəklə əbədi həyat kəlamını bölüşməsi?

4. **Matta 5:6-nı oxuyun**. Salehlik üçün ac və susuz olmasını Məryəm necə göstərir? Bu ayəyə əsasən o nə əldə edəcək?

5. Bu iki qadından ən çox hansına oxşayırsınız? Həyatın bir çox tələbləri ilə özünüzü dilxor və fikri dağınıq hiss edirsiniz? Yoxsa, siz tez-tez başqa şeyləri qırağa qoyub İsa ilə vaxt keçirirsiniz? Siz Onunla danışmaq və Onun kəlamını öyrənmək üçün acmısınız?

6. İsa Özü, tez-tez Öz Atası ilə təklikdə duada vaxt keçirirdi. **Mark 1:35-39-u oxuyun.** İsa nə vaxt dua edirdi? Harada dua edirdi?

   Sizcə, nəyə görə o bu yeri və vaxtı seçdi? Allahla təklikdə vaxt keçirməyimiz üçün dünyanı özümüzə yaxın buraxmamağın yolunu tapmaq nə qədər vacibdir?

7. Kimlər İsanı axtarmaq üçün gəldilər (36-cı ayə)? Onlar ona nə dedilər (37-ci ayə)?

   İsa davamlı olaraq geniş izdihamla əhatə olunurdu. Sizcə Allahla təklikdə vaxt keçirmək üçün yol tapmaq Onun üçün asan idi?

8. Əgər siz böyük şəhərdə və ya çoxlu adam olan evdə yaşasanız, Allahla təklikdə olmaq üçün vaxt və yer tapmaq asan ola bilməz.

   Onunla olan vaxt üçün sizin qurban verməyiniz kifayət qədər vacibdirmi?

9. Müqəddəs Yazının digər yerlərində İsanın həm təklikdə, həm də Öz şagirdləri ilə dua etməsi haqda danışılır.

   **Luka 6:12-13-ü oxuyun**. 13-cü ayədə İsa işinin hansı vacib hissəsini etdi? Bu seçimləri etməzdən qabaq o nə etdi (12-ci ayə)?

   Vacib qərarlar verməzdən qabaq, siz Allahı təklikdə axtarmaq və onun müdrikliyini bilmək üçün vaxt təyin edirsiniz?

10. **Luka 5:15-16-nı oxuyun**. Nəyə görə çoxlu adam İsanın yanına axışıb gəlirdi?

    Təsəvvür edin, insanların ehtiyaclarına günbəgün xidmət etmək İsa üçün nə qədər yorucu olmalı idi. Özünə yenidən güc qaytarmaq üçün o nə edirdi (16-cı ayə)?

    Əgər günahsız olan İsanın Allahla təklikdə dua etməyə ehtiyacı var idisə, sizcə bizim də buna ehtiyacımız var?

11. Öz həyatınız haqda fikirləşin. Allahla təklikdə keçirilən vaxt sizin üçün nə qədər vacibdir? Sülhdə və sakitçilikdə dua etməyiniz onun kəlamı üzərində düşünə bilməyiniz üçün, vaxtaşırı televizoru və cib telefonunuzu söndürməyinizə ehtiyac var?

12. İsanın təlimlərini öyrəndikcə siz görəcəksiniz ki, İsa nə qədər və nə qədər tez dua etməyimizlə bağlı bizə qayda verməyib. Siz onun hüzuruna onu sevdiyiniz və onu tanımaq istədiyiniz üçün gəlirsiniz? Siz ona ehtiyac olduğuna görə onun hüzuruna gəlirsiniz? Siz onun üçün acsınız?

    Allahı yaxından tanıya bilməyinizə görə edəcəyiniz dəyişikliklər üçün dua etmək və onların üzərində düşünmək üçün vaxt ayırın.

# 27. İman Adamı Olun

## *İsanın Insanların Xəstəlikdən və Şeytanın Əsarətindən Azad Etməsinə Inanın*

**Müzakirə üçün sual:**

Siz heç kiminsə şəfa alması üçün dua etmisiniz? Yaxud elə bir yerdə olmusuz ki, orada başqaları kiminsə şəfa alması üçün dua etsinlər? Öz təcrübən haqqında danışın.

**Giriş:** İsa yer üzündə olanda, Onun xidmətinin mühüm hissəsi xəstələrə şəfa vermək və cinləri qovmaq idi. Cəld bu ayələri oxuyun: **Matta 4:23-25, Matta 10:1, Matta 10:5-8 və Matta 15:29-31.**

Bütün İncil boyu orada İsanın insanlara şəfa verməsi barədə çoxlu hekayələr var. Hər bir fərdin müxtəlif olduğu kimi hər bir hekayə də fərqlidir. Bu dərs Matta və Markın müjdəsində olan bir hadisəyə diqqət verəcək.

**Matta 17:14-21-i oxuyun.**

1. Kişinin oğlunun vəziyyətini təsvir et (15-ci ayə). Ata oğlunun şəfa tapması üçün nə etdi (16-cı ayə)? Oğul şəfa tapdı? Nə üçün tapmadı?
2. 17-ci ayəyə baxın. İsa camaatı necə adlandırdı? Sizcə, İsa onları nə üçün elə adlandırdı?
3. 18-ci ayədə İsa nə etdi?
4. 19-cu ayədə şagirdlər gizlincə İsadan nə üçün onların cini qova bilmədiklərini soruşdular. 20-ci ayədə İsanın cavabı nədir?

   Dağı yerindən tərpətmək üçün İsa nə qədər imanın gərək olduğunu deyir?
5. İndi 21-ci ayəyə baxın. (Bu ayə ola bilsin qeyd kimi verilir.) İsa cinə tutulmuş adamların bəzi vəziyyətlərində nəyin gərək olduğunu deyir?
6. **İndi eyni hekayəni Mark 9:17-29-da oxuyun.** Markın yazısı İsa və oğlanın atası arasında olan söhbəti də daxil edir.

   20-24-cü ayələri yenidən oxuyun. 22-ci ayədə atanın xahişi nədir? Sizcə, onun çoxlu imanı var?
7. İndi 23-cü ayədə İsanın cavabını oxuyun. İsanın buradakı sözləri Matta 17:20-də şagirdlərinə dediyi sözlərə bənzəyirmi? Necə bənzəyir? (Həmin ayəyə bir də baxın.)

8. Ata dərhal nə deyir (Mark 9:24-cü ayə)? Sizcə İsanın 23-cü ayədəki sözləri onun şübhədən əl çəkib inanmağa başlamasına necə kömək etdi?

9. 24-cü ayəni yenidən oxuyun və atanın köməyə ehtiyacı olduğunu təvazökarcasına necə etiraf etməsinə fikir verin.

   Həyatınızda elə vaxtlar olub ki, inanmaq istəmisiniz, amma şühbələrlə mübarizə aparmısınız? İsa kişini şübhələrinə görə məzəmmət etdi, yoxsa onun zəif olmasına baxmayaraq imanına ehtiram etdi (25-27-ci ayələr)?

   Biz bundan nə öyrənə bilərik?

10. 29-cu ayəyə aid olan qeyd də daxil olmaqla, 28-29-cu ayələri yenidən oxuyun. Bunu Matta 17-ci fəsildəki 21-ci ayə (qeyd) ilə müqayisə et.

    **İndi isə gəlin bu ayələrdən şəfa barədə öyrəndiklərimizi yenidən nəzərdən keçirək.**

    - Şəfa iman ilə necə əlaqəlidir? **(Həmçinin İbranilərə 11:6-nı oxuyun.)**
    - Allahın qeyri-mümkün şeyləri bizim vasitəmizlə etməsi üçün nə qədər iman gərəkdir **(Matta 17:20)?**
    - Sizcə, bəzi şəfalar nə üçün başqalarından daha çətin ola bilər? Əgər biz dərhal cavab görməsək, bizim duada mətanətli olmağımız və hətta oruc tutmağımız nə üçün vacibdir? **(Matta 17:21 (qeyd))**
    - Əgər bizim şübhəmiz varsa, biz nə etməliyik **(Mark 9:24)?**

    **Əgər biz insanlar üçün dua ediriksə və onlar şəfa almırlarsa, onda biz nə etməliyik?**

    Sadəcə kimsə şəfa tapmamışdır deyə, gəlin, biz xəstələr üçün dua etməkdən əl çəkməyək. Çünki bir çox xəstə insanlar dua vasitəsilə şəfa tapmışlar. Çoxlu sayda Müqəddəs Yazılar var ki, bizi xəstələrə və cinə tutulmuşlara görə dua etməyə ruhlandırır. Çox vaxt biz möcüzələri ona görə görmürük ki, sadəcə dua etmirik. Mark 9:24-dəki atanın etdiyi duanı edin. Sonra isə ehtiyacı olan insanların şəfası və xilas olması üçün imanla dua edin. Tez-tez İsanın Matta 17:20 və Mark 9:23-dəki sözlərini oxuyun.

    İmanlı cəmiyyət olaraq tez-tez bu ehtiyaclar üçün dua etməyə vaxt ayırın.

***“Sizsə hər şeydə – imanda, sözdə, bilikdə, hər cür cəhddə, sizə göstərdiyimiz məhəbbətdə zəngin olduğunuz kimi bu xeyriyyəçilikdə də zəngin olun.”***
***2 Kor. 8:7***

# VERİN

***Gördüyüm hər işdə Rəbb İsanın "vermək almaqdan daha çox bəxtiyarlıq gətirər" sözünü yaddan çıxarmayıb belə əmək sərf edərək zəiflərə kömək etməyin vacibliyini sizə göstərdim. (Həvarilərin İşləri 20:35)***

İsa bizə səhərki gün üçün narahat olmamağı öyrətmişdir. O, həmçinin ardıcıllarına əliaçıq olmalarını öyrətmişdir.

Əliaçıqlıqda böyük xeyir-dua vardır. İsa kimi verməyi öyrənən insanlar iki şeyi nümayiş etdirirlər. Birincisi, onlar həqiqətən başqa insanların qayğılarını çəkdiklərini göstərirlər. İkincisi, onlar sahib olduqları əşyalardan daha çox Allahı sevdiklərini və Ona etibar etdiklərini göstərirlər.

Biz Müqəddəs Ruhun bizə İsanın əliaçıqlıq barədə öyrətdiklərini yada salmasını gözləyə bilərik. O, bizi xilas etmək üçün pul deyil, ÖZ HƏYATINI VERƏNİN Özüdür. Allah bizdən İsanın yollarını öyrənməyimizi istəyir. O bizə Atanın kim olduğunu göstərdi. İndi isə, biz Onun övladlarıyıq.

İsa qayıdanda, övladlarının özlərinə xəzinə yığdıqlarını və öz gələcəkləri barədə düşündüklərini görəcəkmi? Yoxsa, onları səxavətli olub ehtiyac içində olanlara kömək etdiklərini görəcək? İsa bunu aydın etmişdir: bizim ağamız ya puldur, ya da Allah. Biz hər ikisinə xidmət edə bilmərik.

Lakin bu dərslər sadəcə puldan başqa şeylər haqqında da danışır. Növbəti dərslər bizə İsaya bənzəməyi öyrədəcək. Onun yolu bizi dəyişəcək. Biz hər gün Onda malik olduğumuz hər şeyi və bütün varlığımızı verməyi öyrənəcəyik.

# 28. Verərkən, Səxavətli Dul Qadını Yada Salın

**Müzakirə üçün sual:**

Bəzən biz fikirləşirik ki, əgər biz zəngin olsaq (misal üçün, əgər biz lotereya udsaq) onda biz səxavətli olacağıq. Əgər biz kasıb olanda səxavətli deyiliksə, sizcə biz zəngin olanda avtomatik olaraq səxavətli olacağıqmı? Düşüncələrinizi izah edin.

**Mark 12:41-44-ü oxuyun.**

1. Camaat öz ianələrini Məbədin xəzinəsinə qoyarkən kim onlara nəzarət edirdi (41-ci ayə)?
2. Kim çox pul verdi?
3. Kim ən az məbləği verdi (42-ci ayə)? (**Qeyd:** Bu pulun dəyəri bir qəpikdən belə ucuz idi.)
4. Sizcə, bu məbləğin məbədin saxlanılmasına əhəmiyyətli yardımı oldu?

   Bu kiçik məbləğ insanların gözlərində hörmət və izzət doğururmu? O gün verilən hansı ianələr insanların diqqətini daha çox cəlb edirdi?
5. İsa gördüklərini göstərmək üçün kimi yanına çağırdı (43-cü ayə)?
6. İsaya görə, o gün ən böyük ianəni kim verdi (43-44cü ayələr)? Nə üçün?
7. Bu ayədə İsa bizə ən son qəpiyimizi verməyi öyrədir? İsa imanlısı olaraq, biz Ona verdiyimiz pulun məbləğinə görə Allah tərəfindən qəbul edilmişik?

   ***Yadda saxlayın....***

   Əhdi-Cədid öyrədir ki, heç kim öz xilasını pul ilə ala bilməz. Biz Allaha rüşvət verə bilmərik. Bizim hər birimiz Onun xilası olmadan azmış oluruq. Biz Allahın könüllü olaraq verdiyi mərhəmət hədiyyəsini və əbədi həyatı tövbə və İsa Məsihə iman vasitəsi ilə əldə edirik. O Allahın Quzusudur, bizim günahlarımıza görə əbədi qurbandır.

   Əgər biz öz xilasımızı ala bilmiriksə, onda bu hadisədə İsa Öz şagirdlərinə nəyi öyrətməyə çalışır?

   Sizcə, əgər hədiyyəni vermək üçün qurban etməliyiksə, onda onun dəyəri daha çox olurmu?
8. Allah bəşəriyyəti heç bir pul olmadan yaratmışdır, buna görə də milyon manat Allahda heç bir təəssürat yaratmır. Allahın Onun ardınca

gedənlərdən nə istədiyini kəşf etmək üçün **Mark 12:30-cu ayəyə baxın**.

Allahı bütün qəlbimizlə sevməyimizi göstərmək üçün səxavətlə verməyin yollarından biri hansıdır?

9. Bütöv ürəkdən vermək haqda olan digər nümunələri də oxumaq üçün, **2-ci Korinflilərə 8:1-15-i ayələri oxuyun.** Makedoniyalılar verəndə onların vəziyyətləri necə idi (2-ci ayə)?
10. Onlar verəndə hansı hissləri keçirirdilər (2-ci ayə)? 3-cü ayə onların nə qədər və necə verdikləri barədə nə deyir?

    Bu cür vermək Allahın onların qayğısına qalmasına nə qədər etibar etdiklərini necə göstərir?
11. 4-cü ayəni yenidən oxuyun. Ehtiyacı olan imanlılara yardım etmək üçün onların düşüncə tərzləri necə idi?
12. Onlar puldan savayı başqa nə verirdilər (5-ci ayə)? Hədiyyələrinlə birlikdə **"özünü də həsr etmək"** sizcə nə deməkdir?
13. Elə təsəvvür edin ki, siz bu hədiyyəni alan imanlılardan birisiniz. Bunun necə verilməsini eşitdikdən sonra siz özünüzü necə hiss edərdiniz? Bu cür hədiyyə verənlərin və qəbul edənlərin ürəklərini necə birləşdirə bilər?
14. Öz verdiyinizi həmin o dul qadın və Makedoniyalı ilə müqayisə edin. Siz səxavətlə və sevinclə verirsinizmi? Sizə lazım olan məbləğdən artıq olub-olmamasından asılı olmayaraq siz verirsinizmi?
15. Siz yalnız pul verirsiniz, yoxsa hədiyyə ilə birlikdə özünüzü də verirsiniz? Siz verdiyiniz insanlar, yaxud layihələr üçün dua edirsinizmi? Sizcə, bu, Məsihin Bədənində sevgi ruhunun və bir-birinin qayğısına qalmağın həvəsləndirilməsinə necə kömək edə bilər?

    Vermək sahəsində böyüməyiniz üçün Allahdan yardım diləyin. Allaha və başqalarına qarşı açıq əl və açıq ürəyin olmasından gələn azadlığın sevincini yaşamağa bu gün başlayın.

**Vermək haqqında əzbərləmək üçün yaxşı olan bir neçə ayələr:**

"Bunu unutmayın: az əkən az, bol-bol əkən bol-bol biçəcək. Könülsüz yaxud məcburi yox, hər kəs ürəyinin niyyətinə görə pay versin. Çünki Allah sevinə-sevinə pay verən adamı sevir. Allah sizə hər bir neməti bol-bol verə bilər. Belə ki hər bir şeyə həmişə, hərtərəfli, kifayət qədər sahib olmaqla hər yaxşı əməl üçün bol-bol imkanınız olsun." 2 Korinflilərə 9:6-8.

# 29. Allahı Sevin, Pulu Deyil

**Müzakirə üçün sual:**

İsa deyib, "vermək almaqdan daha çox bəxtiyarlıq gətirər." (Həv.İş. 20:35) Siz buna inanırsınız? Nə üçün inanırsınız, nə üçün inanmırsınız?

**Mark 10:17-31-i oxuyun.**

1. 17-ci ayəni yenidən oxuyun. Adam İsadan hansı sualı soruşdu? Bu adamın İsaya ***necə*** yaxınlaşmasına fikir verin. Sizcə, bu nəyi göstərir?

2. 18-20-ci ayələri oxuyun. Adam İsanı **"yaxşı"** adlandıranda onun nə nəzərdə tutduğunu İsa necə qeyd edir?

   Sonra İsa Əhdi-Ətiqdə Musaya verilən bir neçə əmri sadalayır. Bunlar bütün əmrlər deyil, amma Onun haqqında danışdığı misallardır. Adamın buna cavabı nədir?

3. İndi isə 21-ci ayəni oxuyun İsa ona qarşı nə hiss edirdi? Əgər bu adam uşaq vaxtından bütün əmrlərə əməl etmişsə, onun başqa bir şeyə nə üçün ehtiyacı var idi?

   İsa nə üçün ona hər şeyini satıb kasıblara paylamalı olduğunu söylədi? Əgər biz əbədi həyatı ala bilmiriksə, və əgər o Allahın əvəzsiz hədiyyəsidirsə, onda bunun mənası nədir?

4. İsa həmin adamın hər şeyini satıb paylasaydı nəyə malik olacağını dedi (21-ci ayə)? 21-ci ayədə İsa ona daha nə dedi ki, o etsin?

   Adam İsanın sözlərinə necə cavab verdi? (22-ci ayəni oxuyun.)

5. **Matta 6-cı fəsli açın və 19-21-ci ayələri oxuyun**. Əgər həmin adamın xəzinəsi Səmada olsaydı, onun ürəyi harada olardı? Əgər onun ürəyi Səmada olsaydı, onun üçün öz dünyəvi var-dövlətindən keçmək çətin olardımı? Sizcə, bu adamın ürəyi harada idi?

6. Bir daha Mark 10:23-27-ci ayələrdəki İsanın Öz şagirdləri ilə söhbətini oxuyun. Sizin fikrinizcə, İsa nəyə görə varlının Allahın Səltənətinə daxil olmasının çətin olduğunu söyləyir (23-cü ayə)?

7. İsa 24 və 25-ci ayələrdə çox güclü fikir söyləmək üçün şişirtmədən istifadə edir. Əgər sizin Müqəddəs Kitabda 24-cü ayəyə aid səhifənin aşağısında qeyd varsa, onu da oxuyun.

   İndi isə Onun sözlərini aydın başa düşmək üçün Matta 6:24-cü ayəni oxuyun. Çox vaxt çoxlu pula malik olmaq insanları tam ürəklə Allaha xidmət etməkdən necə saxlayır?

8. Yenidən Mark 10:26-27-ci ayələrə baxın. Şagirdlər ruhdan düşüblər. Güman ki, onlar düşünürlər ki, zənginlər və vacib şəxslər xilas ola bilməzlərsə, ola bilər ki, ümumiyyətlə heç kim xilas olmasın.

   İsa onlara 27-ci ayədə nə cavab verir? Bizlərdən bir kimsə varlı və ya kasıb olsa, özümüzü xilas edə bilərikmi?

9. Sizcə, bir şəxsin həm kasıb olması, eyni vaxtda Allaha deyil, pula xidmət etməsi mümkündürmü?

   **1-ci Timotey 6:6-10-u oxuyun.** 6-cı ayəyə görə **“böyük qazanc”** nədir? Zəngin olmaq istəyənlərə nə baş verir (9-cu ayə)?

10. 10-cu ayəyə görə hər cür pisliyin kökündə nə dayanır? Bu o deməkdirmi ki, pulun olmağı pisdir? Problem puldadır, yoxsa həmin pula sahib olan və ya pulun olmasını istəyən şəxsin ürəyində?

> **Qeyd:** Biz ehtiyatlı olmalıyıq ki, başqalarını mühakimə etməyək. Kiminsə çox pulunun olması o demək deyil ki, həmin adam öz pulunu sevir və ya ona etibar edir. Həm də hansısa adamın kasıb olması o demək deyil ki, o pula sevgisindən azaddır. Bizim hər birimiz Allahdan xahiş etməliyik ki, bizim ürəklərimizi yoxlasın və Onu birinci yerə qoyub-qoymamağımızı, Onu sevib-sevməməyimizi bizə göstərsin.

11. **Filipililərə 4:10-13 açın.** 12-ci ayədə Həvari Paulun dediyinə görə o hansı sirri öyrənmişdi? Belə yaşamaq üçün gücü o haradan tapmışdı (13-cü ayə)?

12. Mark 10-cu fəsli açın və 28-31-ci ayələri oxuyun. Peter İsaya nə deyir?

    Onların qurban verdiklərinin əvəzində əldə edəcəkləri haqda İsa Peterə nə deyir?

13. Siz bu Müqəddəs Yazıları öyrəndikcə öz həyatınız haqda Allah sizin ürəyinizə nəsə danışdımı? Sizin həyatınız pula sevgidən azaddırmı? Hər cür vəziyyətdə məmnun qalmağın sirrini bilirsinizmi?

14. İsa zəngin adama söylədi ki, malik olduğu hər şeyi satıb paylasın. Sizin fikrinizcə, vermək bizim həyatlarımızı pula sevgidən necə azad saxlaya bilər?

    Allah sizə nə etməyi göstərir?

    İndi bu haqda dua etməyə vaxt ayırın.

Əzbərləmək üçün bir neçə yaxşı ayələr:

Heyatınız pulpərəstlikdən azad olsun, nəyiniz varsa, ona qane olun. Çünki Allah Özü demişdir: “Səni heç vaxt atmaram, səni heç vaxt tərk etmərəm.” Buna görə biz arxayınlıqla deyirik: “Rəbb mənə yardım edəndir, heç qorxmaram. İnsan mənə nə edə bilər?”

İbranilərə 13:5-6

Mündəricat

Mündəricat

# 30. Özünüz Üçün Göylərdə Xəzinə Toplayın

**Müzakirə üçün sual:**

Siz özünüz və ailəniz üçün necə təmin edəcəyiniz haqda heç gələcəyə görə narahat olursunuzmu? Buna görə narahat olmağınızı dayandırmağa nə kömək edə bilər?

**Luka 12:13-34-i oxuyun.**

1. İzdiham içərisində olan kişi İsadan nə xahiş etdi (13-cü ayə)? İsa onun xahişini yerine yetirdimi (14-cü ayə)
2. 15-ci ayədə İsa bir şey haqqında ciddi xəbərdarlıq etdi. Bu nə idi? İsanın sözlərinə görə, bizim həyatımız nədən ibarət olmamalıdır (15-ci ayə)?

   Həyatımmızda tamahkarlığın olub-olmadığını necə bilə bilərik? Mümkündürmü ki, tamahkarlıq bizi idarə etsin, amma biz bunu görməyək?
3. İsa varlı adam haqqında məsəl danışdı. Varlı adamın planı nə idi (16-19-cu ayə)? Allah nə dedi – o adam ilə nə baş verəcək? (20-ci ayə)

**Düşünün:**

Varlı adam düşünürdü ki, Allah ona xeyir dua verib ki, o yalnız özünə xidmət etsin. O heç fikirləşmirdi ki, bəlkə Allah onun məhsuluna ona görə xeyir-dua verib ki, o heç nəyi olmayanlara kömək etsin. Bu adam Allahın ona verdiklərini yalnız özü üçün istifadə edirdi.

Allah Əhdi-Ətiqdə yəhudilərə öyrədib ki, onlar öz yeməklərini aclarla bölüşdürsünlər, qəriblərə sığınacaq versinlər və çılpaqları geyindirsinlər (Yeşaya 58:6-7). Sizcə, bu varlı adam bu əmri niyə unutmuşdu? O öz ürəyini tamahkarlıqdan qoruyurdumu?

Allah sizə daha çox xeyir-dua verdiyi zaman bunu nə üçün etdiyini Ondan soruşmusunuzmu?

4. 21-ci ayədə İsa başqa bir xəbərdarlıq edir. Bu ayəni öz sözlərinizlə deyin. Bu ölkədə imanlıların başqaları ilə Allahın xeyir-dualarını bölüşməklə Onun məhəbbətini necə göstərdiyini müzakirə edin.
5. 22-34-ci ayələri yenidən oxuyun. İsanın sözlərinə görə, kim geyim, yemək və içmək üçün qayğı çəkir (30-cu ayə)? Niyə İsanın davamçıları bu şeylər üçün narahat olmamalıdır ( 27-28-ci ayə)? O narahat olan davamçılarını nece adlandırır (28-ci ayə)?

6. 32-ci ayədə İsa davamçılarını necə adlandırır? Sizcə, O niyə bu sözdən istifadə edir? Allah bizə lazım olan şeyləri bizə verəndə bu Onu narahat edirmi (32-ci ayə)?
7. İsa deyib ki, biz özümüzə xəzinə hazırlamalıyıq. Necə xəzinə (33-cü ayə)?

   Sonra o dedi ki, əgər bizim xəzinəmiz göylərdə olsa, iki şey ona toxuna bilməyəcək. Bu iki şey nədir?

   İsa bizə praktiki olaraq nə isə etməyi tapşırıb. Biz göylərdə özümüz üçün xəzinəni necə toplaya bilərik (33-cü ayə)?
8. 34-cü ayəni yenidən oxuyun. Onun mənasını öz sözlərinizlə izah edin.
9. Hərdənbir öz gələcəyiniz üçün narahat olursunuzmu…görəsən sizinlə nə olacaq? Bu ayələr sizə Allah barədə və Onun sizin qayğınıza qalması haqqında nə öyrədir?
10. Öz həyatınız haqqında düşünün. Siz **"Allah qarşısında varlı"** olmaq istəyirsinizmi? Göylərdə xəzinə toplamağa necə başlaya bilərsiniz?

    Allahın gözlərində varlı olmaq haqqında dua edin.

***“Ey Allah, məndə təmiz ürək yarat,***
***Daxilimə yenidən sədaqət ruhunu ver.”***
***Məzmur 51***

# ALLAHA TƏMİZ ÜRƏKLƏ XİDMƏT EDİN

***"Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək." (Matta 5:8)***

Fariseylər, həmin dövrün dini rəhbərləri, İsaya nifrət edirdilər, çünki İsa onların riyakarlığını üzə çıxarmışdı. Onlar insanları aldatmaq üçün dini maska geyinmişdilər, lakin ürəkləri təmiz deyildi. Onlar Allahı tanıdıqlarını iddia edirdilər, lakin Allahın həqiqətən nə istədiyini bilmirdilər.

Əgər biz Allahın ürəyə baxdığını anlamasaq, fariseylərə bənzəyəcəyik. İsanın ardınca getmək zahiri dini hərəkətlər etmək deyildir. Bu bizim daxilimizdən başlayır. Bizim fikirlərimizdə hər gün nə baş verir? Biz ehtiraslarımıza, qəzəbimizə və ya nifrətimizə, paxıllıq və ya tamahkarlığımıza görə yaşayırıqmı? İnsanların diqqət mərkəzində olmağı və bizi tərifləmələrini istəyirikmi? Biz insanlardan ehtiyaclarımıza xidmət etmək üçün istifadə edirikmi? Pul bizim gizlin bütümüzdürmü? Biz daim nə haqqında düşünürük?

Biz qəlbdən necə təmiz ola bilərik? Allaha İsa Məsih barədə Xoş xəbərə görə şükür olsun. O bizim günahlarımızı bağışlayır. O, bizə Müqəddəs Ruh verir. O bizə Öz yollarını öyrədir. Onun lütfündə yaşayarkən, hər gün yeni bir gün olur. Biz Onun kimi sevməyi öyrənirik. Beləliklə, biz dünyanın ***"duzu və nuru"*** oluruq. Biz hər bir vəziyyətdə Allahın məhəbbətini və gözəlliyini gətiririk.

Növbəti dərslər müqəddəsliyə doğru yolda bizə kömək edəcək.

# 31. Ürəkdə Təmiz Olun

## *Allah Qarşısında Insanı Murdar Edən Nədir?*

**Müzakirə üçün sual:**

Sizcə insanı nə korlaya, ya da murdar edə bilər?

**Mark 7:1-23-ü oxuyun.**

> **Qeyd:** İsanın vaxtında fariseylər dini liderlər idilər. Onlar Musanın qanununa və başqa qanunlara ciddi əməl edirdilər və cəmiyyətdə yüksək hörmətə malik idilər. Amma, İsa onların özünü göstərməyini, həqiqətdə onların ürəyində nəyin olduğunu görürdü.

1. 1-5-ci ayələri yenidən oxuyun. Fariseylər nəyə görə incimişdilər? Sizcə, nəyə görə bu onları incitdi?

> **Qeyd:** Çirki təmizləmək üçün fariseylər normal əl yumaq qaydasından danışmırdılar. O günlərdə onlar bakteriya haqda heç nə bilmirdilər! Onlar ənənə haqda – onları dini tərzdə "təmiz" edəcək dini bir qayda haqda danışırdılar.

6-cı ayədə İsa fariseyləri nə adlandırır?

Sizcə, O nəyə görə onları belə adlandırır?

2. 9-13-cü ayələri yenidən oxuyun. Bu ayələrdə İsa fariseylərin öz dini ənənələrini Allahın əmrindən üstün tutması ilə bağlı nümunə göstərir. Musa (On Əmrdə) insanlara nə etməyi əmr etdi ?

   Onların ənənələri insanları öz valideynlərini həqiqətən sevməyi və onlara hörmət etməyə necə mane olur?

3. 14-20-ci ayələri yenidən oxuyun. Yəhudi liderlər üçün təmiz olmaq, Musanın qanununun qadağan etdiyi şeyləri yeməmək, ya da onlara toxunmamaq demək idi. Həmçinin qanunun tələb etdiyi bütün qaydalara riayət etmək demək idi. Bu ayələrdə, İsa onlara təmiz və natəmizliklə bağlı tamamilə yeni bir düşüncə tərzini verir.

   15-ci və 18-19-cu ayələrə baxın. İsa nəyin insanı natəmiz etmədiyini deyir?

   İsanın sözünə əsasən, insanı natəmiz edən şeylər hardan gəlir?

4. 21-23-cü ayələri oxuyun. Bu ayələrdə yazılan şeylərin hansı ürəkdəki davranış haqdadır? Hansıları hərəkətdir? BÜTÜN şər hardan başlayır?

   Gəlin, İsanın günah və ürəkdəki davranış haqda danışdığı bəzi başqa ayələrə baxaq.

5. **Matta 5:21-22-ni oxuyun.** İnsanlara xeyli əvvəl nə deyilmişdi? (Yəni Musanın qanununda nə deyilir?) İsanın dediyinə görə qatillik kimi pis bir şey nədir?

   Bir dəqiqə bu haqda fikirləşin. Nəyə görə qəzəb və acı sözlər qatillik kimi pis bir şeydir?

6. **Matta 5:27-28-i oxuyun.** Qanun nə deyir (27-ci ayə)? İsa zinanın nə olduğu haqda nə deyir (28-ci ayə)?

7. İsa sadəcə görünən hərəkətlərin deyil, hətta sözlərin də günah olduğunu öyrətdi. Bu həmçinin bizim pis fikirlərimiz, ürəklərimizdəki davranışımız və məqsədimizdir. Əslində bunlar həmişə bizim ürəklərimizdə başlayır. Bəlkə siz heç adam öldürməmisiniz, amma kiməsə nifrət eləmisiniz? Bəlkə siz heç vaxt heç nə oğurlamamısınız, amma kiminsə malik olduğu bir şeyə paxıllıq edib və ya göz dikmisiniz?

8. **Mark 7:21-23-cü yenidən oxuyun.** Allahın sizin ürəyinizi araşdırmasını və orda gizlənə bilən hər hansı bir pis davranışı sizə göstərməsini xahiş edin. Bunları Ona etiraf edin və sizi daxildən və xaricdən təmizləyib saf etməsini Ondan xahiş edin.

# 32. Fariseylərin Mayasından Ehtiyatlı Olun

**Müzakirə üçün sual:**

Siz ikiüzlülüyə necə tərif verərdin? Siz ikiüzlü adama hörmət edə bilərsinizmi?

**Luka 12:1-3-ü oxuyun.**

1. İsa nəyin **"Fariseylərin mayası"** olduğunu deyir?

> **Qeyd:** Fariseylər İsanın dövründə dini rəhbərlər idilər. Onlar yəhudilərin qaydalarını saxlamaqda ciddi idilər və ictimaiyyət təfərindən çox yüksək dərəcədə hörmət edilirdilər. Amma İsada onlara deyiləsi çox güclü sözlər var idi. Çünki O onların qəlblərində həqiqətən nəyin olduğunu bilirdi.
>
> Maya tez-tez Müqəddəs Kitabda simvol kimi istifadə edilir. Bəzən bu nəsə yaxşı bir şeyin simvoludur və bəzən isə pis bir şeyin. Buna baxmayaraq, bu az miqdarda olan bir şeyin böyük bir nəticə verə biləcəyinin təcəssümüdür. Balaca qaşıq dolu bir mayanın böyük çəkidə xəmiri necə daha da böyük etməsini yada salın.

İkiüzlülüyün cəmiyyətdə və ya toplantıda maya kimi necə hərəkət edə biləcəyi haqqında nə düşünürsünüz?

2. İsa 2-3-cü ayələrdə ikiüzlülərə qorxulu xəbərdarlıq edir. Bu xəbərdarlıqları yenidən oxuyun. Sizcə, bu xəbərdarlıqlar ikiüzlülər üçün nəyə görə qorxulu olmalıdır?

**Matta 23-ün hamısını diqqətlə oxuyun.**

3. İsa bu məzəmməti dedikcə, Onun Öz qəlbində nə hiss keçirdiyi barədə nə fikirləşirsiniz?

4. 2-3-cü ayələri yenidən oxuyun. Sizcə nə üçün başqalarına nəyi etməyi öyrətdiyimizi özümüzün də etməyimiz belə mühümdür? İnsanlar daha çox hansının ardınca gedirlər – bizim öyrətdiklərimizin, yoxsa bizim öz nümunəmizin?

   Əgər bildiklərimizə əsasən yaşamırıqsa, Müqəddəs Kitab barədə çox bilmək nə qədər dəyərlidir?

5. 5-ci ayədə İsa bizə Fariseylərin hər bir hərəkətlərinin arxasında olan məqsədlər barədə deyir. O nə idi?

   Indi öz həyatınız barədə düşünün. Elə şeylər varmı ki, siz onların **"insanlar tərəfindən görünülməsi"** üçün edirsiniz? Həyatınızın nə

qədər hissəsi başqalarının siz barədə nə fikirləşəcəkləri haqqındakı qorxu ilə idarə olunur?

6. Fariseylər insanların onlara ehtiram etmələrini ona görə istəyirdilər ki, onlar bilikli və nöqsansız idilər və onlarda səlahiyyət var idi. 8-12-ci ayələrə baxın. İsanın bu sözləri bizim mühüm görünmə istəyimizə üstün gəlməkdə necə kömək edə bilər? Onlar bizim Allahın ailəsində bərabər görünməyimiz ilə kifayətlənməyimizə necə yardım edə bilər?

7. 23-24-cü ayələri yenidən oxuyun. Özünüz və cəmiyyətiniz (toplantınız) barədə düşünün. Sizcə, hansısa daha kiçik işlərdə ədalətə, mərhəmətə və sadiqliyə siz etinasız yanaşırsınızmı? Başqa sözlə desək, bir-birinizi sevmək və qayğısına qalmaq sizin üçün dini qanunlara əməl etməkdən daha mühümdür?

8. 27-28-ci ayələri yenidən oxuyun. Fariseylər ikiüzlülüyü və pisliyi yaxşı xarici görünüş ilə gizlədirdilər. Fariseylərin mayasından qorunmaq üçün hansı praktiki yollar vardır?

9. **Yəhyanın 1-ci məktubu 1: 5-10-cu ayələrə baxın. “Nurda gəzmək”** və günahlarımızı Allaha və başqalarına etiraf etmək bizi daxilən və xaricən necə təmiz saxlaya bilər?

10. Matta 23-cü fəslə qayıdın. 29-cu ayədən axıra qədər baxsaq görərik ki, İsa fariseyləri peyğəmbərləri öldürdüklərinə görə məzəmmət edir. Peyğəm-bərlər Allahın xalqına düzəlişlər etmək üçün göndərilmişdilər və onların sözlərini qəbul etmək çox vaxt acı olurdu – onların qüruruna və ad-sanına toxunurdu.

    Fariseylərin peyğəmbərləri öldürmələrinin nəticəsi nə olacaqdı? (35-ci ayə)

    Bugün bizim üçün imanlı qardaş və bacılar vasitəsi ilə düzəliş sözlərini qəbul etməyimiz çox mühümdürmü? Nə üçün?

11. 37-39-cu aləyəri oxuyun. İsanın öz xalqı üçün ürəkdən olan ən dərin arzusu nə idi?

    İsanın bu son sözləri həyatındakı bütün ikiüzlülükdən əl çəkməyinizə sizi necə həvəsləndirir?

12. Allaha dua edin və Ondan sizin qəlbinizi yoxlamağı və orada gizlənən ikiüzlülüyü göstərməyi diləyin. Onu Allaha etiraf edin və Ondan sizi təmizləməsini istəyin. Sonra Müqəddəs Ruhdan sizi yenidən doldurmasını, Allah və başqaları önündə təmiz həyat yaşamaq üçün sizə qüvvət verməyini istəyin.

    **“Ey Allah, məni yoxla, qəlbimi öyrən, Sən məni sınaqdan keçirib bütün fikirlərimi bil. Gör qəlbimdə pisliyə yol verirəmmi? Əbədi yolda mənə rəhbər ol!” Məzmur 139:23-24**

Mündəricat

# 33. Öz Çarmıxınızı Götürüb İsanın Ardınca Gəlin

## *İsanın Ardıcılı Olmağın*
## *Nəyin Bahasına Başa Gələcəyini Düşünün*

**Müzakirə üçün sual:**

Siz heç kiminsə **"əgər həyatınızı İsaya versəniz, hər şey asan olacaq və sizin daha heç probleminiz olmayacaq"** dediyini eşitmisinizmi? Siz bunun doğru olmasına inanırsınızmı? Öz cavabınızı izah edin.

Gəlin İsanın şagirdi olmaq haqda Onun Özünün nə deməsinə nəzər yetirək.

**Luka 14:25-35-i oxuyun.**

1. 25-ci ayəni yenidən oxuyun. Böyük bir kütlənin İsanın ardınca getməsini təsəvvür edin. Bir çox müəllimlər insan kütləsinin onların ardınca gəlməsinə çox sevinərdilər. Amma İsa insanları həvəsdən sala bilən sözlər deyir. (Bir daha 26 və 27-ci ayələri oxuyun.) O nə deyir?

   Sizin fikrinizcə, İsa insaların bəzisinin Onun nə verə bilməsinə görə Onun ardınca getməsini bilirdi? Cavabınızı izah edin.

2. 26-cı ayəni yenidən oxuyun. Əgər bu ayəyə aid səhifənin aşağısında hansısa qeyd varsa, onu da oxuyun. Orijinal dildə belə deyilir ki, **"əgər bir kimsə öz atasına və ya anasına nifrət etmirsə..."** Aydındır ki, Allah bizim öz valideynlərimizə nifrət etməyimizi istəmir. Hamımız bilirik ki, başqa yerlərdə Musa kimi İsa da bizə öz valideynlərimizə hörmət etməyi öyrədir. O həm də başqalarını sevməyi də öyrədir. İsa burada **"nifrət"** sözünü istifadə etməklə, sizin fikrinizcə, O nə demək istəyir?

3. Bu ayədə adı çəkilən hər bir kəsi sadalayın. Bu şəxslər adətən bizə ən yaxın olan və bizim ən çox sevdiyimiz insanlardır. İsa bizim həyatlarımızda nə üçün birinci, hətta bizə ən yaxın olanlardan belə üstün olmalıdır?

4. Bəzən elə hiss edirsinizmi ki, ailə üzvlərinizin deyə və ya edə biləcəklərindən qorxaraq İsanın ardınca bütün ürəyinizlə getməkdən çəkinirsiniz? Yaxud da ola bilər ki, bu sizin üçün onlardan ayrılmaq demək olduğu üçün qorxursunuz? Bəs bu haqda İsa Özü sizə nə deyərdi?

5. 27-ci ayəni yenidən oxuyun. İsanın dövründə **"çarmıxı daşımaq"** sözlərinin dəhşət yaradan mənası vardı. Bu kiminsə ölümə getməsi demək idi. İsa Öz ardıcıllarına deyir ki, onlar GÜNDƏLİK olaraq Onun ardınca gedərək çarmıx daşımalıdırlar.

Sizcə, birinci əsrdə yaşayan İsanın ardıcılları belə ağır sözləri ilk dəfə eşidəndə nə hiss edirdilər? Bunları oxuduqca siz nə hiss edirsiniz?

6. 26-cı ayəyə yenidən baxın. Bizim **“nifrət”** etməli olduğumuz, başqa sözlə desək, İsaya olan məhəbbətimizdən aşağı tutmalı olduğumuz ən son şey nədir? Bunun sizin üçün nə mənası vardır?

   Əsrlər boyu öz həyatlarını İsa naminə qurban verən şəhidləri yada salın. Əsl şagirdliyin nümunəsi kimi onlar bizim üçün hansı rolu oynamışlar?

7. **Matta 16:24-26-cı ayələri açın. “Özünü inkar”** ifadəsi ilə “**öz həyatına nifrət”** ifadəsi arasında bənzərlik varmı?

8. Öz həyatını xilas etməyə çalışan insanın İsanın dediyinə görə aqibəti necə olacaq? Öz həyatını İsa naminə itirən şəxsin aqibəti necə olacaq? Sizcə, bunlardan hansı daha müdrik yoldur?

9. İndi isə Luka 14:28-35-ci ayələrə nəzər yetirin. İsa nəyisə başlamazdan əvvəl onun dəyərini hesablayan iki dünyəvi insan nümunəsini göstərir. Bu iki nümunə hansılardır?

   Biz İsanın ardıcılı olmaq istəyiriksə, hansı şəkildə onlar kimi olmalıyıq?

10. 33-cü ayəni yenidən oxuyun. İsanın şagirdi olmağının dəyəri nədir?

    Siz həmin dəyəri ödəməyə razısınızmı?

11. Heç də bütün insanlar İsanın yolunda şəhid olmağa çağırılmayıblar, amma bizim hamımız çarmıx daşımağa çağırılmışıq. İsa naminə bizim hamımız həyatlarımızı itirməyə çağırılmışıq. Bunun bizim əksəriyyətimiz üçün nə demək olduğunu söyləyə bilərsinizmi?

    Dua edib Allahdan xahiş edin ki, Ondan nəyisə gizlədib-gizlətməməyinizi açıb sizə göstərsin. Sonra isə onların hamısını Ona təslim edin. Onun şagirdi olmaqdan gələn əsl həyatı və sevinci tapın.

# 34. Ataya Ruhda Və Həqiqətdə İbadət Edin

**Müzakirə üçün sual:**

Allahın hüzurunu hiss etdiyiniz toplantı və ya təklikdə etdiyiniz ibadət vaxtı barədə düşünün. Həmin vaxt haqqında, YA DA Allaha ibadət etməkdən ən çox necə zövq aldığınız barədə danışın.

**Yəhya 4:1-26-nı oxuyun.**

1. 7-12-ci ayələri yenidən oxuyun. Qadın yəhudinin samariyalı qadından necə su istədiyini soruşduqdan sonra İsa ona çox vacib bir şey söylədi. O nə idi (10-cu ayə)?
2. Sonra O, nə demək istədiyini daha dolğun şəkildə izah edir. 13 və 14-cü ayələrə diqqətlə nəzər salın. Sizcə İsa bununla nə demək istəyirdi?

   Samariyalı qadın Onun nə demək istədiyini düşündü (15-ci ayə)?
3. 15-ci ayədə samariyalı qadının cavabı kimi biz də bəzən həyatlarımızın daha asan olması üçün İsanın ardınca gedirikmi? Biz bunu edəndə İsanın bizə vermək istədiyi ruhani həyatı əldən necə buraxırıq?
4. 16-18-ci ayələri yenidən oxuyun. İsa qadının həyatında olan daha böyük ehtiyaclardan danışmağa başlayır. O nə idi?
5. İsa qadının həyatında olan gizli şeyləri aşkar edəndən sonra o öz günahlı həyatı barədə danışmaq istəyirdimi (19-20-ci ayələr)? Qadın söhbəti dəyişdirəndə o, nə haqqında danışmaq istəyirdi?

   20-ci ayəni yenidən diqqətlə oxuyun. İbadətdə ən vacib olan şey barəsində bu qadının əsas düşüncəsi nə idi?
6. İsanın cavabı (21-ci ayə) qadının düşüncəsində olan səhvi necə göstərir?
7. İsa izah edir ki, samariyalılar həqiqətən nəyə ibadət etdiklərini bilmirlər (22-ci ayə). Dünyada bir çox insanların məlumatsızlıqda yaşayaraq ibadət etdikləri üsulları göstərə bilərsinizmi? Onlar ayinlər, mərasimlər vasitəsilə Allahı necə tapmağa çalışırlar?
8. İsa izah edir ki, yəhudi ibadəti fərqlidir (22-ci ayə). Diqqət yetirin ki, İsa xilasın **"yəhudilər<u>dən</u>"** olduğunu söyləyir; O demir ki, xilas **"yəhudilər <u>üçündür</u>"** (22-ci ayə). Onun xilasın **"yəhudilər <u>üçün</u>"** deyil, **"yəhudilər<u>dən</u>"** olduğunu söyləməsi nəyə görə vacibdir?
9. 23 və 24-cü ayələri oxuyun.

İsa deyir ki, yeni gün **gəlir**—yer üzündə həqiqi ibadət edənlərin olacağı zaman—həmin gün **artıq başlayıb**. İsa bu həqiqi ibadət edənləri necə təsvir edir (24-cü ayə)?

> Samariyalı qadın düşünürdü ki, səhv yerdə ibadət edib. (O, Samariya dağına getməli idi? Yoxsa yəhudilər doğru deyirdilər ki, ibadət üçün onun getməli olduğu yer Yerusəlimdir?) İsa 21-ci ayədə qadına dedi: **“Ey qadın, Mənə inan, artıq o zaman yetişir ki, Ataya nə bu dağda, nə də Yerusəlimdə ibadət edəcəksiniz.”** Sonra qadına izah etdi ki, Ata ruhda və həqiqətdə həqiqi ibadət edənləri axtarır.

10. Bu qadın kimi bəzən biz düşünürük ki, ibadətimizin coğrafi yeri Allah üçün ən vacib şeydir. Bu şey bizə Ona ruhda və həqiqətdə ibadət etmək üçün necə mane ola bilər?
11. Ruhda və həqiqətdə ibadət etmək nə deməkdir? Başqa sözlə Allahı həqiqətən razı salan ibadət nədir? Bu haqda düşünmək üçün vaxt ayırın və bu vacib sualı müzakirə edin.
12. Allah ilə öz şəxsi ibadətinizə nəzər salmaq üçün bir neçə dəqiqə vaxt ayırın. Siz özünüzü Allaha **“həqiqi ibadət edən”** şəxs adlandırardınızmı? Yoxsa siz də samariyalı qadın kimi həqiqi ibadətin nə olduğu barədə çaşqınlığa düşmüsünüz?

> Məbədlərdə və ev toplantılarımızda biz adətən **“ibadət etmək”** üçün vaxt ayırırıq. Biz bunu birlikdə oxumaqla, dua etməklə və bəzən Kəlamın bəzi hissələrini oxumaqla keçiririk. Bəzi insanlar düşünürlər ki, kiçik qruplarda ibadət etmək daha yaxşıdır, digərləri isə yüzlərlə və ya minlərlə imanlıların toplaşdığı yerdə (məs, stadionlarda) ibadət etməyi xoşlayırlar.
>
> Başqa imanlılar ilə ibadət etmək gözəl olsa da, gəlin İsanın samariyalı qadına söylədiyi sözlər barədə düşünək: **“Allah ruhdur və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidir”** Toplantıda insanların sayı, oxumağın gözəlliyi və s. ürəklərimizi səmimi tərzdə Allaha təqdim etməkdən vacib ola bilməz. Yadda saxlanılmalı olan ən vacib həqiqət Allahın kimliyi və Onun bizə verdiyi xilasın İsa Məsih vasitəsilə olmasıdır.

13. İsanın göylərə qalxdığı vaxtdan 35-40 il sonra həvari Paul Romalılara məktubu yazmışdır. **Romalıları açın və 12-ci fəsil 1-ci ayəni oxuyun.** Həmin ayədə Paulun dediyinə görə ibadət nədir?

Mümkündür ki, gözəl ilahilər oxuyub böyük toplantıda yığışaq, amma həyatlarımızı səmimi tərzdə Ona tədqim etmədiyimiz üçün Allahı razı salmayaq?

Sizin şəxsi ibadətiniz və başqa imanlılar ilə ibadətiniz Allahı daha yaxşı razı salmaq üçün necə dəyişilə bilər?

14. Bu dərsi Allaha ibadət vaxtı ilə sona yetirin. Onu ibadətdə əsl məmnun edən şeylərin nələr olduğunu bizə öyrətdiyi üçün Ona təşəkkür edin. Sizin həqiqi ibadət edən olmağınız üçün sizə kömək etməsini Ondan xahiş edin. Məzmurları oxuyub dua etmək və həmçinin İsanın ölümü və dirilməsi barədə oxuyub araşdırmaq sizə yardım edə bilər.

# 35. Nikaha Hörmət Edin Və Onu Qoruyun

## *İsa Naminə Subay Olmağı Seçənlərə Hörmətlə Yanaşın*

**Müzakirə üçün sual:**

Allahın Musaya verdiyi əmrlərdən biri “**zina etmə**”dir. Zina ailələri, uşaqları və ümumiyyətlə, cəmiyyəti necə zədələyir?

**Matta 19:1-12-ni oxuyun.**

1. Fariseylər Musanın yəhudilərə verdiyi qanunu yaxşı bilirdilər. Burada deyilir ki, onlar İsanı sınağa çəkmək istəyirdilər. Başqa sözlə, onlar İsanı tələyə salmaq istəyirdilər. Onlar düşünürdülər ki, O səhv cavab verər. Fariseylər İsadan nə soruşdular (3-cü ayə)?
2. Siz heç fikirləşmisiniz ki, nikah haradan gəlib? Gəlin, nikahın mənşəyinə nəzər salmaq üçün aşağıdakıları oxuyaq:

**NİKAH: ALLAHDAN GƏLƏN GÖZƏL VƏ MÜQƏDDƏS HƏDİYYƏDİR**

4-6-cı ayələri oxuyun. 4 və 5-ci ayələrdə İsa Müqəddəs Kitabın ilk fəsillərindən Yaradılış 1 və 2-ci fəsildən sitat gətirir. Həmin fəsillərdə Allah Öz gözəl dünyasını yaratdı. O, bütün bitkiləri və heyvanları yaratdı. Sonra O, kişini və qadını yaratdı və dedi ki, bu çox gözəldir.

İsa onlara xatırlatdı ki, insanın kişi və qadın kimi yaradılması Allahın gözəl planı idi. Allah iki cins yaratdı (4-cü ayə), eləcə də O, nikahı yaratdı (5-ci ayə).

Mədəniyyətlər fərqli olduğu üçün dünyanın hər biri yerində nikah mərasimləri də fərqlidir. Bəzi mərasimlər çox bahalıdır. Bəziləri isə çox sadədir. Bəzi mədəniyyətlərin elə adətləri var ki, bizə qəribə görünür. Mərasimlərin fərqli olmasına baxmayaraq, kişi və qadının nikahda bir-biri ilə birləşməsi həmişə Allahın əlindən gözəl bir hədiyyə olub. Allah tərəfindən nəsə yaradılıbsa, ona bütün insanlar hörmət etməlidir. Bu həm də müqəddəs, çox dəyərli və qorunmağa layiq bir şey hesab olunmalıdır.

3. 6-cı ayəni yenidən oxuyun. İsanın dediyinə görə kişi və qadın evlənəndə onları kim birləşdirir?

   **“İnsan ayırmasın”** sözlərinin mənası nədir (6-cı ayə)?

4. Fariseylər bilirdilər ki, İsa boşanmanın səhv olduğunu söyləyir. Ona görə də Ondan başqa bir sual soruşdular. 7-ci ayəni yenidən oxuyun. Onlar İsadan nə soruşdular?

   8-ci ayədə İsanın cavabı nə oldu?

5. İsanın dediyinə görə Musa nəyə görə boşanmaya icazə vermişdi? İnadkar ürək Allahı razı salırmı? 4-6 və 8-ci ayələrə əsasən evlənən insanlar üçün Allahın arzusu nədir?

6. İsa 9-cu ayədə çətin söz deyir. O, nə deyir?

   Sizcə O bunu nəyə görə deyir?

7. Siz nikahı Allahdan gələn qiymətli hədiyyə kimi dəyərləndirirsiniz? Siz inanırsınız ki, nikah əhdi ciddi qərardır, asanlıqla qırılmalı deyil?

8. 10-cu ayəni yenidən oxuyun. Həvarilər İsanın çətin sözünə nə cavab verdilər?

> Həvarilər anladılar ki, evlənmək ciddi bir qərardır. Ona görə də onlar İsanın sözlərinə heyrətlə cavab verdilər. Ola bilsin ki, onlar ərlərin və arvadların bir-birinə vəfasız olduqları çoxlu nikahlar görüblər. Bəlkə də onlar öz valideynlərinin bir-biri ilə vuruşduqlarını və eqoistliklərini görmüşdülər. Onlar yəqin ki, bir çox ailələrin dağıldığını görmüşdülər. Ona görə də onlar cəld qərar çıxardılar ki, kişi ilə qadının evlənməməsi daha yaxşıdır, çünki onlar Allahın zina etməmək barəsindəki qanunu poza bilərdilər.
>
> Amma biz İsanın bir neçə ayə yuxarıda öyrətdiyini yadda saxlamalıyıq. Allah bizi kişi və qadın yaradıb. O, nikahı yaratdı və ona xeyir-dua verdi. O istəyir ki, biz nikahı qorumağı öyrənək. Biz yadda saxlamalıyıq ki, nikahı dağıdan günahlı münasibətlər və hərəkətlərdir. Amma İsanın öyrətdiyi kimi nikahda təmənnasız sevgi olanda o çox gözəl ola bilər. Sağlam və pak nikahlar olduğuna görə uşaqlar və eləcə də bütün cəmiyyət xeyir-dualı olacaq.

9. 11 və 12-ci ayələrdə İsa necə cavab verir?

   11-ci ayədə İsa nə demək istəyir?

   İsa deyirmi ki, hər bir kəs subaylığı seçməlidir?

10. 12-ci ayədə İsa deyir ki, bəziləri Səmavi Padşahlığa görə subay qalmağı seçirlər. O, nə demək istəyir?


Mündəricat

11. Bəzən oğlanlar və ya qızlar ailə qurmurlar, çünki onlar Allaha bütün ürəkləri ilə xidmət etmək istəyirlər. Bəzi vaxtlar isə onlar evlənməyib gözləyirlər ki, gələcək həyat yoldaşları imanlı insan olsun. Hər iki halda biz onları tənqid etməliyikmi və ya onlara təzyiq göstərməliyikmi? Biz onları necə ruhlandıra bilərik?

12. Gəlin, bu qədim həqiqətləri müasir həyatlarımıza tətbiq edək. Qrupunuzda aşağıdakı suallar barədə danışın:

    Şeytan həmişə nikahları dağıtmaq istəyir. Toplantınızda olan nikahların güclü olması və şeytanın şər strategiyalarından qorunması üçün dua edirsinizmi?

    Biz İsanın ardıcılları olan subay insanların Allaha özünü həsr etmiş həyat yoldaşları seçməsində onlara necə kömək edə bilərik?

    Nikaha hörmət etmək və onu möhkəmləndirmək üçün biz bir-birimizi necə ruhlandıra bilərik?

    Nikah hədiyyəsinə görə Allaha minnətdarlığınızı bildirmək üçün vaxt ayırın. Həm də subay insanlara yol göstərməsi və sadiq sevgisi üçün Ona minnətdarlığınızı bildirin.

# 36. Allahın Kəlamı Ilə Günaha Sövq Olunmaya Qalib Gəlin

**Müzakirə üçün sual:**

Allah kəlamını yadda saxlamaq nə qədər vacibdir? Niyə belə fikirləşirsiz?

**Matta 4:1-11-i oxuyun.**

1. 1-2 ayəni yenidən oxuyun. Şəraiti təsvir edin. İsa haradadır? O orda nə edirdi? Nə qədər müddət edirdi?

   2-ci ayənin sonunda Onun Özünü necə hiss etməsi haqda nə danışılır? Siz bu vəziyyətdə özünüzü necə hiss edərdiniz?

2. 3-ü ayəni yenidən oxuyun. **"Günaha sövq edən"** kimdir? O İsaya nə deyir? O, İsanın kim olduğu ilə bağlı onun ürəyinə şübhəni necə yerləşdirir? (**"Əgər"** sözünü nəzərə alın.)

   İblis adətən zəif olan vaxtlarımızda və xüsusilə tez sına bildiyimiz sahələr ilə bağlı bizə yaxınlaşır. İsa o vaxt hansı sahədə zəif idi?

3. 4-cü ayəni oxuyun. İsa iblisə necə cavab verdi? Onun cavabı nəyə əsaslanırdı? (Əksər Əhdi- Cədidin kitablarında səhifənin aşağısında İsanın istinad etdiyi Əhdi- Ətiq müqəddəs yazıları haqda sətiraltı qeydlər var. Əgər istəsəniz ona baxa bilərsiniz.)

   Çörəkdən daha vacib olan bir şey haqda İsa nə dedi?

> **Qeyd:** İsa daşları çörəyə döndərə bilərdi, amma o, iblisin təliminə qulaq asmadı. O yalnız Allaha qulaq asdı.

4. 5-7-ci ayələrdə ikinci dəfə günaha sövq olma haqda oxuyun. İblis İsanı hara apardı? O Ona nə etməyi dedi? (Nəzərə alın ki, iblis yenə də "əgər" ifadəsindən istifadə etdi.)

5. Bu günaha sövq olmada iblis də müqəddəs yazıdan istifadə edir. 6-cı ayədən olan hissəni oxuyun. **İndi isə Zəbur 91:9-12-yə baxın** və bu ayələri həmin mənada oxuyun. Siz fikirləşirsiniz ki, məzmuru yazan bizə qəsdən özümüzü təhlükəli vəziyyətə atmağımızı istəyir ki, biz, Allahın bizi möcüzəli yolla həmin vəziyyətdən çıxartmasını görək?

6. 7-ci ayədə İsanın cavabını oxuyun. Bu cavab haradan götürülüb? Bu həqiqət iblisin müqəddəs yazıdan səhv istifadə etməsini necə göstərir?

7. 8-9-cu ayələri yenidən oxuyun. İblis İsaya nə təklif edir? İsa onu əldə etmək üçün nə etməlidir?

8. İsa iblisin təklifini bircə anlıq da olsa nəzərə alırmı? O necə cavab verir (10-cu ayə)? Bu cavab xüsusi sərtliyi ilə necə fərqlənir?

9. İsanın ona qulaq asmayacağı aydın olanda, iblis nə etdi (11-ci ayə)?

10. **İbranilərə fəsil 4-ə baxın və 15-16-cı ayələri oxuyun**. Nəyə görə İsa bizim zəifliklərimizdə halımıza acıya bilir? Kömək üçün Onun qarşısına gələndə, O bizə nə təklif edir (16-cı ayə)?

    Günaha sövq olunanda bu ayələr sizi necə möhkəm ruhlandırır?

11. Matta 4-də yazılan İsanın hər üç günaha sövq olunmasında, Onun iblisə olan cavabı nəyə əsaslanır? O hansı səlahiyyətə arxalanır?

12. **İbranilərə 4:12 və Efeslilərə 6:17-ni oxuyun.** İblisə qarşı ən yaxşı silahımız nədir?

13. İsa iblisi **“yalançı... və yalanın atası...”** adlandırır (Yəhya 8:44). Bizim günah işlətməyimiz üçün onun sövq etmək üsulu bizi aldatmaqdır. Əgər biz həqiqəti yaxşı biliriksə, biz asanlıqla aldanmayacayıq. İsanın vaxtlarında Əhdi-Ətiq insanlarda olan yeganə müqəddəs yazı idi. Amma İsa bunu elə yaxşı bilirdi ki, O dərhal həqiqəti iti qılınc kimi iblisə qarşı uzada bilirdi.

    Allahın kəlamında tapılan həqiqəti nə qədər yaxşı bilirsiz? Siz gündəlik kəlamı oxuyub onun üzərində düşünürsünüz? Siz vacib kəlamları, ya da fəsilləri və ya hətta bütün kitabı yadda saxlayırsınız – xüsusilə sizi günaha sövq edən şeylər haqda danışan kəlamları yadda saxlayırsınızmı? İndi Allahın kəlamını daha çox öyrənmək və yadda saxlamaq üçün özünüzü buna həsr etməyə razısınızmı? Əgər belədirsə, siz də, günaha sövq olunmağa qarşı möhkəm durmağı öyrənə bilərsiniz.

**Yadda saxlamaq üçün yaxşı ayə:**
“Siz insanın qarşılaşdığı sınaqdan başqa bir sınaqla qarşılaşmadınız. Allah sadiqdir və O sizi gücünüzdən artıq sınağa çəkilməyə qoymaz. Sınaqla yanaşı bu **vəziyyətdən çıxış yolu ilə də təmin edəcək ki, tab gətirə biləsiniz.”** 1 Korinflilərə 10:13

Mündəricat

# 37. Günaha Qalib Gəlməkdə Sevgi Ilə Bir-birinizə Yardım Edin

**Müzakirə üçün sual:**

Qeybət imanlıların ünsiyyətini necə xarab edir? Sizcə qeybət günah etmiş insanı bərpa etmək üçün kömək edə bilərmi?

**Matta 18:15-17-ni oxuyun.**

1. 15-ci ayəni oxuyun. Əgər kimsə sizə qarşı günah işlədibsə, siz birinci nə etməlisiniz? Sizcə bu həm bacılara, həm də qardaşlara aiddirmi?

   Siz problemi nəyə görə yalnız bir-birinizin arasında saxlamalısınız?

2. **Qalatiyalılara 6-cı fəsli açın və 1-2-ci ayələri oxuyun**. Günah etmiş insan üçün biz nə etməyə çalışmalıyıq (1-ci ayə)?

3. Biz günah etmiş insana səhvini göstərəndə münasibətimiz necə olmalıdır? Sizcə, bizim özümüzü həlimləşdirməyimiz həmin insanın özünü həlimləşdirərək günahdan üz döndərməsinə necə kömək edə bilər?

   Əgər siz ona yanaşarkən özünüzdən razı hərəkət etsəniz, bu necə mane olar?

4. Nəyə görə 1-ci ayə deyir ki, biz başqasının ünsiyyətini bərpa edərkən **"özümüzə fikir verməliyik"? (1 Korinflilərə 10:12-yə də baxın.)**

5. İndi Matta 18-ə qayıdın və 15-ci ayəni yenidən oxuyun. Əgər o qulaq asarsa, sonda nəticə necə olacaq?

   Əgər imanlılar bu ayədə İsanın verdiyi əmrlərə riayət etsələr, kiçik problemlərin böyüməməsinə necə kömək edə bilər?

6. 16-cı ayəni oxuyun. Əgər sizin bacınız və ya qardaşınız sizə qulaq asmazsa, sonra nə etməlisiniz?

   Bu zaman nəyə görə bir və ya iki nəfəri özünüz ilə götürməyiniz vacibdir? (16-cı ayənin sonuncu hissəsinə baxın.)

7. Əgər o, hələ də imtina edərsə, bundan sonra İsa nə etməyi söyləyir? Əgər o, günahından dönməkdən imtina edərsə, onun günahı barədə bütün toplantının bunu bilməsi nəyə görə yaxşı olar?

8. Bu hərəkət həmin şəxsin arxasınca danışmaqdan (qeybət) necə fərqlidir?

**Qeyd:** Əgər imanlı birinci dəfə üzləşərkən günahını etiraf edirsə və ondan əl çəkirsə, onda bunu camaat qarşısında ifşa etməyə ehtiyac yoxdur. Amma həmin şəxs tövbə etməkdən imtina edərsə, onda bütün toplantının həqiqəti bilməsi vacibdir. Bu yolla həmin şəxs ikiüzlü insan kimi toplantıda iştirak etməkdə və ola bilsin ki, başqalarını da aldadaraq günah etməkdə davam edə bilməz.

9. 17-ci ayəni yenidən oxuyun. Həmin şəxs barədə həqiqət bütün toplantıya çatdırıldıqdan sonra o, hələ də onlara qulaq asmaqdan imtina etsə, onda onunla necə rəftar etməlidirlər?

   Bunun nə məna daşıdığı haqda düşünün. Biz bir imanlı kimi bütpərəstlərlə (imansızlarla) necə rəftar etməliyik?

   Əgər o imanlı cəmiyyətindən kənardırsa, onda o Allahla barışdırılmalıdır. Biz xilas olmamış ailə üzvlərimiz və dostlarımız üçün dua etdiyimiz kimi onun üçün də elə dua etməliyik və onun bərpası üçün əlimizdən gələni etməliyik.

10. İndi özünüz barədə düşünün. İmanlı bacı və ya qardaşınız sizə qarşı səhv hərəkət edəndə və ya günah edəndə siz nə edirsiniz? Siz əvvəlcə təkcə onun özü ilə danışırsınız? Yoxsa bu haqda əvvəlcə başqaları ilə danışırsınız?

    Sizin həmin şəxs üçün ən böyük arzunuz onun Allah və başqaları ilə düzgün ünsiyyətə qayıtmasıdırmı, yoxsa siz istəyirsiniz ki, onun başqaları qarşısında özünü alçaltdığını görəsiniz? Siz özünüzün də Allahın lütf və bağışlanmasına ehtiyacı olan günahkar olduğunuzu anlayırsınızmı?

    Keçmişdə bacınız və ya qardaşınız ilə təklikdə danışmadan qeybət etmisinizsə, Allahdan xahiş edin ki, İsanın dediyi qayda ilə getmədiyiniz üçün sizi bağışlasın. Ürəyinizdə qərara gəlin ki, gələcəkdə bunu Onun dediyi qaydada edəsiniz.

# 38. Qoy Sizin Nurunuz İnsanlar Qarşısında Parlasın

**Müzakirə üçün sual:**

Əksər insanların fikrincə Allahın gözündə “günahkar” nə cür insandır?

**Matta 5:13-37-ni oxuyun.**

1. 13-16-cı ayələrdə İsa həvarilərinə deyir ki, onlar dünyanın duzu və nurudurlar. Səssizcə bu ayələrə nəzər salın. Sizcə indiki dövrdə Allahın izzətlənməsi üçün **“qoy nurunuz parlasın”** nə deməkdir? İzah edin.
2. 17-20-ci ayələri yenidən oxuyun.
   Bu ayələri oxuduqdan sonra sizcə İsa istəyirdimi ki, həvariləri Əhdi-Ətiqin qanununa hörmət etsinlər?

   **Qrup halında Çıxış 20:1-21-də olan On Əmri birlikdə oxuyun.** Bu Allahın Musa peyğəmbər vasitəsilə xalqına verdiyi əsas əxlaq qanunudur. İndi isə Müqəddəs Kitabı bağlayın və görün, qrupunuz onları yadlarında saxlayaraq deyə bilirlər?

   Bu əmrləri yerinə yetirməklə və başqalarına öyrətməklə Rəbbi izzətləndirirsinizmi?
3. Matta 5-ci fəsildə 20-ci ayəni yenidən oxuyun. Fariseylər qanuna səthi əməl edirdilər. İsa müntəzəm olaraq onlara göstərirdi ki, dindar insanlar olmaqla Allahı razı salmırlar. Növbəti ayələrdə diqqət yetirin ki, Allahın qanununa ürəkdən həqiqətən əməl etməyin nə olduğunu İsa necə izah edir.
4. 21 və 22-ci ayələri yenidən oxuyun. Heç olubmu ki, insanların sizə dedikləri hirsli sözlərdən bərk incimisiniz? Yaxud olubmu ki, başqalarını hirsli, acı sözləriniz ilə bərk incitmisiniz?

   İsa hirsli sözləri qatillik ilə müqayisə edir. Bizim sözlərimiz sanki insanları öldürən şər qüvvə necə ola bilər?
5. 23-26-cı ayələrdə İsa bizə öyrədir ki, incitdiyimiz insanlar ilə barışmaq üçün çalışaq. Həmin ayələri yenidən oxuyun.

   Elə insanlar varmı ki, siz onlara hirsli sözlər demisiniz? İsaya itaət edib onlar ilə barışacaqsınızmı?
6. 27-28-ci ayələri oxuyun. Sizcə İsa yalnız bu sözləri kişilərə deyirdi, yoxsa həmin prinsip qadınlara da aid idi?
7. 29-30-cu ayələri oxuyun. Əsrlər boyunca bəzi imanlılar bu sözləri ciddi qəbul edib bədənlərinin müxtəlif hissələrini kəsib atırdılar. Bizim bilməyimiz çox vacibdir ki, İsa bədən üzvlərimizin hərfi mənada kəsilib atılmalı olduğunu öyrətmirdi. Əksinə O deyirdi ki, biz günahlı

yollar ilə getməmək üçün əsas əxlaqi qərarı çıxarmalıyıq. Biz güclü günahlı istəklərimizdən xəbərdar olmalıyıq və günah bizi məğlub etməzdən əvvəl bilərəkdən günah etmək üçün hər bir imkanını kəsib atmalıyıq.

Siz harada günahın imkanlarını kəsib atmalısınız ki, bütün ürəyiniz ilə Allahın ardınca gedə biləsiniz? Diliniz və dediyiniz şeylər barədə düşünün. Gözləriniz və televizorda, yaxud kompüterdə baxdığınız şeylər barədə düşünün. Eləcə də, əlləriniz (onlar nə edirlər), ayaqlarınız (onlar sizi haraya aparırlar) və s. barədə düşünün.

**(Qeyd**: Biz burada 31-32-ci ayələrin üstündən keçirik, çünki boşanma "Nikaha hörmət edin və onu qoruyun" adlı başqa bir dərsdə müzakirə ediləcək.)

8. 33-37-ci ayələri oxuyun. İnsanlar min illər boyunca andlar içiblər. Sizcə insanlar nəyə görə and içirlər?

   Musa öyrədirdi ki, biz andlarımızı yerinə yetirməliyik, bəs İsa nə deyir (34-cü ayə)?

9. İsa and içməyin nə ilə əvəz olunmalı olduğunu söyləyir (37-ci ayə)? Nəyə görə vədlərimizdə **"bəli"** və ya **"xeyr"** kifayət edir?

   Siz nəyisə edəcəyinizi söyləyəndə insanlar bilirlər ki, siz etibarlı insansınız?

10. Bu parçaya yenidən baxın. İsa qatillik haqqında nə öyrədir? Bəs qardaşınızla barışmaq barədə? Zina barədə? Andlar barədə?

11. İndi öz ürəyinizi yoxlayın. Bu dünyanın **"duzu"** və **"nuru"** olmaq üçün siz nəyi dəyişməlisiniz? Daxildən dəyişmək üçün sizə güc vermək naminə ölüb yenidən dirildiyinə görə İsaya şükür edin. Dua edin və İsadan xahiş edin ki, ürəkdən Onun üçün yaşamaqda sizə kömək etsin.

***“Ona görə də oyaq olun.***
***Çünki Rəbbinizin hansı gün gələcəyini bilmirsiniz.”***
***Matta 24:42***

# BƏHRƏLİ VƏ İSANIN GƏLİŞİNƏ HAZİR OLUN

***"Sizin çoxlu bəhrə verərək Mənim şagirdlərim olmağınızla Atam izzətlənir." (Yəhya 15:8)***

***"Qoy qurşaqlarınız bellərinizdə bağlı və çıraqlarınız yana-yana qalsın. Toy ziyafətindən qayıdan ağasını gözləyən adamlara oxşayın. Onlar ağaları gəlib qapını döyən kimi qapını açmağa hazır olurlar... Beləcə siz də hazır olun, çünki Bəşər Oğlu gözləmədiyiniz vaxt gələcək." (Luka 12: 35 - 36, 40)***

Bilirdinizmi ki, İsanın sizə verəcəyi işi var? Təəssüf ki, İsanın ardıcılları olduqlarını iddia edənlərin bəziləri yalnız Səmavi Səltənətə getmək istəyirlər. Onlar xilas olduqlarına görə şaddırlar, lakin Padşahların Padşahına xidmət etməyin çətinliklərini yaşamaq istəmirlər.

Bəli, çətinliklər vardır. Lakin onlar eyni zamanda, həm də mükafatlardır. İsa bizə Ona xidmət etməyə çağırmaqla şərəf verir. Biz Ona xidmət edərkən, O, bəzən bizə əməyimizin bəhrələrini görməyə imkan verir. Lakin həmin bəhrələrin çox hissəsini O gəlincəyədək görməyəcəyik. Sonra O, bizə sadiqliyimizin necə yaxşı bəhrə verdiyini göstərəcək! Bu necə də xoşbəxt bir gün olacaq!

Həmin günədək, gəlin, ürəyimizdə daim artan ümidlə Ona xidmət edək. O, qayıdacağını vəd etdi və O həmişə vədlərinə sadiqdir.

Siz bu dərsləri oxuduqca, qaranlıq dünyada Rəbbin sizə yeni xidmət yollarını göstərəcəyinə hazır olun. Hər gün İsada qalın. Onun nurunu və məhəbbətini Ona çox ehtiyacı olan insanlara çatdırın. Qoy sizin sevinciniz tam olsun.

# 39. İsada Qalın Və Çoxlu Bəhrə Verin

**Müzakirə üçün sual:**

Sizin fikrinizcə, **"yaxşı bəhrə vermək"** bir Məsihçi üçün nə deməkdir? Sizcə, bir Məsihçinin həyatında görünməli olan "bəhrə"yə hansı nümunələr aid ola bilər?

**Yəhya 15:1-8-i oxuyun.**

1. 1-ci ayəyə görə **"həqiqi meynə"** kimdir? Bağban kimdir? Budaqlar kimdir (5-ci ayə)?

   Bağbanın işi nədir (2-ci ayə)?

2. Bir meynə və onun budağını təsəvvürünüzə gətirin. Budaq öz qidasını haradan alır? İsa ilə münasibətiniz haqda bu sizə nə deyir?

   Əgər budaq bəhrə vermirsə, onu nə edirlər (2-ci ayə)? Əgər bəhrə verirsə, onu nə edirlər?

   Meynə və ya bir ağacı budayanda qurumuş və ya köhnə budaqları kəsib atırlar ki, yeni budaqlar daha yaxşı böyüsünlər və daha çox bəhrə versinlər. Budanma bizim gündəlik həyatlarımızda nəyi təmsil edir? Bizim daha bəhrəli olmağımız üçün belə budanma bizə necə kömək edir?

3. 4-5-ci ayələri yenidən oxuyun. İsada qalmaq və Onun bizdə qalması nə deməkdir?

   Əgər biz Onda qalsaq, öz həyatlarımızdan nələr gözləyə bilərik? Əgər biz Onda qalmasaq, nə gözləyə bilərik? Sizcə, **"çoxlu bəhrə vermək"** nə deməkdir? Bəhrənin həyatınızda necə görünməsinə ümid edirsiniz?

4. 6-cı ayəni oxuyun. İsada qalmayan kəsləri O nəyə bənzədir? Onlara nə baş verir?

5. 7-ci ayədə İsa hansı vədi verir? Vədi qəbul etmək üçün biz nə etməliyik? Sizcə, bunun mənası nədir?

6. 8-ci ayəni yenidən oxuyun. Bizim çoxlu bəhrə verməyimizin nəticəsi nədir?

   Bir neçə dəqiqə öz həyatınız haqda düşünün. Siz İsa ilə yaxın münasibətə doğru inkişaf edirsinizmi? Həyat gətirən şirənin meynədən budaqlara axıb getdiyi kimi İsanın həyat tərzi də gündəlik olaraq sizin vasitənizlə axırmı?

   Əgər belədirsə, siz iki növ bəhrə gözləyə bilərsiniz. Birinci növ sizin öz həyatınızdadır.

**Qalatiyalılara 5:22-23-ü oxuyun.** Bu ayələrdə adları çəkilən Ruhun bəhrələrini sadalayın. Xasiyyətdə bu cür müsbət cəhətlər sizin həyatınızda getdikcə daha da artmalıdır.

İkinci növ bəhrə isə başqalarının həyatlarında büruzə verəcəkdir. Onlar İsanın həyatını sizdə gördükcə, və İsanın sizin həyatınızda etdiklərini onlarla bölüşdükcə, onlardan bəziləri İsa Məsihə iman edəcəklər. Bu hər iki növ bəhrə Allaha izzət gətirir.

**Yəhya 15:9-17-ni oxuyun.**

7. Xüsusilə 10 və 12-ci ayələrə fikir verin. İsada qalmağımızdan bizi nələr saxlaya bilər?

   Ondan xahiş edin ki, həyatınızda hər hansı bir itaətsizlik sizə göstərsin. Sizin bəhrə verməyinizə mane olan nəsə varmı? Bunu Ona etiraf edin. Onun sizə göstərdiyi şeyi yerinə yetirməkdə itaət göstərin.

8. 11-ci ayəni oxuyun. İsa bizim həyatımızda nəyin dolu olmasını arzulayır?

   Öz həyatınız haqda düşünün. Həyatınız sevinclə doludurmu? Həyatınız yaxşı bəhrə verirmi? Əgər belə deyilsə, sizə nə etmək lazımdır? Bu haqda indi dua edin.

# 40. İstedadınızdan İstifadə Edin Onları Basdırıb Gizlətməyin

**Müzakirə üçün sual:**

Sizcə Allah hər bir kəsə hansısa istedad (bacarıq və ya qabiliyyət) veribmi? Sizə hansı istedadı verdiyini düşünürsünüz?

**Matta 25:14-30-u oxuyun.**

1. Bu məsəldə olan qula pul verilmişdi. Pul kimə məxsus idi?

   15-ci ayəni yenidən oxuyun. Burada deyilir ki, hər birinə öz qabiliyyətinə görə verdi. Sizcə ağa bəzi qullarının o biri qullarına nisbətdə daha çox gəlir əldə edəcəyinə ümid edirdimi? Siz niyə belə fikirləşirsiniz?

2. Bu parçada talant pul deməkdir. Hər bir talant təqribən min Manat idi. Müasir dövrdə biz adətən düşünürük ki, talant nəsə başqa şeydir. Biz adətən talantın nə olduğunu düşünürük?

   Sizcə **"talant"** Allahın bizə verdiyi həm qabiliyyətlər, həm də maliyyə xeyir-duaları deməkdirmi?

   16-17-ci ayələri oxuyun. Əgər biz talantların istedadlar və qabiliyyətlər olduğunu düşünürüksə, onda bunlar Allahın Padşahlığı üçün necə istifadə oluna bilər?

3. Uzun müddətdən sonra ağa qayıdır və verdiyi pulun necə istifadə olunduğu barədə hesabat tələb edir.

   Birinci qul ağasına nə qədər talant gətirir (20-ci ayə)? Ağa qulunu necə təsvir edir (21-ci ayə)? Qulun yeni tapşırığı onun birinci tapşırığı ilə necə müqayisə olunur?

4. İndi 22-23-cü ayələri oxuyun. İkinci qul ağasına nə qədər talant təqdim etdi? 23-cü ayədə ağanın cavabına diqqət yetirin. Bu, 21-ci ayədə olan birinci qula verdiyi cavab ilə necə müqayisə olunur?

   Ağa üçün hansı daha vacib idi—qazanılan  pulun miqdarı, yoxsa qulun sadiq işi?

   Hər iki qul ağa ilə hansı yeni ünsiyyət səviyyəsinə daxil oldular (21 & 23-cü ayələr)?

5. 24-25-ci ayələri oxuyun. Üçüncü qul ağasını necə təsvir edir (24-cü ayə)? O, nəyə görə talantını basdırdı?

   Əgər biz Allahı kobud və hirsli bir Allah kimi düşünsək, bu bizim qorxmağımıza və Onun bizə verdiyi şeyləri istifadə etməməyimizə necə səbəb olar?



Mündəricat

Kəlam aydın şəkildə bildirir ki, İsanın bizim üçün ölümünə görə Allah bizi sevir və qəbul edir. Əgər biz buna inanmasaq, Allah ilə ünsiyyətimiz üçüncü qulun ünsiyyəti kimi necə olar? **(1 Yəhya 4:16-18-ə baxın.)**

6. 26 və 30-cu ayələrdə üçüncü qulu təsvir etmək üçün ağa hansı sözlərdən istifadə edir?

   Sizcə bu qulun cəzası nəyə görə çox ciddi idi (28-30-cu ayələr)?

7. Bu məsəli qəbul etmək çətindir. Ağa üçüncü quluna mərhəmət göstərmir, çünki qul bilirdi ki, ağası ondan nə gözləyir, amma onu yerinə yetirməmişdi. Qul qorxuda və imansızlıqda yaşamışdı.

   Bu dərsin başlanğıcında Allahın bizə verdiyi ənamlar barədə danışmışdıq. Allahın sizə verdiyi ənamları Onun Padşahlığı üçün istifadə etməkdə nə edirsiniz?

   İndiki vaxtda Allahın sizdən istədiyi xüsusi şeylər barəsində düşünmək üçün bir neçə dəqiqə vaxt ayırın. Siz onları yaza bilərsiniz və sonra Müqəddəs Kitabınızın arasında saxlaya bilərsiniz. Daha sonra dua edin. Keçmişdə Allahın sizə verdiyi şeylərə görə hansı yerlərdə sadiq olmamısınızsa, Ondan xahiş edin ki, sizi bağışlasın. Sonra Ondan xahiş edin ki, sizə verdiyi hər bir şeyi gələcəkdə Onun izzəti üçün istifadə etməkdə sizə yardım etsin.

# 41. Ehtiyac İçində Olan İnsanlara Kömək Etməklə İsaya Xidmət Edin

**Müzakirə üçün sual:**

Sizin fikrinizcə, Allah kasıb insanların qayğısına qalır? Sizcə, kasıblara kömək etmək məsuliyyətini biz daşımalıyıq? Bəli və ya xeyr cavablarınızı izah edin.

**Matta 25:31-46-nı oxuyun.**

1. Bu ayələrdə İsa həqiqəti öyrətmək üçün həkayə danışır. 31-32-ci ayələri yenidən oxuyun.

   Bu hekayə nə vaxt baş verir? Səhnəni təsvir edin.

   Burada kimləri görürük (32-ci ayə)? Bəşər oğlu (İsa) nə edir (31-ci ayə)?

2. 34-36-cı ayələri yenidən oxuyun.  İsanın sağında oturanlar nə alacaqlar (34-cü ayə)? Niyə?

   Onlar nə ediblər?

   35-36-cı ayələrdəki İsanın dediyi və onların İsaya etdikləri şeyləri sadalayın?

3. Sağda oturanlar (salehlər) İsanın sözlərinə cavab olaraq nə deyirlər? Sizcə, onlar Onun sözlərini təəccüblə qarşılardılar (37-39 –cu ayələr)?

4. 40-cı ayədə İsanın onlara olan cavabını oxuyun. Sizcə, O bununla nə demək istəyir? Ehtiyac içində olanlara kömək etməklə biz İsaya necə xidmət edirik?

> Tereza Ana Hindistanda küçələrdə yaşayan kasıblara və ölüm ayağında olanlara xidmət edən məhşur katolik rahibəsi idi. O bu nümunəvi məsəldən ilham almışdı. O deyirdi ki, kömək etdiyi hər bir şəxsdə İsanın üzünü görürdü. Ehtiyac içində olan insanlara qayğı göstərəndə, siz İsanın Özünə kömək etdiyinizi nəzərə alırsınızmı?

5. Sonra İsa onun solunda oturanlara tərəf dönüb danışır. O onlara nə deyir? Onlar bu cəzanı nəyə görə alırlar (42-43-cü ayələr)?

6. 44-cü ayədə onların cavabları, salehlərin 37-39-cu ayələrdə olan cavbları ilə necə oxşardır? İsa onlara necə cavab verir (45-ci ayə)?

**UNUTMAYIN:** Əgər biz bu hekayəni Müqəddəs Kitabdan kənar bir hekayə kimi oxusaq fikirləşə bilərik ki, əbədi həyatı və ya əbədi cəzanı başqalarına kömək edib-etməməyimizə görə ala bilərik. Müqəddəs Kitabda olan başqa ayələr İsanın bizə bu qoyun və keçi məsəli vasitəsilə nə demək istədiyini başa düşməyə kömək edir.

7. **Efeslilərə 2:8-10-u oxuyun**. Bu ayələri bir neçə dəfə oxuyun. 8-ci ayə bizim xilasımız haqda bizə nə deyir?

   9-cu ayəyə əsasən deyə bilərikmi ki, biz əməllərimiz vasitəsilə xilas olmuşuq? İstənilən bir imanlı öyünə bilərmi ki, öz əməlləri vasitəsilə xilası qazanmışdır?

8. İndi yenidən 10-cu ayəni oxuyun. Bizim imanımıza görə, Allah bizi İsa Məsihdə yeni məxluq yaratdı. Yeni məxluq kimi nə etməyimiz üçün yaradıldığımız haqda nə deyilir? Sizcə, bu yaxşı işlərə nələr daxil ola bilər?

9. Matta 25-ci fəsilə qayıdın və 40-cı ayəni yenidən oxuyun. Siz kiminsə ehtiyac içində olduğunu görəndə, ya da eşidəndə, **“Mən necə İsanın bu şəxsə uzanan əli ola bilərəm”** haqda özünüz üçün fikirləşirsınızmi?

   Heç kim öz ətrafında gördüyü bütün ehtiyacları tam ödəyə bilməz. Amma hər birimiz Allahın bizim qarşımıza çıxartdığı ehtiyac içində olan insanlara kömək əlimizi uzada bilərik. Allahın sizdən kömək etməyinizi istədiyi insanlar haqda düşünün. İsanın onlar üçün olan Öz şəfqətli ürəyini sizlərə verməyini Ondan xahiş edin. Sonra O nə etməli olduğunuzu sizə göstərəndə Ona itaətkar olun.

# 42. İsanın İkinci Gəlişi Üçün Hazır Olun

## *1-ci Hissə: Aldanmayın*

**Müzakirə üçün sual:**

Sizcə, dünya əbədi olaraq davam edəcək, yoxsa bildiyimiz kimi dünyanın sonu olacaq?

**Matta 24:1-36-nı oxuyun.**

1. Şagirdlər məbəddən çıxıb gedərkən İsanın nəyə diqqət yetirməsini istəyirdilər (1-ci ayə)? İsanın cavabı nə oldu (2-ci ayə)?

> Diqqət yetirin ki, həvarilər 3-cü ayədə belə soruşmuşdular: **"Bu dediklərin nə vaxt baş verəcək?"** Məbəd (tarixçilər tərəfindən Hirodun Məbədi adlanırdı) b.e. 70-ci ilində dağıdılmışdı. Bu təqribən İsanın çarmıxa çəkilməsindən və dirilməsindən 40 il sonra baş vermişdi. Romalılar Yerusəlim şəhərinə hücum edib məbədi tamamilə darmadağın etmişdilər.
>
> Amma həvarilər həm də belə sual vermişdilər: **"Sənin zühuruna və dövrün sonuna hansı əlamətlər olacaq?"** Matta 24-də olan bu peyğəmbərlik həm Romalıların Yerusəlimə hücumu həm də Onun ikinci gəlişi barədə danışır.

2. İsa 4-5-ci ayələrdə qarşıdakı günlər barədə xəbərdarlıq edərək izah verməyə başlayır. Həmin xəbərdarlıq nə idi?

   6-cı ayədə O onlara başqa bir xəbərdarlıq edir: "Təlaşa düşməyin". 6-8-ci ayələrə yenidən baxın. Biz dünyada təhlükəli əlamətləri görərkən bir imanlı kimi necə güclənə bilərik ki, "təlaşa düşməyək"?

3. İsanın ikinci gəlişi nəyinsə doğulmasına necə bənzəyir (8-ci ayə)?
4. 9 və 10-cu ayələri yenidən oxuyun. Həvarilərin dövründən bəri məsihçilər İsaya imanlarına görə təqib olunublar. Bizlərdən çoxumuz ümid edirik ki, bu bizim başımıza gəlməyəcək!

> **Matta 5:11-12-də** İsanın həvarilərə təqib barədə nə söylədiyini xatırlayırsınızmı? **"İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər."**

Keçmişdə müqəddəs kişilərin və qadınların imanlarına görə əzab çəkdiklərini xatırlamaq bizi necə qüvvətləndirir? İsaya xidmət etdiyimiz üçün təqib olunarkən sevinib şadlanmaq həqiqətən mümkündürmü?

5. **Matta 10:28-i də oxuyun.** Təqib dövrləri üçün bu ayədə hansı ruhlanma sözləri var?

6. Matta 24:11-14-cü ayələrdə həmin çətin günlərin başqa **"əlamətləri"** nədir? Bir imanlı kimi məhəbbətimizin soyumaması üçün onu necə qoruya bilərik? Yalançı peyğəmbərlər tərəfindən aldanmamaq üçün özümüzü necə qoruya bilərik?

   Sizcə, Müqəddəs Kitab dərsləri, dua və başqa imanlılar ilə tez-tez görüşlər bu şeylərdən qorunmaqda bizə necə kömək edə bilər?

   13-cü ayəyə əsasən kim xilas olacaq?

7. 14-cü ayədə İsa deyir ki, O gəlməzdən əvvəl Müjdə bütün dünyada vəz ediləcək. Siz və cəmiyyətdə olduğunuz imanlılar bu fəaliyyətdə necə iştirak edirsiniz?

8. 15-25-ci ayələri yenidən oxuyun. Bir çox alimlər **"viranəlik gətirən iyrənc şeyin"** (15-ci ayə) nə olduğu barədə razılığa gələ bilməyiblər. Bəziləri deyir ki, bu, keçmişdə Yerusəlim dağılan vaxtda baş verib. Digərləri isə deyir ki, bu gələcəkdə baş verəcək. Bu Müqəddəs Kitab dərsində yaxşı olar ki, həmin sual ətrafında çoxlu vaxt sərf etməyək.

   Bizim üçün çox vacibdir ki, dünyada geniş yayılmış yalandan agah olaq. 23-25-ci ayələrə baxın. Bir çox insanlar necə aldanacaqlar?

9. 26-31-ci ayələrə diqqətlə baxın. Bütün insanlar İsanın qayıtdığını dəqiq necə biləcəklər?

   Sizcə İsa qayıdarkən yer üzündəki bütün xalqlar arasında niyə böyük şivən qalxacaq (30-cu ayə)?

10. 32-36-cı ayələrə baxın. Bir tərəfdən biz istənilən an Onun üçün hazır olmalıyıq, digər tərəfdən isə Onun ikinci gəlişi üçün günlər təyin etməli deyilik.

    Həmin fikir sizin hər gün İsa üçün yaşamağınıza necə kömək edə bilər?

11. Həyatınız barədə düşünün. Çətin dövrlərdə möhkəm dayanmağınız üçün imanınızı möhkəmləndirməkdə nə etməlisiniz? Aldanmaya qarşı özünüzü necə qoruya bilərsiniz? Bu şeylər haqqında dua etmək üçün vaxt ayırın.

# 43. İsanın İkinci Gəlişi Üçün Hazır Olun

## *2-ci Hissə: Ayıq Və Sadiq Olun*

**Müzakirə üçün sual:**

Keçən dərsdən öyrəndiyimiz kimi İsa Özünün qayıtması üçün hansı əlamətlərin olacağını söyləmişdi? Biz təqiblər və çətin dövrlər üçün necə hazırlaşa bilərik? Yalançı peyğəmbərlər tərəfindən aldanmaqdan özümüzü necə qoruya bilərik?

Bu dərsdə İsanın ikinci gəlişi üçün necə hazır olmaq barədə daha ətraflı danışacağıq. Biz indi buna öz münasibətimizin necə olmasına və gözləyərkən nə etməli olduğumuza nəzər salacağıq.

**Matta 24:36-51-i oxuyun.**

1. 36-cı ayəni yenidən oxuyun. İsanın qayıtmasının vaxtı barədə yalnız kim bilir?
2. 37-41-ci ayələri yenidən oxuyun. İsanın gəlişi zamanı günlər Nuhun günlərinə necə bənzəyəcək? İnsanlar hansı işləri görməklə məşğul olacaqlar?

   İnsanlar yüz il Nuhun gəmi tikməsinə baxdılar, amma onlardan heç biri tövbə etmədi. Sizcə hal-hazırda dünyada bir çox insanlar belədirlər – qiyamət gününün gələcəyi barədə xəbərsizdirlər?
3. **Həvari Paulun Timoteyə 2-ci məktubu 3:1-5-də** son günlər barədə öz gənc şagirdinə, Timoteyə yazdıqlarını oxuyun. Burada qeyd edilən insanlar indiki bir çox insanlara oxşayırmı? Necə?
4. Matta 24-ə yenidən qayıdın. Biz İsanın ikinci gəlişinin nə vaxt olması barədə heç nə bilmədiyimiz üçün 42-44-cü ayələrə əsasən bizim buna münasibətimiz necə olmalıdır?
5. 45-51-ci ayələrdə verilən məsəlləri yenidən oxuyun. 45-ci ayədə qulla hansı tapşırıq verilib? Əgər o, sadiq və müdrikdirsə, ağası gələndə nə işlə məşğul olacaq?

   Onun mükafatı nə olacaq?
6. Əgər qul pisdirsə, o, nə işlə məşğul olacaq (49-cu ayə)? Onun ağasının geriyə qayıtmasına münasibəti nə cürdür (48-ci ayə)?
7. Ağası pis qulu necə təəccübləndirəcək (50-ci ayə)? Onun mükafatı nə olacaq (51-ci ayə)?

   21-ci əsrdə biz necə sadiq və müdrik qullar ola bilərik?

8. **2 Peter 3-cü fəsildə** həvari bizə İsanın gəlişini gözləyərkən necə yaşamalı olduğumuz barədə bəzi məsləhətlər verir. Həmin fəsli bütünlüklə oxuyun.

   3-7-ci ayələrə yenidən baxın. Rişxəndçilər axır zamanda nə deyəcəklər (3-4-cü ayələr)? Onlar nəyi unudurlar (5-7-ci ayələr)?

9. Allahın vaxtı hesablamaq qaydası bizimkindən necə fərqlənir (8-9-cu ayələr)? 9-cu ayənin axırıncı hissəsinə baxın. Allah nəyi gözləyir? Bu bizə Allahın bütün insanlara olan sevgisi barədə nə söyləyir?

10. 10-13-cü ayələri yenidən oxuyun. Rəbbin gəlişi zamanı günlərin necə olacağını təsvir edin.

    Həmin günə hazırlaşmaq üçün biz nə edə bilərik? (11 və 14-cü ayələrə baxın.)

11. 17-18-ci ayələrdə necə yaşamalı olduğumuzu bilmək məqsədilə Peter bizə hansı sonuncu təlimləri verir?

    İndi öz həyatınız barədə düşünün. Siz İsanın gəlişi üçün hazırsınızmı? Siz hazır olmaq üçün nəyi dəyişməlisiniz? Bu şeylər barədə dua etmək üçün bir az vaxt ayırın.

***“Əgər biz Allahın düşməni olduğumuz vaxt Onun Oğlunun ölməsi ilə Allahla barışdıqsa, barışdıqdan sonra Onun həyatı vasitəsilə daha qəti olaraq xilas olacağıq.”***
***Romalılara 5:10***

# RƏBBİN SÜFRƏSİNİ QƏBUL EDİB ONUN ÖLÜMÜNÜ XATİRLAYIN

***Onlar yeyəndə İsa çörək götürdü, şükür duası edib onu böldü və şagirdlərə verərək dedi: "Alın, yeyin! Bu Mənim bədənimdir". Sonra bir kasa götürdü və şükür edib onu da şagirdlərə verərək dedi: "Bundan hamınız için! Çünki bu, Əhdin bağlanması və günahların bağışlanması üçün çoxları uğrunda axıdılan Mənim qanımdır. (Matta 26:26-28)***

İsa mükəmməl müəllim idi. Lakin İsa sadəcə bizi öyrətmək üçün gəlmədi. O, bizim üçün ölməyə gəldi. Onun ölümü və dirilməsi bizim imanımızın mərkəzidir. Onun ölümü bizim üçün həyat ifadə edir.

Allahın Oğlunun dünyanın günahları üçün ölməsi və milyonlarla imanlıların bunu unutması bir faciə olardı. İsanın şagirdlərinin axmaq mübahisələr və xudbinlik səbəbindən Onun ölümünün mənasını unutması kədərli deyilmi? İsa bilirdi ki, biz Onun ölümü barədə tez-tez düşünməliyik, çünki bu bizim imanımızın əsasıdır. Biz həmçinin bunu dərindən dərk edərək yadda saxlamalıyıq. Bu səbəbdən, O, bizə Rəbbin süfrəsini qəbul etmək əmrini vermişdir.

İsanın ölümü bizim ağlımız vasitəsilə tamlığı ilə dərk oluna bilməz. Biz Rəbbin süfrəsini qəbul edəndə, ruhumuzun dərinliyində nəsə baş verir. Onun **bizim üçün** öldüyünü xatırlayanda biz möcüzəli surətdə Onun həyatı və qurbanverici məhəbbəti ilə doluruq. Biz yenidən Onu öz Xilaskarımız və Rəbbimiz kimi qəbul edirik. Bütün dünyada olan imanlılar bilirlər ki, çörəyi və kasanı qəbul etmək onlara yeni cəsarət və ümid verir.

Növbəti dərslər sizə və qrupunuza ***"Rəbbin nə qədər şirin olduğunu dadıb görməyə"*** kömək edəcək. (Məzmur 34:8)

Mündəricat

# 44. Həyat Çörəyindən Yeyin Və Əbədi Yaşayın

***Bu Dərs Rəbbin Süfrəsində Iştirak Etmək Haqqında Olan Növbəti Dərsə Girişdir.***

**Müzakirə üçün sual:**

İsa deyir ki, "İnsan  yalnız çörəklə deyil, Allahin ağzından çıxan hər kəlmə ilə yaşayar" (Matta 4:4). Sizin fikrinizcə, O bununla nəyi nəzərdə tuturdu?

**Yəhya 6:25-70-ni oxuyun.**

> **Bu parçanın məzmununa diqqət yetirin:**
>
> 6-cı fəslin birinci hissəsində İsa 5000 insanı yedirtmək üçün çörək və balığı çoxaltdı. Belə heyrətli möcüzədən sonra İsa oranı tərk etdi, amma insanlar Onu axtarırdılar.

1. 25-29-cu ayələri yenidən oxuyun.

   İsa xalqa deyir ki, onlar Onun Məsih olmasına inanmaq üçün möcüzəli əlamətlərini axtarmırlar. Bunun əvəzinə onlar **"yeyib-doymaq"** üçün Onu axtarırdılar. Onlar sadəcə başqa bir pulsuz yemək istəyirdilər!

   Əgər biz İsanı Onun verə biləcəyi yalnız fiziki xeyir-dualar üçün axtarırıqsa, Onun haqqında hansı vacib bir şeyi görə bilməyəcəyik?

2. Sizcə, 27-ci ayədə İsanın haqqında danışdığı **"əbədi həyat verən, daim qalan yemək"** nədir?

3. Onda insanlar Allahın işini görmək üçün nə etməli olduqlarını bilmək istədilər (28-ci ayə). İsanın cavabı nə oldu (29-cu ayə)?

   İsaya inanmaq nə üçün Allahı məmnun salır?

4. 30-40-cı ayələri yenidən oxuyun.

   > **Mədəniyyətə aid qeyd:** Musa İsrail xalqının Misirin əsarətindən çıxıb Kənan torpağın agetməsinə rəhbərlik edəndə onlar 40 il səhrada qaldılar. Bu vaxtlarda Allah onların qidalanması üçün möcüzəli şəkildə səmadan çörək ("manna" adlanan) təmin etmişdi (Çıxış 16:4).

   Səmadan olan əsl çörəyi kim verir (32-ci ayə)? Bu çörək dünyaya nə verir?

5. Sonra insanlar belə çörəkdən istəyirlər ki, onlara verilsin. İsa 35-ci ayədə bu çörəyin nə olmasını aydın söyləyir. Səmadan olan çörək nədir?

6. 41-59-cu ayələri yenidən oxuyun. İsanın dediklərinə görə onların atalarının səhrada yediyi çörəklə həyat çörəyi arasında hansı fərq var?

   51-ci ayədə O bu həyat çörəyini necə təsvir edir? O bunun nə olduğunu deyir?

   İnsanlar elə bilirdilər ki, O sözün əsl mənasında danışır. Mən və sizin verə biləcəyiniz sualı onlar da verdilər: "Bu Adam yemək üçün Öz ətini bizə necə verə bilər?" (52-ci ayə)

7. 53-59-cu ayələrə bir daha nəzər yetirin. "Həyat" və ya "yaşamaq" sözlərinə neçə dəfə rast gəlirsiniz? Bu sözləri istifadə edən hər cümləni oxuyun. İsa vacib bir həqiqəti müxtəlif yollarla bir neçə dəfə təkrar edir. Onun dediyinə görə əsl həyat haradan gəlir?

8. İsa bu ayələrdə bəzi çətin məsələrə toxunur. O **"Mənim ətim əsl yeməkdir və mənim qanım əsl içkidir"** deməklə nəyi nəzərdə tutur? O nə üçün **"...Məndən yeyən də Mənim sayəmdə yaşayacaq"** söyləyir? (**Qeyd:** bu suallar haqda düşünmək üçün bir neçə dəqiqə vaxt ayırın. Sonra isə əgər cavablarınızdan əmin deyilsinizsə, dərsə davam edin. Bu sözləri 11-ci bənd anlamağa kömək edəcəkdir.)

9. 60-65-ci ayələri yenidən oxuyun.

   61 və 62-ci ayələrdə İsa insanlara deyir ki, Onun əvvəllər olduğu yerə qalxdığını görsələr daha da narahat olacaqlar. Sizcə, İsa əvvəllər harada olub? Bu yəhudiləri nə üçün narahat edərdi? Onlar inanmaq istəyirdilərmi ki, bu adi bir dülgər Allahın Məsihi ola bilər?

10. 63-cü ayədə İsa əvvəlki ayələrdə danışdığı çətin məsəl kimi danışmır, artıq O, tam aydın danışmağa başlayır. Onun dediyinə görə, həyat haradan gəlir?

11. İsa bu ayədə aydınlıq gətirir, əgər hətta biz onun ətini sözün əsl mənasında yeyə bilsəydik və Onun qanını içə bilsəydik, biz bununla heç nə əldə edə bilməzdik. Həyat Ruhdan gəlir. 63-cü ayəyə görə İsa Öz həyatını və Ruhunu onlara görə verdiyini necə ifadə edir?

    İsanın ət və qan haqda olan ağır sözlərini başa düşmək üçün bu ayə sizə necə kömək edir?

    Siz gündəli olaraq Onun həyat verən sözləri ilə **"qidalanırsınızmı"?**

12. 66-68-ci ayələri yenidən oxuyun. İsanın ağır sözlərinə çox insanlar necə cavab verdilər?

Bəzi insanlar İsanın ardınca getməyi dayandırandan sonra O Öz şagirdlərindən nə soruşdu? İsaya Peterin cavabı nə oldu (68-ci ayə)?

13. Peterin İsaya dediyi sözlər haqqında danışın. Siz inanırsınızmi ki, əbədi həyat kəlamlarını yalnız İsada tapmaq olar? Siz də iman edir və bilirsinizmi ki, Allahın Müqəddəsi Odur?

    Əgər siz İsaya iman etmisinizsə, sizdə əminlik varmı ki, Onda əbədi həyata maliksiniz? Belə gözəl hədiyyə üçün Ona təşəkkür etməyə vaxt ayırın. Və Ondan tez-tez ruhani həyat (məs. ruhani qidalanma) almağı unutmayın.

# 45. Rəbbin Süfrəsində İştirak Etməklə İsanın Ölümünü Yada Salın

**Müzakirə üçün sual:**

Rəbbin süfrəsində nəyə görə iştirak edirik?

**Giriş:** İsa çarmıxa çəkilməzdən bir gecə əvvəl həvariləri ilə yəhudilərin vacib bayramlarından birini qeyd etdi. Həmin vaxt həvarilərinə ölümünü yada salmaq üçün çox sadə, amma mənalı bir yol göstərdi. Biz onu **"Rəbbin Süfrəsi"** adlandırırıq. Gəlin, birlikdə İsanın həmin gecə dediklərini və etdiklərini öyrənək. Eləcə də iki min il sonra imanlılar ilə birlikdə qeyd etdiyimiz Rəbbin süfrəsinin bizim üçün nə məna daşıdığı barədə düşünək.

**Luka 22:1-23-ü oxuyun.**

1. 1-6-cı ayələri yenidən oxuyun. 2-ci ayədə yəhudi rəhbərlər İsaya nə etmək istəyirdilər? Şeytan onların niyyətlərinə yardım etmək üçün Yəhudadan necə istifadə etdi (3-6-cı ayələr)?
2. 7-8-ci ayələri oxuyun və həm də 1-ci ayəyə baxın. Yaxınlaşan yəhudi bayramının iki adı nə idi?

**Mədəniyyətlə əlaqədar qeyd:**

İsa yer üzünə gəlməzdən təxminən 1500 il əvvəl İsrail xalqı Misirdə əsarətdə idi. Onlar əsarətdən çıxdıqları gündən əvvəlki gecə Allah hər bir Misir ailəsinə dəhşətli cəza göndərdi. İnsanların və heyvanların ilk doğulan balası Allahın mələyi tərəfindən öldürüldü. Bu cəza nəhayət, Firona (Misir padşahı) təsir etdi və o, İsrail xalqını buraxdı. Cəzadan yəhudiləri qorumaq üçün Allah əmr etdi ki, hər bir İsrail ailəsi quzu kəssin və evlərinin qapısının kənarına qanını çəksin. Ölüm mələyi qanı görəndə həmin evdən yan keçirdi və heç kim ölmürdü.

Allah eləcə də əmr etdi ki, israillilər mayasız çörək bişirsinlər ki, Misirdən çıxıb gedəndə özləri ilə götürsünlər. Bu ona görə idi ki, onlar mayanın acımasını gözləyə bilməzdilər. Hər il yəhudi xalqı bu bayramları qeyd etməli idi ki, Allahın onları Misir torpağından necə xilas etdiyini yada salsınlar.

Bu bayramlar haqqında daha ətraflı öyrənmək üçün siz **Qanunun Təkrarı 16:1-8-də** qısa məlumatı və ya **Çıxış 12-ci fəsildə** isə bütün hadisə barədə oxuya bilərsiniz. Mayasız Çörək bayramı yeddi gün olurdu. Bayramın birinci günündə Pasxa qeyd olunurdu.

3. Pasxa çox-çox illər sonra baş vermiş İsanın ölümünü necə təsvir edir?

   Sizcə İsanın Pasxanın qeyd edildiyi vaxt ölməsi əhəmiyyətli idi? Bunu izah edin. **(Yəhya 1:29-da** vəftizçi Yəhya İsanı kim adlandırdı?)

4. 7-13-cü ayələri yenidən oxuyun. Pasxa bayramı haqqında bildiyiniz məlumatlara əsasən həvarilər hazırlaşmaq üçün hansı işləri görmüşdülər?

5. 14-cü ayəyə əsasən süfrə başında İsa ilə kimlər oturmuşdu? **(Matta 26:20-də** dəqiq deyilir ki, Onun ilə kimlər oturmuşdu.)

   15-ci ayədə İsanın bu vaxt barədə dediklərinə diqqət yetirin. Bu səhnəni fikrinizdə canlandırmağa çalışın. Bu vaxt İsa və həvariləri üçün necə şəxsi və əhəmiyyətli vaxt ola bilərdi?

6. 17-18-ci ayələri oxuyun. İsanın ölümü və dirilməsi ilə Allahın Padşahlığı necə gəldi?

7. 19-cu ayəni oxuyun. İsanın bu ayədə olan bütün hərəkətləri və sözləri vacibdir. İsa çörəklə hansı üç hərəkəti etdi? İsa çörəyi **böləndə** və həvarilərinə **verəndə** Onun bədəninə nə olacağını necə təsvir edirdi?

   O çörəyin nə oldugunu deyir? İsa Öz bədənini necə təsvir etdi?

8. 20-ci ayəni oxumaq və onun üzərində düşünmək üçün bir neçə dəqiqə vaxt ayırın. İsa şərab kasasının nə olduğunu söylədi? Onun qanında olan bu **"yeni əhd"** nədir?

   **İbranilərə 9:13-15-i oxuyun**. Təkələrin və buğaların qanının insanların üzərinə səpilməsi nə məqsədi daşıyırdı (köhnə əhdin tələb etdiyi kimi: 13-cü ayə)? Məsihin ölümü bizim üçün nə məqsəd daşıyırdı (yeni əhd: 14-cü ayə)?

9. Biz nəyə görə çörəkdən yeməliyik və şərabdan içməliyik (Luka 22:19-cu ayə)?

10. İsa bizim nəyi xatırlamağımızı istəyir? (19-cu ayəyə, eləcə də **1 Korinflilərə 11:26-cı ayəyə baxın.)**

    Rəbbin ölümünü xatırlamaq nəyə görə belə vacibdir? Onun bədəninin bizim üçün qırıldığını və Onun qanının bizim üçün axdığını xatırlamaq nəyə görə vacibdir?

**Qeyd:** Yalnız Məsihin ölümü vasitəsilə günahlarımız bağışlanır və Ata Allah ilə düzgün ünsiyyət əldə edə bilirik. Bu yeganə ən vacib həqiqətdir ki, İsanın davamçılarını başqa dinlərin davamçılarından fərqləndirir.

İsanın Pasxa bayramı günündə yuxarı otaqda başladığı bu adət bütün İsanın davamçıları tərəfindən tanınmışdı. İki min ildir ki, imanlılar bir yerə yığılıb Onun bu əmrini yerinə yetirərək, çörək və şərab (şirə) qəbul edirlər. Bunu etməklə onlar, İsanın qurbanı vasitəsilə, günahlarının bağışlanması həqiqətini bir daha xatırlayırlar. Yeni əhdə imanla onlara yönəldilmiş Şeytanın iddihamları susdurulur. Onların imanı güclənir və xilas sevinci yenilənir.

11. Rəbbin süfrəsini qrup halında qəbul etmək üçün indi yaxşı vaxtdır. Hazırlaşarkən Luka 22:14-20-ni yenidən oxuyun. İsa əmr etdiyi kimi Onun sizin üçün böyük sevgisinə görə ölümə getməsini xatırlayın. Allahın qurbanı və Məsihdə olan yeni həyatınız üçün Ona minnətdarlığınızı bildirin. **Heç vaxt** Rəbbin süfrəsinin sizin üçün mənasız bir ritual (adət) olmasına imkan verməyin!

# 46. Rəbbin Süfrəsində İştirak Edəndə Öz Ürəklərinizi Yoxlayın

**Müzakirə üçün sual:**

Bir qrupda Rəbbin Süfrəsini qəbul edəndə edilən şeylərdən sizin üçün hansıları daha çox məna kəsb edir? (Məsələn, onu bir-birinizə ötürmək, birgə iştirak etdiyinizə görə bir-biriniz üçün dua etmək, qəbul etməzdən əvvəl sakit vaxt keçirmək və s.)

**1 Korinflilərə 11:17-34-ü oxuyun.**

1. 18-ci ayəni yenidən oxuyun. Paul Korinfdəki toplantıları haqda nə dedi?
2. O onların Rəbbin Süfrəsini qəbul edərkən nəyin yaxşı olmadığını deyirdi (20-22-ci ayələr)? Onların qəbul etdiyi həqiqətən Rəbbin Süfrəsi idi? Onlar nə edirdilər ki, bir-birinə məhəbbət və şəfqət nümunəsi olmurdular?
3. 23-cü ayəni oxuyun. Paulun dediyinə görə Rəbbin Süfrəsi haradan gəlir? Rəb İsa Öz şagirdlərinə Onun ölümünü xatırlamaları üçün ilk dəfə bunu nə vaxt təqdim etmişdi?
4. 24-25-ci ayələrə yenidən baxın. İsa nəyi çörək adlandırdı? O nəyi şərab dolu kasa adlandırdı?

   Onlar çörək və şərabı qəbul edəndə 26-cı ayəyə görə nəyi bəyan edirdilər? Onlar kimi xatırlayırdılar?
5. 17-22-ci ayələrdə biz Korinfdəki Məsihçi cəmiyyətinin pis davranışlarını görürük. Daha sonra 23-26-cı ayələrdə İsanın satıldığı gecə Atasına itaətkarlıq göstərməsinə diqqət yetirin. Bu Paulun sonra dediyini anlamağımıza kömək edir.

   27-34-cü ayələri yenidən oxuyun. Sizcə, Rəbbin Süfrəsini layiq olmayan tərzdə qəbul etmək haqda danışanda Paul nəyi nəzərdə tuturdu?
6. 29-cu ayədə **“Rəbbin bədənini dərk etməmiş”** ifadəsini deyəndə o nəyi nəzərdə tutur? Rəbbin Süfrəsi zamanı Korinfdəki İsanın Cəmiyyətinin davranışı Rəbbin bədənini necə dərk etməmişdi? İsa satıldığı gecə göstərdiyi itaətkarlıq davranışını onlar da göstərirdilərmi?
7. Paulun dediyinə görə (28-31-ci ayələr), özümüzü yoxlamaq yaxşıdırmı? Bu parçaya görə biz özümüzü düzgün dərk edəndə nə baş verir (31-ci ayə)?

   Bəs Rəbb bizi mühakimə edəndə nə baş verir (32-ci ayə)?

Əgər ürəklərimizdə sevginin olmamasını və ya digər günahlı davranışları görürüksə nə etməliyik? **(1 Yəhya 1:9-cu ayəni açıb oxuyun.)**

8. 33 və 34-cü ayələrdə Paulun ümumiləşdirici sözlərini yenidən oxuyun. Məsihin həmin cəmiyyətində onları hansı davranışa həvəsləndirməyə çalışırdı?
9. Rəbbin Süfrəsində iştirak edəndə öz düşüncələrinizdə diqqətinizi nəyə yönəltməlisiniz?
10. Diqqət yetirin, oxuduğumuz bu parçada Paul nə Rəbbin Süfrəsinin NECƏ edilməsi, nə də onu KİMİN verməsi haqda heç nə demir. Amma onu qəbul edəndə ürəklərimizin münasibətinin necə olması haqda danışır. Rəbbin Süfrəsini bundan sonra yeni münasibətlə, Onun sizlər üçün etdiyi hər şeyi və **"Məsihin Bədənini dərk edərək" qəbul edəcəksinizmi?**

    Rəbbin Süfrəsini qəbul etməzdən əvvəl öz ürəklərinizi yoxlamaq, hansısa günahınızı Rəbbə etiraf etmək və Onun təmizləməsini almaq üçün vaxt ayırın. Sonra isə itaətkarlıq göstərərək, sizə görə qurban verməsi üçün şükür edərək Məsihin bədənini və qanını qəbul edin.

***"...sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin."***
***Matta 28:20***


Mündəricat

# GEDİN VƏ ŞAGİRDLƏR EDİN

***...Ardımca gəlin, Mən sizi elə balıqçı edəcəyəm ki, insan tutacaqsınız. (İsa Peter və Andreyə dedi, Mark 1:17)***

***Sənsə, ey oğlum, Məsih İsada olan lütflə güclən. Bir çox şahidlərin önündə məndən eşitdiyin sözləri başqalarına da öyrətməyə qadir olan sadiq adamlara həvalə et. (Paulun Timoteyə məktubu, 2 Timotey 2:1, 2)***

Bu barədə düşünün: İsa Öz xidmətini 12 nəfərin Ondan öyrənməsi, Ona inanması və Ona tabe olması ilə başladı. Bu gün dünyanın bütün ölkələrində İsanın ardıcılları vardır. Allahın Padşahlığı 2,000 il daha böyümüşdür, çünki İsanın şagirdləri daha çox şagirdlər yetişdirmişlər!

İndi 21-ci əsrdir. İndi bizim şagirdlər yetişdirmək dövrümüzdür. Milyonlarla insanın həyatverən müjdəni eşitməyə ehtiyacı vardır. Onlar İsanın dünyanın günahı üçün öldüyünü və ölülərdən dirildiyini eşitməlidirlər! Onlara öyrədilməlidir ki, İsa Məsih bizim əbədi xilasımızın ümididir. Onlar İsanın əmrlərini öyrənməlidirlər.

Bu dərslər sizə İsanın yolunu izləyən şagirdlər yetişdirməyi öyrənməyə yardım edəcəkdir.

# 47. Gedin Və Bütün Millətləri Şagird Edin

**Müzakirə üçün sual:**

Sizin fikrinizcə, İsanın şagirdləri "supermen" kimi qəhrəman idilər, yoxsa bizim kimi adi insan? İsanın ardınca tam getmək üçün nə cür qorxularınız var?

**Mark 1:14-20-ni oxuyun.**

1. İsa Özünün ilk şagirdlərini çağırmaq üçün haraya getdi (16-cı ayə)? Onların sənətləri nə idi? Onlar dini rəhbər kimi hazırlanmışdılar?

2. Onlara ardınca getmələrini deyəndən sonra, İsa onlardan nə hazırlayacağını dedi (17-ci ayə)?

   Aşağıdakılar oxumazdan əvvəl, İsanın yerdə olduğu müddətdə necə **"insan tutduğu"** barədə müzakirə edin.

**Balıq əvəzinə şagirdlər "insan tutan" olmağı İsadan necə öyrəndilər?** Bunu yadda saxlamaq çox mühümdür ki, şagirdlər dini rəhbərlər kimi təlim almasalar da, onlar üç il İsa ilə səyahət etdikcə, İsa onları öyrətmişdir. Onlar İsanın Allahın Padşahlığı barədə öyrətdiyini eşitmişdilər. Onlar İsanın şəfa möcüzələri etdiyini və insanları Şeytanın hakimiyyətindən azad etdiyini görmüşdülər. Onlar İsanın özlərini guya Allahın ardınca gedən kimi göstərən dindar ikiüzlülərə qarşı durduğunu görmüşdülər. Onlar Onun Allahın mərhəmətindən danışaraq və onları tövbəyə və yeni həyata çağıraraq onlara olan şəfqətini görmüşdülər. Və üç il ərzində, O şagirdlərini İsraildəki ətraf kəndlərə göndərdi ki, onlar da eyni işləri görsünlər. İsa yer üzünü tərk edəndə, şagirdlər insan tutanlar olmağı öyrənmişdilər.

**Matta 28:16-20-ni oxuyun.**

3. Bu hadisə İsanın çarmıxa çəkilməsindən və ölülərdən dirilməsindən sonra, göylərə gedən ərəfədə baş verdi.

   İsa onlara Ona nəyin verildiyini dedi (18-ci ayə)? İsanın səlahiyyəti sizin üçün nə deməkdir? Bu sizdə necə əminlik yaradır?

4. 19-cu ayədə İsa şagirdlərinə harasa getməyi dedi. Onlar haraya getməli idilər və nə etməli idilər?

   Onlar insanları kimin adı ilə vəftiz etməli idilər?

5. 20-ci ayəyə yaxşı baxın. Biz insanları şagird edəndə, biz onlara nəyi öyrətməliyik?

Əgər kimsə hər həftə imanlı cəmiyyətinə gedirsə, amma İsanın təliminə itaət etmirsə, siz o şəxsi İsanın şagirdi adlandırardınızmı?

Bu Müqəddəs Kitab dərslərinin məqsədi bizə İsa Məsihin ardınca necə getməyi öyrətməkdir. O **Yəhya 14:15-də** deyib, **“Əgər Məni sevirsinizsə, əmrlərimə riayət edəcəksiniz.”** İndi özün barədə düşünün. İsanın şagirdi olacağını düşünürsünüz?

6. İsanın şagirdi olmağın bir hissəsi də başqalarını Onun şagirdi olmağa öyrətməkdir. Başqa sözlə desək, biz **“insan tutanlarıyıq”.** Biz Peterin və Yəhyanın öyrəndiyi işi etməyi davam etdiririk. 2000 il İsanın şagirdləri başqalarına xilas üçün İsaya etibar etmələrini öyrədiblər. Onlar həmçinin insanlara Onun gözəl təlimlərinə itaət etməyi də öyrədiblər. Xoş-Xəbər bu yolla bütün dünyaya yayılıbdır. Bu sizə və mənə də gəlib çatıbdır, çünki insanlar İsanın onlara dediyi nə etmək lazım olduğunu ediblər.

   Başqalarına İsanın ardınca getməyi öyrətməyə başlamısınızmı? Dostlarınız, ailəniz, yaxud yeni tanışlarınız barədə fikirləşin. İsa barədə kimə öyrətməyə başlaya bilərsiniz? Bu barədə danışmaq üçün indi vaxt ayırın.

   İnsanları şagird edəndə, Əhdi-Cədid kitabından istifadə etməyi unutmayın. Həmçinin, siz bu Müqəddəs Kitab dərsliklərindən də istifadə edə bilərsiniz.

7. İsa şagirdlərini tərk edərkən onlara hansı sonuncu vədi verdi (20-ci ayə)? Bu vəd sizə necə təsəlli və cəsarət verir?

   Bu vaxtı Allaha sizə başqalarına İsanın ardınca getməyi öyrətmək üçün imkan verməsini dua etməklə bitirin.

# 48. Xoş Xəbəri Sizə Yaxın Olan Adamlarla Bölüşün

**Müzakirə üçün sual:**

Sizi ilk dəfə kim İsa Məsihə təqdim edib və necə?

**Giriş:** Vəftizçi Yəhya insanları Məsihin gəlişinə hazırlamaq üçün Allah tərəfindən göndərilmişdir. O İsanın xidmətə başlamasından qısa müddət əvvəl təbliğ etməyə və vəftiz etməyə başladı. Adamlar kütləvi şəkildə onun yanına vəftiz olmağa gəlirdilər və bəziləri onun şagirdi kimi onunla qalırdı.

**Yəhya 1:29-34-ü oxuyun.**

1. Yəhya İsanı necə salamladı (29-cu ayə)?

   34-cü ayədə Yəhya İsanın kim olduğunu dedi? Yəhya Onu necə tanıdı (32-33-cü aylər)?

**İndi 35-51-i oxuyun.**

2. Yəhyanın iki şagirdi onun İsanı **"Allahın Quzusu"** adlandırdığını eşidəndə, onlar nə etdilər (36-37-ci ayələr)?

   Yəhya insanları günahlarından dönmələrinə ona görə çağırırdı ki, çünki Allahın Padşahlığı yaxınlaşırdı. Sizcə, onun təbliği bu iki şagirdin İsanın ardıcılı olmaq üçün necə hazırlamışdır?

3. 37-39-cu ayərlərdə İsanın iki şagird ilə söhbətini oxuyun. 39-cu ayədə İsa onlara nə dəvət etdi?

   Qeyri-imanlı dostlar və qohumlar ilə vaxt keçirmək, sizcə, nə qədər vacibdir? Əgər biz onları öz evlərimizə dəvət etsək və onlara həyatlarımızı daha yaxından görməyə izin versək, bu onlara İsanı tanımaqda necə kömək edə bilər?

   İnsanlar sizin həyatınıza yaxından baxanda İsanı görürlərmi?

4. 40-42-ci ayələri oxuyun. Andrey İsanın ardınca getməyə qərar verdikdən sonra birinci etdiyi şey nə idi?

> **Qeyd:** Bir çox peyğəmbərlər Məsihin gəlişini peyğəmbərlik etmişdilər. Yəhudi xalqı yüz illərlə Onu gözləyirdi. Şimon (Peter) üçün bu həyəcanlı xəbər olmalı idi! Çox insanlar bü gün Məsihi gözləmirlər. Amma biz yadda saxlamalıyıq ki, hər bir kəsin öz günahından azad olmasına böyük ehtiyacı var. Onlar ölü insanlar kimi yaşayırlar və yalnız İsanın verə biləcəyi həyata ehtiyacları var.


Mündəricat

Elə bir ailə üzvləri varmı ki, onlara İsanı tanımaqda kömək edə bilərsiniz? Bu xoş xəbəri bölüşməkdən sizi nə saxlayır?

5. 43-46-cı ayələri oxuyun. Filip İsa onu çağırandan dərhal sonra nə etdi (45-ci ayə)? Filip İsanın kim olduğunu dedi?

   Natanael necə cavab verdi? İsa barədə kiminləsə bölüşəndə və onların cavabı neqativ (mənfi) olanda siz məyus olursunuzmu?

6. Filip Natanaeli ***"gəl və özün gör"*** deyə dəvət etdi. Biz də həmçinin insanları İsanın kim olduğunu gəlib görməklərinə görə Əhdi-Cədiddən istifadə edərək necə dəvət edə bilərik?

7. 47-51-ci ayələri oxuyun. Natanaelin imansızlığını imana nə dəyişdi?

   Kiminləsə xoş xəbəri bölüşəndə, İsanın onların həyatlarına daxil ola bilməsinə və onları dəyişə bilməsinə həqiqətən inanırsınızmı? Əgər biz effektiv müjdəçilər olmaq istəyiriksə, buna inanmaq nə üçün vacibdir?

8. 44-cü ayəyə baxın. İsanın dörd şagirdi hansı şəhərdən idi? Ailələr, yaxud iş yoldaşları ilə birgə olaraq təbii qruplaşma ilə müjdəçilik etməyin üstün cəhətləri hansılardır?

9. Markın müjdəsi 5:1-20-də İsa natəmiz ruh qoşununa tutulmuş insanı azad etdi. İsa onu azad edəndən sonra, ona nə etməyi tapşırdı? **(Mark 5:18-20-ni oxuyun.)**

10. Bəzən biz müjdəçilik deyəndə, harasa getmək və yad adamlarla nə isə etmək kimi fikirləşirik. Sizin elə ailə üzvləriniz, qonşularınız, yaxud dostlarınız varmı ki, onlar ilə heç vaxt xoş xəbəri bölüşməmisiniz? Sizi bunu etməkdən nə saxlayır?

    Gələn həftə hansısa xüsusi bir adam ilə danışmaq barədə düşünün. İndi dua edin və Allahdan sizə cəsarət, müdriklik və bu şəxs ilə İsa haqqında bölüşmək üçün imkan yaratmasını diləyin.

# 49. Uşaqlara İsanı Sevməyi Və Xidmət Etməyi Öyrədin

**Müzakirə üçün sual:**

Sizcə uşaqlara hansı yaşda İsa barədə öyrətmək lazımdır? Onlar ruhani həqiqətləri uşaq yaşlarında başa düşə bilərlər, yoxsa onların daha yaşlı olmalarını gözləməliyik?

**Mark 10:13-16-nı oxuyun.**

1. 13-cü ayəni yenidən oxuyun. İnsanlar kiçik uşaqları İsaya gətirəndə, şagirdlər buna necə cavab verdilər?

   Sizcə, onlar niyə bu yolla cavab verirdilər?

2. İsa şagirdlərin münasibəti barədə necə hiss edirdi (14-cü ayə)? 14-15-ci ayələrdəki İsanın sözlərini onlara oxuyun. İsanın uşaqlara olan davranışı şagirdlərin davranışından necə fərqlənirdi?

3. İsa **“Allahın Padşahlığı belələrinə məxsusdur.”** – deyəndə nəyi nəzərdə tuturdu (14 və 15-ci ayələr)?

   Allahın Padşahlığının bir hissəsi olmaq istəyiriksə, uşaqlardan özümüzə nəyi öyrənib mənimsəməliyik?

4. Sonra İsa nə etdi (16-cı ayə)? O uşaqlara qarşı necə hiss edirdi?

5. **İndi Mark 9:36-37-ni oxuyun.** Bu ayələrdə İsa uşaqlara necə hörmət göstərir?

6. **Matta 21:14-17-ni oxuyun.** Dini rəhbərlər məbəddə uşaqların ucadan nə qışqırmaqlarını eşitdilər? Onlar bu barədə necə hiss etdilər?

> **Qeyd:** İsanın doğulmasından yüz illər əvvəl, peyğəmbərlər Xilaskarın gələcəyini və Onun Davudun nəslindən olacağını demişdilər. Kimsə **“Davud Oğlu”** deyəndə, bütün Yəhudilər bilirdilər ki, bu Allahın göndərəcəyi Məsih, yaxud Xilaskar haqqındadır. Dini rəhbərlər inanmırdılar ki, İsa, Nazaretdən olan dülgər, Məsih ola bilər. Buna görə də, onlar uşaqların Onu **“Davud Oğlu”** adlandırmağına qəzəbli idilər. Dini rəhbərlər İsanın kim olduğunu dərk etməsələr də, uşaqlar bunu dərk etdilər.

7. 16-cı ayəni yenidən oxuyun. İsa uşaqları Ona həmd etməkdən saxladımı? Sizcə, onlar İsaya dedikləri barədə O necə hiss etdi?

   Sizcə, İsaya ibadət etməkdə uşaqlar da iştirak etməlidir? Sizin ibadət vaxtlarınızda onların da payı varmı?

8. Timotey həvari Paulun şagirdi idi. Gənc bir adam kimi o erkən imanlı cəmiyyətində rəhbər oldu.

   **2-ci Timotey 1:5-i oxuyun.** Timotey Müqəddəs Yazıları kimdən öyrənmişdir?

9. **2-ci Timotey 3:14-15-i oxuyun**. Timotey Allahın yollarını hansı yaşda öyrənməyə başlamışdır? İmanlılar cəmiyyətinin görüşlərində bir rəhbər olmağa bu təlim onu necə hazırlamışdı?

10. Əgər siz valideynsinizsə, uşaqlarınıza Allahın Sözünü öyrətmək üçün nə edirsiniz? Sizin gündəlik olaraq evdə Kəlamı oxumaq və dua etmək üçün vaxt ayırırsınız?

    Əgər sizin bacınız yaxud qardaşınızın qızı, oğlu varsa, nəvələriniz, yaxud sizə yaxın olan uşaqlar varsa, Allahın Sözünü onlara öyrətmək üçün yollar axtarırsınızmı?

11. Sizin toplantılarınızda uşaqlara yer verilirmi yoxsa, valideynlər elə hiss edirlər ki, uşaqlarını gətirməməlidirlər? Siz görüşəndə uşaqlara Allahın Sözünü öyrədirlər, yoxsa oynamaq üçün onları başqa otağa yollayırlar? Uşaqlara Allah barədə öyrənməyə kömək etmək üçün siz nə edirsiniz? Onları İsa etdiyi kimi qəbul edirsiniz və xeyir-dua verirsiniz, yoxsa siz də şagirdlərin olduğu kimi qıcıqlanırsınız?

    Tanıdığınız uşaqlara görə dua etmək üçün vaxt ayırın. Onların İsaya sevgi ilə necə böyüməlerinə yardım etmələri üçün Allahdan sizə ideyalar verməsini istəyin.

# 50. Allahın Padşahlığını Cəsarətlə Vəz Edin Və İsanın Möcüzələr Edəcəyinə İnanın

**Müzakirə üçün sual:**

Allahın ruhani və ya fiziki ehtiyacları olan insanlara sevgisini və mərhəmətini möcüzələr bizə necə göstərir?

**Giriş:** İsa yer üzündə Öz xidmətinə başlayanda O, on iki həvari seçdi. Həvarilər Onunla birlikdə səyahət edirdilər, eləcə də Onun təlimlərini və yollarını öyrənirdilər. İsa Atanın yanına qayıdandan sonra onlar Xoş Xəbəri dünyanın hər bir yerinə yaymaqla Onun işini davam etdirdilər. Bu işdə onlara bir çoxları qoşulurdu. O, on iki həvarisini seçəndən az sonra onları Yəhudanın şəhərlərinə və kəndlərinə göndərdi.

Gəlin, İsa həvarilərini göndərərkən onlara verdiyi təlimlərə nəzər salaq.

**Matta 10:7-8-i oxuyun.**

1. 7-ci ayəyə əsasən onlar nəyi vəz etməli idilər? Sizcə, bunun mənası nə idi?

   İsanın gəlişi Səmavi Padşahlığı (Allahın Padşahlığı da adlanır) yer üzünə necə gətirdi?

2. 8-ci ayədə İsa onlara başqa nə etməyi söylədi? Bu möcüzələr insanlara Allahın Padşahlığının yaxınlaşdığını necə göstərirdi? Təsəvvür edin ki, bu şeylər ümidsiz vəziyyətlərdə insanlara necə ümid bəxş edirdi.

   Bu möcüzələr İsanın sadəcə başqa bir dini müəllim olmadığını necə göstərirdi? Bu gün möcüzələr imansızlara İsanın əsrlər boyu olan hər bir dini rəhbərdən fərqli olduğunu necə göstərir?

> **Qeyd:** İsanın yer üzündə üç il xidməti zamanı O, bir çox möcüzələr göstərdi. Çox vaxt O, xəstə insanlardan ibarət olan böyük bir izdihama şəfa vermişdi. O, minlərlə insanı yedizdirmək üçün yeməyi artırmışdı. O, hətta ölüləri diriltmişdi. İsa göylərə qalxdıqdan sonra həvariləri Onun adı ilə bir çox möcüzələr törətməkdə davam etdilər.

3. **Həvarilərin İşləri 3:1-10-u oxuyun.** Peter və Yəhya hara gedirdilər? Şikəst dilənçinin başına gələnləri təsvir edin (2-8-ci ayələr).

4. 9-10-cu ayələri yenidən oxuyun. Məbəddə olan izdiham şikəst kişinin sağaldığını görəndə buna nə cür reaksiya verdi?

5. Peter heyrətə gəlmiş izdihamı görəndə onlara vəz etməyə başladı. **11-26-cı ayələrdə Peterin izdihama etdiyi vəzi oxuyun.**

   16-ci ayəni oxuyun. Peter şikəst kişinin necə şəfa tapdığını söylədi?

6. Bu möcüzə Peterin vəzini eşitmək üçün insanların ürəyini necə açdı?

   **Həvarilərin İşləri 4:4-ü oxuyun.** Həmin gün Peterin vəzinə nə qədər insan iman etdi?

> **Qeyd: Həvarilərin İşləri 2-ci fəsildə** deyilir ki, qısa müddətdən əvvəl üç min insan iman etdi. İndi bütünlükdə iman edən beş min insan var idi. Bu o demək idi ki, bu dəfə daha iki min insan iman etmişdi. Qadınlar və uşaqlar adətən sayılmırdı, ona görə də iman edən insanların ümumi sayı yəqin ki, daha çox idi.

Dini rəhbərlər Peter və Yəhyanı İsanın adı ilə vəz etməsini xoşlamadılar. Onlar Peter və Yəhyanı həbs edib zindana saldılar. Onları cəzalandırmaq istəyirdilər, amma bilmirdilər ki, nə etsinlər. Yerusəlimdə olan hər bir kəs bilirdi ki, onlar vasitəsilə böyük möcüzə baş verib. Ona görə də dini rəhbərlər Peter və Yəhyaya hədə-qorxu gələrək, bir daha İsanın adı ilə danışmamağı əmr etdilər. Amma onlar qorxmadılar.

7. Onların etdikləri duaları **4:23-30-cu ayələrdə oxuyun.**

   29-30-cu ayələri yenidən oxuyun. Həvarilər Allahdan nə xahiş etmişdilər ki, onlardan istifadə edərək İsanın adı ilə etsin? Onların xahiş etdikləri şeyləri sayın. Allahdan tez-tez xahiş edirsinizmi ki, sizdən istifadə edərək Öz izzəti üçün bu şeyləri həyata keçirsin.

8. **İndi 31-ci ayəni oxuyun.** Allah onların dualarına necə cavab verdi?

   Allahın həmin duaya necə cavab verdiyi haqda daha ətraflı öyrənmək üçün aşağıdakıları oxuyun:

   **Həvarilərin İşləri 5:12-16      Həvarilərin İşləri 8:4-7**

9. Öz həyatınız barədə düşünün. Allahın Kəlamını danışmaq üçün daha cəsarətli olmağı arzu edirsinizmi? Vəz etdiyiniz Kəlamın həqiqətini və gücünü göstərmək üçün möcüzələrin baş verməsini istəyirsinizmi? Siz istəyirsinizmi ki, Allah başqalarına həm ruhani, həm də fiziki şəfa gətirmək üçün SİZDƏN istifadə etsin.

   Siz də həmçinin Həvarilərin İşləri 4:29-30-da olan həvarilərin duasını edə bilərsiniz. Onları gücləndirən həmin Müqəddəs Ruh ətrafınızda olanlara Allahın Padşahlığını gətirmək üçün sizi də hər gün doldura və gücləndirə bilər. İndi siz Ondan bunu xahiş edərsinizmi?

Mündəricat

# Mündəricat


Giriş 3
Müqəddəs Kitab Dərslərinin Prinsipləri və Rəhbərlər üçün Qaydalar 5
I. İsanin Ardıcılının Ürəyi 7
1. Həqiqi Xoşbəxtliyin Yolunu Aşkar Edin – 1-ci hissə 8
2. Həqiqi Xoşbəxtliyin Yolunu Aşkar Edin – 2-ci hissə 10
II. Tövbə Və İman Edin 13
3. Öz Salehliyinizə Güvənməyin 14
4. Sizin Günahlarınız Üçün İsanın Ölməsinə İnanın – 1-ci hissə 16
5. Sizin Günahlarınız Üçün İsanın Ölməsinə İnanın – 2-ci hissə 18
6. İsanın Dirilməsinə İnanın və Əbədi Həyatı Əldə Edin 20
7. Məsihin Nəyə Görə Ölməli Olduğunu Anlayın və Ona İman Edin 22
8. Allahın Ruhundan Doğulun 26
9. Yaxşı və Nəcib Ürəklə Kəlamı Qəbul Edin 28
10. Tövbə Edin və Götürdüyünüzü Geri Qaytarın 30
11. Ataya Hörmət Etdiyiniz Kimi Oğula da Hörmət Edin – 1-ci hissə 32
12. Ataya Hörmət Etdiyiniz Kimi Oğula da Hörmət Edin – 2-ci hissə 34
III. Vəftiz Olun 37
13. Su ilə Vəftiz Olun və Yeni Həyatı Yaşayın – 1-ci hissə 38
14. Su ilə Vəftiz Olun və Yeni Həyatı Yaşayın – 2-ci hissə 40
15. Müqəddəs Ruhla Dolu Olun – 1-ci hissə 43
16. Müqəddəs Ruhla Dolu Olun – 2-ci hissə 46
17. Müqəddəs Ruhu Köməkçiniz Kimi Qəbul Edin 48
IV. Sevin 51
18. Qonşunuzu Özünüz Kimi Sevin 52
19. Bir-birinizi Sevin və Bir Olun 54
20. Bir-birinizi Ürəkdən Bağışlayın 56
21. İtaətkar Xidmət Vasitəsilə Bir-birinizi Sevin 58
22. Düşmənlərinizi Sevin 60
V. Dua Edin 63
23. İkiüzlülər və Bütpərəstlər Kimi Dua Etməyin 64
24. Siz Belə Dua Edin 66
25. Daim Dua Edin və Ruhdan Düşməyin 70
26. Allahı Tanımaq Üçün Vaxt Ayırın 72

27. İman Adamı Olun 74
VI. Verin 77
28. Verərkən, Səxavətli Dul Qadını Yada Salın 78
29. Allahı Sevin, Pulu Deyil 80
30. Özünüz Üçün Göylərdə Xəzinə Toplayın 84
VII. Allaha Təmiz Ürəklə Xidmət Edin 87
31. Ürəkdə Təmiz Olun 88
32. Fariseylərin Mayasından Ehtiyatlı Olun 90
33. Öz Çarmıxınızı Götürüb İsanın Ardınca Gəlin - İsanın Ardıcılı Olmağın Nəyin Bahasına Başa Gələcəyini Düşünün 92
34. Ataya Ruhda və Həqiqətdə İbadət Edin 94
35. Nikaha Hörmət Edin və Onu Qoruyun - İsa Naminə Subay Olmağı Seçənlərə Hörmətlə Yanaşın 97
36. Allahın Kəlamı ilə Günaha Sövq Olunmaya Qalib Gəlin 100
37. Günaha Qalib Gəlməkdə Sevgi ilə Bir-birinizə Yardım Edin 102
38. Qoy Sizin Nurunuz İnsanlar Qarşısında Parlasın 104
VIII. Bəhrəli Və İsanın Gəlişinə Hazir Olun 107
39. İsada Qalın və Çoxlu Bəhrə Verin 108
40. İstedadınızdan İstifadə Edin 110
41. Ehtiyac İçində Olan İnsanlara Kömək Etməklə İsaya Xidmət Edin 112
42. İsanın İkinci Gəlişi Üçün Hazır Olun – 1-ci hissə 114
43. İsanın İkinci Gəlişi Üçün Hazır Olun – 2-ci hissə 116
IX. Rəbbin Süfrəsini Qəbul Edib Onun Ölümünü Xatirlayın 119
44. Həyat Çörəyindən Yeyin və Əbədi Yaşayın 120
45. Rəbbin Süfrəsində İştirak Etməklə İsanın Ölümünü Yada Salın 123
46. Rəbbin Süfrəsində İştirak Edəndə Öz Ürəklərinizi Yoxlayın 126
X. Gedin Və Şagirdlər Edin 129
47. Gedin və Bütün Millətləri Şagird Edin 130
48. Xoş Xəbəri Sizə Yaxın Olan Adamlarla Bölüşün 132
49. Uşaqlara İsanı Sevməyi və Xidmət Etməyi Öyrədin 134
50. Allahın Padşahlığını Cəsarətlə Vəz Edin 136

***"Yer və göy keçib gedəcək,***
***amma Mənim sözlərim əsla keçib getməyəcək."***
***Mark 13:31***